www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26-27 dekabr 2015-ci il Şənbə № 289 (6317) Qiyməti 40 qəpik

Xəbər

## Gənc müğənni intihar etdi

yazısı səh.14-də

Gündəm

### Dəmirdaşın Türkiyə xəyanəti, Rusiyanın cinayəti



"Amnesty İnternational" Moskvanı Suriyada dinc əhaliyə qarşı hərbi cinayətlərdə ittiham etdi; HDP sədrinin belə bir ölkəyə səfər edib Kremli haqlı çıxarması öldürülən dinc türk-müsəlmanların ruhuna da təhqirdir...

yazısı səh.9-da

### Çap mediası manat devalvasiyasından çıxış yollarını düşünür

yazısı səh.3-də

*Ekspert:*

### "Problemli kreditlər bankları məhv edəcək"

yazısı səh.4-də

### MTN-in ləğvindən sonra telefon danışığımız dinlənilirmi?

yazısı səh.6-da

### Yerli məhsullar niyə bahalaşır?

yazısı səh.4-də

### Azərbaycanlı məktəblilərin Kanadada təhsil alması üçün yandırılan "yaşıl işıq"

yazısı səh.10-da

### Hüquq müdafiəçiləri siyasi məhbusların əfvini gözləyirlər...

yazısı səh.7-də

### Gömrük və vergi sistemləri ASAN-laşacaqmı...

yazısı səh.10-da

### Manat müxalifəti bir araya gətirə biləcəkmi...

yazısı səh.7-də

### "Jurnalistlərin məmurları cərimələtməsi mümkün olmayacaq"

yazısı səh.13-də

### Öldürülən jurnalist Rasim Əliyevin qanı batırılırmı?

yazısı səh.12-də

## "Cahangir Hacıyevi himayə edənlər və danışdıranlar var"

# İQTİDAR DEPUTATINDAN HAKİMİYYƏTDAXİLİ PROSESLƏRLƏ BAĞLI ŞOK AÇIQLAMALAR

Zahid Oruc Beynəlxalq Bankın sabiq rəhbərinin türmədən məktub yazması barədə ilginc faktlar sadaladı; "Kürdəxanı siyasi oyun mərkəzinə çevrilməkdə davam edir" söyləyən millət vəkili MTN çetesinin oğurladığı milyardların marşrutu haqda danışdı




yazısı səh.8-də

## "Qara kəmər" əməliyyatı yenidən istintaqda - gizli qalmış məmur tutulub

"MTN işi"ndə gözlənilməz gəlişmə: "Osminoq" kimdir?; Hacı Məmmədovun bandasının hədəfində olan adamların telefonlarının dinlənilməsini Rabitə Nazirliyinin yüksək vəzifəli şəxsləri ötürüb; bildirilir ki, "Azərpoçt"un sabiq rəhbəri Qəmbər Bəybalayev məhz dəstə ilə əlaqəyə görə həbs edilib - onu 10 il əvvəl kim qoruyub...

yazısı səh.6-da



*Şahin Cəfərli:*

### "Kürd dövlətinin qurulmasını əngəlləmək mümkün deyil"

yazısı səh.9-da



### Rauf Mirqədirov son söz dedi

yazısı səh.2-də



Rüfət Səfərov

### Üsyankar eks-müstəntiq yeni müraciət yaydı: "Səhər oyandım ki..."

yazısı səh.12-də



# Rauf Mirqədirov son söz dedi

## Proses qeyri-müəyyən vaxta təxirə salındı; jurnalist bəraət istədi

**Dekabrın 25-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun məhkəmə prosesi qapalı davam etdi. Proses saat 16:00-a təyin olunsa da, vaxtından yarım saat gec başladı.**

Əlisultan Osmanovun sədrliyi ilə keçən məhkəmədə təqsirləndirilən şəxs son sözlə çıxış edib. Yarım saat davam edən prosesdən sonra müdafiə tərəfinin vəkili Fuad Ağayev mətbuata açıqlama verdi. O, vicdan məhbusunun sön sözündə bəraət istədiyini bildirdi: "Rauf məhkəmədə son sözlə çıxış etdi. Son sözündə o, müdafiə nitqində söylənilənləri müdafiə edərək, özünə bəraət istədi. Bir də onu bildirdi ki, bu qəbildən olan işlər Türkiyədə də çox olub. Bir sıra hərbi xadimləri, generalları, jurnalistləri həbs etmişdilər. Sonradan onları buraxdılar. Mirqədirov söylədi ki, barəsində bəraət hökmü çıxarılsa belə, qismən ədalət olacaq, bu ədalətin zəfəri sayıla bilməz. Onun həbsdə olduğu 20 ay müddəti, yaza bilmədiyi məqalələr geri qaytarıla bilməz. Onların artıq zamanı getdi. Heç olmasa bunların nəzərə alınıb, bəraət hökmü çıxarılmasını Rauf qeyd etdi. Onun həbsdə olduğu müddətin aradan qaldırılmasının vacibliyini vurğuladı. Bundan sonra məhkəmə müşavirəyə çıxdı. Hökmün elan ediləcəyi gün barədə gələn həftə məlumat veriləcək. Konkret vaxt təyin olunmadı. Son söz geniş müdafiə nitqi sayıla bilməz. Rauf bütün məsələlər üzərində dayanmadı. Heç buna ehtiyac da yox idi. Bəraət üçün əsasları mən söyləmişəm. Rauf sadəcə onların bir hissəsini təkrarladı".

**Vəkil bəraət hökmü üçün yetərincə sübutların olduğunu da qeyd etdi:** " Bəraət üçün əsas yetərincədir. Yaxın gələcəkdə bu barədə geniş açıqlama verəcəm. Bu tipli işlərdə təqsirləndirilən şəxs və onun müdafiəçisindən hansısa bir proqnoz gözləmək düzgün deyil. Ola bilər ki, kimsə bəraət hökmü çıxarılacağını, yaxud çıxarılmayacağını desin. Çalışıram ki, belə proqnozlardan vaz keçim. Düşünürəm ki, gələn həftə qərar oxuna bilər".

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Daha bir vəzifəli şəxs korrupsiya faktına görə tutulub

**Azərbaycanda daha bir vəzifəli şəxs korrupsiya faktına görə tutulub. APA-nın məlumatına görə, Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları ötən gün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Füzuli rayon şöbəsində əməliyyat keçirib. Əməliyyat zamanı şöbənin rəis müavini Yasər İbrahimov saxlanılıb. SHXÇDX-nın Füzuli rayon şöbəsindən APA-ya Y.İbrahimovun tutulması faktını təsdiqləyiblər.**

Hazırda əməliyyat tədbirləri davam etdirilir.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Azay Quliyev: "Şura sadəcə donor deyil, həm də...."

## QHT Şurasının katibliyinin müşavirəsində 2015-ci ildə icra olunan layihələrin vəziyyəti qənatəbəxş sayılıb

**Dekabrın 25-də Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin müşavirəsi keçirilib.**

İclasda çıxış edən **Şura sədri, millət vəkili Azay Quliyev** rəhbərlik etdiyi qurumun 2015-ci ildəki fəaliyyətinin məhsuldar olduğunu bildirib. Şura sədri yerli və beynəlxalq layihələrin icra vəziyyəti, ictimaiyyətlə əlaqələrin qurulması, layihə və hesabatların elektron formada qəbulu və digər sahələrdə uğurlu nəticələrin əldə edildiyini deyib: "Şura sadəcə donor deyil, QHT-lərin hərtərəfli inkişafı üçün məqsədyönlü siyasət həyata keçirən dövlət qurumudur".



QHT-lərin müqavilə öhdəliklərinə əməl olunması ilə bağlı məsuliyyətlərinin artırılmasının vacibliyini bildirən A.Quliyev dövlət vəsaitindən maksimum dərəcədə səmərəli və qənaətlə istifadə edilməsinin Şuranın fəaliyyətinin dəyişilməz istiqaməti olduğunu vurğulayıb.

Katibliyin fəaliyyəti haqqında geniş hesabatla çıxış edən icraçı direktor Fərasət Qurbanov Şuranın 2015-ci ildə 520 yerli və xarici QHT-nin layihəsini dəstəklədiyini, keçirilən təlim, seminar və konfranslarda ümumilikdə 72 min şəxsin iştirak etdiyini qeyd edib.

F.Qurbanov 2015-ci ildə QHT-lərin bilik və bacarıqlarının, təcrübələrinin artırılması üçün "Layihə hazırlığı", "Monitorinq və qiymətləndirmə", "İctimai problemlərin müəyyən olunması mexanizmləri" və digər mövzularda paytaxtda və regionlarda fəaliyyət göstərən QHT-lər üçün çoxsaylı təlimlərin keçirildiyini deyib. Hazırda Bakı və Qazaxda bu cür təlimlərin davam etdirildiyini deyən F. Qurbanov həmçinin, cari ildə 300-dən artıq QHT-yə illik maliyyə hesabatlarının hazırlanması ilə bağlı praktik yardımların göstərildiyini bildirib.

Müşavirədə Şuranın baş mühasibi Emin Məmmədov, hüquqşünas Rauf Məcidbəyli, mətbuat xidmətinin rəhbəri Elməddin Behbud, baş məsləhətçi Xanım Cəbrayılova və digər şəxslər 2015-ci ildə müvafiq sahələr üzrə görülmüş işlərlə bağlı hesabatla çıxış ediblər.

**İclasın yekununa A.Quliyev QHT layihələrinin icrasının səmərəliliyinin artırılması, audiovizual və çap məhsullarına nəzarətin gücləndirilməsi, sərgilərin keçirilməsi və digər məsələlər ilə bağlı Katiblik əməkdaşlarına tapşırıq və tövsiyələrini verib.**



# MTN-in Antiterror Mərkəzinin sabiq rəisi həbs edildi

**Ləğv edilən Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin sabiq rəisi, general mayor Elçin Quliyev həbs edilib. Bu barədə "Trend"ə etibarlı mənbə bildirib. Qeyd edək ki, bundan öncə, E.Quliyev MTN-in Heydər Əliyev adına Akademiyasının kafedra rəisi təyin edilmişdi. Əldə olunan məlumata görə, hazırda E.Quliyevə məxsus bütün mənzillərdə axtarış əməliyyatları aparılır. Qeyd edək ki, bir müddət öncə Bakı İstintaq Təcridxanasında intihar etmiş sabiq MTN-çi İlqar Əliyev E.Quliyevin müavini olub.**

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



# Mehman Kərimlinin oğlu dəfn edildi

**Müsavatın Məclis üzvü və partiyanın mətbuat xidmətinin əməkdaşı Mehman Kərimlinin kiçik oğlu Kamranın dəfn mərasimi keçirilib. İsveçin Yelivare şəhərində vaxtsız və faciəvi şəkildə vəfat edən Kamran Kərimli dünən Sulutəpə qəbiristanlığında torpağa tapşırılıb.**

Dəfn mərasimində mərhumun qohumları, dostları və müsavatçılar qatılıblar. Mərhumun ruhuna dualar oxunduqdan sonra Müsavat başqanı Arif Hacılı, istiqlalçı millət vəkili İsgəndər Həmidov və Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər çıxış edərək Mehman Kərimlinin və onun ailə üzvlərinin dərdinə şərik olduqlarını ifadə ediblər.

Kamran Kərimli üçün üç mərasimi bazar günü Mehman Kərimlinin Sulutəpədəki evində olacaq. Qadınlar üçün mərasim saat 12:00-da, kişilər üçün mərasim isə 14:00-da başlanacaq.

Allah rəhmət eləsin!

# KİV-ə qeyri-qanuni sponsorluq edənlərə sərt cəzalar tətbiq edilir

**Azərbaycanda kütləvi informasiya vasitələrinə qanunsuz sponsorluq edənlərə qarşı yeni və sərt cəzalar tətbiq olunur. Milli Məclisdən APA-ya verilən məlumata görə, bu, yeni hazırlanmış İnzibati Xətalar Məcəlləsinin 386-cı maddəsində təsbit olunub.**

Maddəyə görə, kütləvi informasiya vasitələrinə, o cümlədən teleradio verilişlərinin (proqramlarının) hazırlanmasında sponsorluqla bağlı "Televiziya və radio yayımı haqqında" və "Kütləvi informasiya haqqında" qanunların tələblərinin pozulmasına görə, fiziki şəxslər 1000 manatdan 1500 manata qədər, vəzifəli şəxslər 2500 manatdan 3 500 manata qədər, hüquqi şəxslər isə 8 000 manatdan 10 000 manata qədər cərimələnəcəklər. Mövcud məcəlləyə görə isə bununla bağlı cəzalar 30 manatdan 50 manatadək cərimədir. Azərbaycan prezidenti tərəfindən təqdim edilmiş yeni İnzibati Xətalar Məcəlləsi Milli Məclisin plenar iclasına tövsiyə olunub və dekabrın 29-da müzakirəyə çıxarılacaq. Məcəllə qəbul olunsa, 2016-cı il mayın 1-dən qüvvəyə minəcək.

# "Təcridxanada intihar edən şəxs İlqar Əliyevin kamera yoldaşı olmayıb"

**Ədliyyə Nazirliyi Penitensiar xidmət bir neçə gün əvvəl Bakı istintaq təcridxanasında (BİT) intihar edən təqsirləndirilən şəxslə bağlı yayılan məlumatlara aydınlıq gətirib.**

Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bəzi kütləvi informasiya vasitələrində Bakı istintaq təcridxanasında intihar etmiş, 177.3.3-cü maddəsi ilə (oğurluq) təqsirləndirilən və əvvəllər dəfələrlə məhkum edilmiş şəxs - Manaf Paşayevin ondan bir neçə gün öncə intihar etmiş digər təqsirləndirilən şəxs -hüquq-mühafizə orqanının işçisi İlqar Əliyevin kamera yoldaşı olması barədə həqiqətə uyğun olmayan və tam yalan məlumatlar yayılıb.

Ədliyyə Nazirliyinin Penitensiar xidməti bildirir ki, cəza-icra qanunvericiliyinə əsasən əvvəllər hüquq-mühafizə orqanlarında xidmət etmiş şəxslər digər həbs edilmiş şəxslərdən ayrı saxlanılırlar. Məhz bu səbəbdən göstərilən şəxslər nəinki eyni kamerada saxlanılmayıb, hətta ayrı-ayrı rejim korpuslarında yerləşdirilib.

Heç bir həqiqəti əks etdirməyən bu kimi yanlış məlumatlar cəmiyyətdə çaşqınlıq yaratmaq məqsədini daşıyır və mətbu orqanına nüfuz gətirmir.

Qeyd edək ki, ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin rəis müavini, polkovnik İlqar Əliyev MTN ətrafında baş verən hadisələrlə əlaqədar həbs olunmuş, dekabrın 20-də intihar etmişdi.

# Ermənilərin daha bir pilotsuz aparatı məhv edildi

**Azərbaycan Müdafiə Nazirliyi erməni silahlı birləşmələrinə məxsus pilotsuz uçan aparatın (PUA) vurulma anını əks edirən görüntüləri yayımlayıb.**

Nazirliyin saytında bildirilir ki, Azərbaycan tərəfi bu addımı PUA-nın guya vurulmadığı barədə erməni tərəfinin iddialarına cavab olaraq yayıb.

Videoda Azərbaycan mövqelərinə yaxınlaşan və çəkilişlər etməyə cəhd göstərən düşmən aparatının vurulma anı əks olunub. Bundan başqa, videoda vurulan PUA-nın kamerasından əldə edilmiş kadrlar da təqdim edilir.

# Vəli Nağıyev DMX rəisinin birinci müavini təyin edildi

**Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini təyin edilib. APA-nın məlumatına görə, bu barədə Azərbaycan prezidenti İlham Əliyev sərəncam imzalayıb. Sərəncama əsasən, Vəli Nağıyev Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini təyin edilib.**

Qeyd edək ki, 2011 il martın 3-dən 2014-cü il fevralın 11-dək Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini Teymur Mehdiyev olub. T.Mehdiyev Azərbaycan prezidenti İlham Əliyevin 5 may 2014-cü il tarixli sərəncamı ilə fövqəladə hallar nazirinin müavini təyin edilib və general-mayor ali hərbi rütbəsi verilib. Ötən dövr ərzində Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini vəzifəsinə təyinat olmayıb.

**Vəli Nağıyev Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, general-mayor Əli Nağıyevin qardaşıdır.**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Günün içindən

YENİ MÜSAVAT
N 289 (6317) 26 dekabr 2015

# KİVDF 2015-ci ilə optimist əhvalda yekun vurdu

## Prezidentin köməkçisi Əli Həsənov tədbirdə çıxışında dövlətin 2016-cı ildə də mətbuata dəstək verəcəyini söyləyib; fərdi jurnalist müsabiqəsində birinci yer tutan qaliblərin mükafatlandırılması mərasimi keçirildi

**Dekabrın 25-də Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist müsabiqəsində birinci yer tutan qaliblərin mükafatlandırılması mərasimi keçirildi.**

KİVDF-nin icraçı direktoru **Vüqar Səfərli** çıxışı zamanı qeyd etdi ki, 2015-ci il Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb: “2015-ci ildə milli mətbuatımızın 140 illiyi keçirildi. Möhtərəm prezidentimiz sərəncam imzaladı və 180 jurnalistə fəxri adlar verildi, ordenlər və medallar təqdim edildi. Fond il ərzində 11 fərdi yazı müsabiqəsi təşkil edib, 600-dən artıq jurnalist bu müsabiqələrdə iştirak edib, 450-yə yaxın jurnalist mükafatlandırılıb. Bu müsabiqəyə isə 60 media orqanından 156 yazı təqdim olunub. Yazılar 12 ekspert tərəfindən qiymətləndirilib. Qiymətləndirmə nəticəsində 113 qalib müəyyənləşib”.

**Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov** jurnalistləri və mərasim iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə təbrik etdi. Ə.Həsənov hakimiyyətin mediaya dəstəyindən danışdı. Prezidentin köməkçisi qarşıdakı ilin çətin olacağını da qeyd etdi. Səbəbini isə dünya neft bazarındakı konyuktur vəziyyətin hökm sürməsi ilə izah etdi. O, bildirdi ki, dünya neft bazarında qiymətin enməsi Azərbaycana da təsir edir. Ancaq Azərbaycanın bu vəziyyətdən çıxmaq üçün müvafiq konsepsiyası var.

**Ə.Həsənov bildirdi ki, dövlət başçısı və komandası nikbin əhval-ruhiyyədədir. Azərbaycan mediasının da əzmi imkan verəcək ki, gələcəyə uğurla addımlayaq:** “Prezidentin qarşısında Azərbaycan dövlətinin maraqlarının müdafiəsi, faydalı qarşılıqlı əməkdaşlıq dayanır. Media Azərbaycan hakimiyyətinin tərəfdaşı, partnyorudur. Biz medianı özümüzə rəqib görmürük. Dövlət başçısı da dəfələrlə deyib ki, medianı oxuyur və bir çox informasiyaları mediadan alır. Cəmiyyətin rəyinin hakimiyyətə çatdırılması mühüm vəzifədir və biz bundan sonra da bu imkandan istifadə edəcəyik. Bizimlə bağlı hansı qərəzli kampaniya aparılır-aparılsın, Azərbaycan heç bir dövlətdən geri qalmır, ölkədə söz və mətbuat azadlığı təmin olunub. İstənilən tərəflə bu barədə diskussiya apara bilərik. KİV-lərin müstəqilliyinin gücləndirilməsi istiqamətində səylər davam etdiriləcək. 2015-ci il milli mətbuatımız və ümumilikdə kütləvi informasiya vasitələri üçün uğurlu il olub və əlamətdar hadisələrlə yadda qalıb. Prezident İlham Əliyev hər zaman Azərbaycan mediasının inkişafı məsələlərini diqqət mərkəzində saxlayıb, onun problemlərinə xüsusi həssaslıqla yanaşıb və kütləvi informasiya vasitələrinin hərtərəfli inkişafına zəruri dəstək verib”.







**Prezidentin köməkçisi sonra dedi ki, hazırda Azərbaycanda 5000-dən artıq KİV uçota götürülüb və ya müvafiq dövlət orqanında qeydiyyatdan keçib. Ölkədə 50-dən çox televiziya və radio kanalı, 300-ə yaxın dövri mətbu nəşr, 100-dən artıq jurnal, onlarla informasiya agentliyi, jurnalist təşkilatı, yayım şirkəti, 300-dən çox fəal internet saytı fəaliyyət göstərir:** "Prezidentin “Azərbaycan milli mətbuatının 140 illik yubileyinin keçirilməsi haqqında” sərəncamına uyğun olaraq Zərdab, Masallı, Qəbələ, Quba rayonlarında və Gəncə şəhərində regional konfranslar keçirilib. Bundan başqa Bakı Dövlət Universiteti, Mədəniyyət və Turizm Nazirliyi, habelə rayon və şəhər icra hakimiyyətləri milli mətbuatın 140 illiyi ilə əlaqədar konfranslar təşkil ediblər. Prezidentin sərəncamına uyğun olaraq Azərbaycan Prezidenti Administrasiyasına redaksiyalardan və jurnalist təşkilatlarından KİV əməkdaşının dövlət mükafatlarına layiq görülməsi ilə bağlı 800-ə yaxın təqdimat daxil olub. 180 nəfər KİV əməkdaşına müxtəlif dövlət mükafatları və fəxri adlar verilib. İyulun 21-də prezident cənab İlham Əliyev Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvlərini qəbul edib və geniş nitq söyləyib. Dövlət başçısı Azərbaycan mətbuatının keçdiyi inkişaf yoluna nəzər salıb, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi, mövcud problemlər və onların həlli ilə bağlı öz dəyərli fikirlərini bölüşüb".

**Ə.Həsənov qeyd etdi ki ki, prezidentinin sərəncamına uyğun olaraq, jurnalistlər üçün inşa edilmiş 156 mənzillik binanın sənədləşdirmə işləri başa çatdırılıb və dekabrın 24-də jurnalistlərə müvafiq özəlləşmə sənədləri təqdim edilib:** "Jurnalistlər üçün digər 256 mənzillik binanın tikintisi davam etdirilir. 2016-cı ilə mənzillərin jurnalistlərə verilməsi planlaşdırılır".

Prezidentin köməkçisi bildirdi ki, söz və məlumat azadlığı Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunun mühüm tərkib hissəsidir və qarşıdan gələn dövrdə də Azərbaycan dövləti KİV-lərin müstəqilliyinin gücləndirilməsi istiqamətində səylərini davam etdirəcək. Lakin KİV-lər yaradılmış əlverişli şəraitdən sui-istifadə hallarına yol verməməli, daha peşəkar, məsuliyyətli olmalı, Azərbaycan cəmiyyətinin inkişafına, ümummilli məsələlərin həllinə dəyərli töhfələr verməlidirlər.

**Mətbuat Şurasının sədri Əflatun Amaşov** qalibləri təbrik etdikdən sonra jurnalistikanın xalqın mili şüurunun oyanmasında və müstəqil dövlət quruculuğunda mühüm rol oynamasından, prezidentin mediaya qayğısından danışdı: “Ona görə də Azərbaycan jurnalistikası kifayət qədər böyük hörmətə layiqdir. Bir məqamı qeyd edim. Jurnalistlər üçün yaşayış binası tikildi və bu günlərdə jurnalistlərə mənzillərin çıxarışı verildi. Prezident İlham Əliyevi jurnalistlər adından Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edirik”.

**Sonra müsabiqədə birinci yerə layiq görülmüş jurnalistlərə mükafatlar təqdim edildi. Qeyd edək ki, qaliblər sırasında “Yeni Müsavat”ın əməkdaşı Etibar Seyidağa da var.**

❑ **E.AĞAYEV**

# Çap mediası manat devalvasiyasından çıxış yolları düşünür

## Qəzet qiymətini artırmaq istəyən də var, jurnalistlərin məvacibini qaldırmağa hazırlaşan da

**Manatın 48 faizlik növbəti devalvasiyası çap mediasına da təsirsiz ötüşməyəcək. Onsuz da bu günə qədər çap xərclərinin ağırlığı, yayım, reklam problemi ilə bağlı çətin günlər yaşayan qəzet rəhbərləri bu problemdən sonra hansı addımları atacaqlar?**

**“Yeni Müsavat” qəzetinin baş direktoru Ələsgər Süleymanov** bizə açıqlamasında son durumu təhlil etdi. Dedi ki, əslində bugünkü devalvasiya xəbəri barədə daha öncə danışılsa da, yenə də əhali üçün gözlənilməz oldu: “Çünki müxtəlif iqtisadçılar, bu sahənin ekspertləri proqnoz verirdilər ki, hökumət ikinci devalvasiyaya imkan verməyəcək. Hamı da gözləyirdi ki, manatın məzənnəsi üzən məzənnəyə keçsə də, cüzi fərq edəcək və manatın düşməsi tədricən baş verəcək. Amma birdən-birə dollar bahalaşdı. Bu, ilin əvvəlindəki devalvasiya ilə birlikdə 98 faiz devalvasiya deməkdir. Başqa sözlə, manat dollarla müqayisədə iki dəfə dəyərdən düşüb”.

**Ə.Süleymanov dedi ki, ümumiyyətlə, qəzetlərin durumu bütün əhalinin durumu kimi acınacaqlıdır:** “Bu ilin fevralında manatın birinci devalvasiyasından sonra "Yeni Müsavat" qiyməti qaldırmaq istəsə də, sonradan fikrimizdən daşındıq. Camaatın vəziyyəti onsuz da yaxşı deyildi, üstəlik qəzeti də 50 qəpik etməyimiz satışa təsir göstərərdi. İndi düşünürük, qəzetin tirajınımı endirək, dövriliyimi azaldaq, işçilərimi ixtisar edək? Yəqin ki, ixtisara gedəcəyik. Proqnozlar pisdir, qəzetin dayanma təhlükəsi var. Vəziyyətdən çox narahatıq. İndiyə qədər qəzeti çətin vəziyyətdə, güclə saxlayırdıq. Bizim gəlirlərimiz olduğu kimi qalmaq şərtilə xərclərimiz iki dəfə artacaq. Bizi gözləyəcək aqibətin necə olacağını proqnozlaşdırmaq çətindir".

Müsahibimiz dedi ki, qəzetin durumu kritik olduğu üçün təcili qərarlar verilməli, qənaət, ixtisarlar edilməlidir. Ə.Süleymanov əks halda qəzetin fəaliyyətini dayandırmaq məcburiyyətində qalacaqlarını dedi.

Ə.Süleymanov hazırkı problemlərin fonunda metrolarda satışın, eləcə də əldə yayımın bərpasının vacibliyini bildirdi. Dedi ki, qəzet satışına qoyulan süni manelər dərhal aradan qaldırılmalıdır, əks halda vəziyyət daha da kritikləşəcək.



Ələsgər Süleymanov



Aynur Camalqızı



Aydın Quliyev

“Azadlıq” qəzeti yanvardan qiymətini qaldıracaq. **Qəzetin baş redaktorunun birinci müavini Rahim Hacıyev** bu barədə Azadlıq Radiosuna açıqlamasında bildirib. O, hələlik qiyməti açıqlamır, deyir, bircə bildikləri odur ki, qiymətin qaldırılması labüddür: “Devalvasiya "Azadlıq"ın onsuz da ağır maliyyə vəziyyətini daha da ağırlaşdıracaq. Əgər çapı dayandırsaq, bu, saytımızın da bağlanması demək olar. Çünki “Azadlıq”ın yeganə gəlir mənbəyi qəzet satışıdır".

**“Gündəlik Teleqraf” qəzetinin baş redaktoru Aynur Camalqızı** isə bununla bağlı hər hansı planları olmadığını bildirdi. Onun sözlərinə görə, yeni bazarın Azərbaycan mediasına necə təsir göstərəcəyini indidən təsəvvür etmək çətindir: “Xüsusən də ilin sonuna yaxınlaşırıq. İndiki halda əməkdaşlarımız bayram əhval-ruhiyyəsindədir. Yəqin ki, bayramdan sonra imkanlarımızı götür-qoy edərək izafi xərclərimizi azaldacağıq. Amma bütün hallarda mən çox nikbinəm perspektivlə bağlı. Azərbaycan dövləti güclüdür. Media da dövlətə güvənir. Azərbaycan prezidenti illərdir neft kapitalını insan kapitalına çevirmək xəttini əsas götürüb. Məncə, indi məhz insan kapitalına meydan verilməsinin zamanıdır”.

**A.Camalqızı həmçinin Azərbaycan insanını da ağıllı, zəhmətkeş və istedadlı adlandırdı. Onun fikrincə, insanlarımız dövlətimizi dəstəkləyir və bu çətinliklərin öhdəsindən gələcək:** “Düşünürəm ki, Azərbaycan bu böhrandan çıxacaq. Və həm də hakimiyyətin ağıllı şəkildə düşünülmüş qaz layihələri var. Həmin layihələrin icrasına başlanılacaq. Neftin qiymətinin düşməsi bir siyasi oyundur. TANAP layihəsi reallaşmağa başlayınca bu söhbətlər də əhəmiyyətini itirəcək”.

**“Bakı Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev** üçünsə bu şəraitdə işçilərin ixtisarı ən ağır, ən sonuncu və gündəmdə olmayan məsələdir: “Neçə ildir bir yerdə işləyən kollektivik, o baxımdan da ixtisar faktorunu yaxına buraxmaq istəmirik. Çətinliklərimiz olacaq, gözlənilir. Birinci növbədə çalışıram ki, xərclərin azaldılması hesabına maaşları cüzi də olsa artırım. Qəzet qiymətini artırmağa da getmək olar, amma bu, o qədər də effekt verməyəcək. Ona görə də bunu düşünmürük. Bu şəraitdə qiymətləri qaldırmaq onsuz da oxucuların ağır olan maddi vəziyyətini daha da ağırlaşdıra bilər”.

“Bizim yol” qəzeti isə hələ ki mətbəələrin tutacağı mövqeyi gözləyir. **Baş redaktor Bahədddin Həziyev** deyir ki, mətbəə hələ ki çap xərcini artırmayıb: “Çap xərcinin qalxması haqda bizə mətbəədən bir söz deyilməyib. Ona görə də bunu müzakirə etməmişik”.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 289 (6317) 26 yanvar 2014



# S.Dəmirtaş Moskvadan hansı təlimatları aldı?

Hüseynbala SƏLİMOV

**Doğrusu, son ana qədər belə hesab edirdim ki, S.Dəmirtaş Moskvaya səfər etməyəcək, çünki bu səfərə Türkiyədə çox kəskin neqativ reaksiya bildirilmişdi. Amma səfər baş tutdu. Məlum oldu ki, Xalqların Demokratik Partiyası elə həqiqətən də PKK-nın siyasi qanadı imiş, belə olmasaydı cənab Dəmirtaş problemlərinin həllini Türkiyənin özündə axtarardı...**

Dəmirtaşı xarici işlər naziri S.Lavrov qəbul etdi və səfərin absurd mənası açıqlandı - məlum oldu ki, rəsmi Moskva Dəmirtaşı ona görə dəvət edib ki, onlara Suriyada vuruşan bütün qüvvələrin, o cümlədən də Suriya kürdlərinin mövqeyini bilmək maraqlı imiş...

Demirtaş Moskvada birinci onu etdi ki, Türkiyənin rus təyyarəsini vurmasını düzgün olmayan hərəkət kimi səciyyələndirdi... Bunun özü Türkiyə ilə ixtilafa girmək demək idi, çünki bütün Türkiyə siyasətçiləri bunun əksini deyirdi...

Dəmirtaş niyə belə hərəkət edir? PKK-nı bir vaxtlar SSRİ, daha sonra isə bəzi Avropa ölkələri müdafiə edirdilər...

İndi Dəmirtaş yenidən bu cığıra qayıtmaq istəyir. Rusiyanın məqsədi aydındır. O, Türkiyəni içəridən laxlatmaq, ona problem yaratmaq üçün imkanlar və vasitələr arayır. Cənab Dəmirtaş da görünür bu xüsusda xidmətini təklif etmək istəyir...

Amma Türkiyə heç də bütün kürdlərlə vuruşmur. Bəlli olduğu kimi, o, İraq kürdlərinə hətta dəstək verir. İraqda hələ də türk əsgərləri qalır. Onlar yerli kürd döyüşçülərinə təlim keçirlər. Həm də İraqın konstitusiyasına görə bu ölkə neftdən gələn gəlirlərin 17-20 faizini kürd muxtariyyatına verməlidir, di gəl ki, vermirlər. Ona görə də kürd muxtariyyatı sərəncamında olan nefti də Türkiyə ərazisindən ixrac edir...

Türkiyənin savaşı PKK ilədir. Ona görə ki, bu, terrorist təşkilatdır. Dəmirtaş da nə qədər çalışsa da, Türkiyə üçün əlavə problem yarada bilməyəcək, çünki məsəl var, deyirlər ki, islanmışın yaşdan qorxusu olmaz. Türkiyə də bir növ RKK ilə çarpışmağa, vuruşmağa alışıb...

Güman edirik ki, Dəmirtaşın "dərin"ə gedəcəyi halda Türkiyə üçün ən düzgün addım bu partiyanın fəaliyyətini qadağan etmək olardı. S.Dəmirtaşın özünə isə güman ki, A.Öcalanın yanında yer tapılar...

Rusiyaya gəldikdə isə, bu ölkə ardıcıl məntiq zəncirini itirib. Artıq hamı etiraf edir ki, neftin kəskin ucuzlaşmasının bir səbəbi var - Rusiyanı çökdürmək... Əvvəllər bu, belə aydınlıqla etiraf olunmurdu, çoxlu sayda başqa səbəblər göstərirdilər. Amma indi hamı yekdildir...

Bu günlərdə Rusiya prezidenti V.Putin dedi ki, sanksiyaların və böhranın pik dövrü arxada qalıb. Amma heç kim prezidentin bu optimizmini bölüşmür, hamı özünü daha pessimist ssenarilərə hazırlayır. Putinə gəldikdə isə o, nikbin görünməyə məhkumdur, çünki bütün bu proseslərin müəllifi o, özüdür...

Elə gün olmur ki, hansısa xarici şirkətin Rusiyadan getməsi barədə xəbər yayılmasın. Rusiyalı siyasətçilər elə düşünür ki, ölkənin resursları böyükdür. Amma bu resurslar ötən əsrdə, yenidənqurma ərəfəsində də vardı və o vaxt SSRİ-ni heç kim qoruya bilmədi, ölkə çökdü...

İndi də bir çox təhlilçilər Rusiyadakı vəziyyəti ötən əsrdə yenidənqurma ərəfəsindəki vəziyyətlə müqayisə edirlər. Düzdür, indi Rusiyada planlı deyil, bazar iqtisadiyyatı hökm sürür. Amma bu, necə bazar iqtisadiyyatıdır, bunu hər birimiz bilirik...

Belə bir halda Rusiya özünün xarici əlaqələrinə çox həssas yanaşmalı idi. Gəl ki, belə olmadı - Rusiya Türkiyə ilə əsl savaşa başladı. Bu vaxta qədər deyilənləri və bəyan edilənləri siyasi isterikanın nəticəsi hesab etmək olardı və güman etmək olardı ki, bu, nə vaxtsa bitəcək...

Amma yox, Rusiya Türkiyəyə təsir etmək üçün daha "effektiv" üsullar axtarmağa başladı və seçimini kürd məsələsi üzərində dayandırdı. Amma elə bunu da siyasi isterikanın nəticəsi hesab etmək olar...

V.Putin unudur ki, Rusiya ABŞ deyil, onun total büdcəsi ABŞ-ın hərbi büdcəsinin yarısına bərabərdir. Putin unudur ki, Rusiya heç SSRİ də deyil. O vaxt SSRİ dünyaya təsir etmək üçün böyük pullar xərcləyirdi. Rusiyanın isə belə pulları yoxdur - o, çoxlu nüvə başlığı olan kasıb bir ölkədir...

Ona görə də S.Dəmirtaşın Rusiyaya səfəri haqqında düşünəndə adamın yadına bir türk deyimi düşür: "bütün bunlar mənə bir vız gəliyor..."...

**Ona görə də heç bir təlaş keçirmirik. Türkiyə böyük dövlətdir. Böyüklərin isə başı qalmaqalda gərək! Əsas odur ki, nə Dəmirtaş, nə onun Rusiyası Türkiyəyə heç nə edə bilməyəcək...**

# Yerli məhsullar niyə bahalaşır?

## "Hökumət anlayır ki, artıq bahalaşmanın qarşısını inzibati yolla almaq mümkün deyil"

**Manatın kəskin devalvasiyaya uğraması ilk növbədə özünü bazarlarda qiymətlərin sıçrayışla artmasına göstərdi. Xaricdən gətirilən məhsullarla yanaşı yerli məhsullarda da təxminən 50 faizlik bahalaşma müşahidə edildi.**



Təbii ki, bu məqamda xaricdən gətirlən məhsulların bahalaşması qaçılmaz id. Çünki, xarici bazardan dollar və avro ilə alınan məhsulun qiyməti manat ifadəsində avtomatik qalxmış oldu.

Lakin təəssüf doğuracaq başqa bir məqam yerli sənaye və kənd təsərrüfatı məshullarının da bahalaşması idi. Manatın devalvasiyasının həmin məhsulların qiymətinə birbaşa təsiri olmadığından yerli məhsulların bahalaşması etirazla qarşılandı. Bu satıcıların və iş adamlarının subyektiv addımı kimi qiymətləndirildi.

**İqtisadçı-ekspert Natiq Cəfərli** isə "Yeni Müsavat"a açıqlamasında yerli məşhulların qiymətinin artmasının obyektiv səbəblərindən danışdı. Ekspert bildirdi ki, yerli məhsulların da qiymətlərinin qalması normaldır və bunun iki obyektiv səbəbi var: "Birincisi, yerli istehsal olan məhsulların xammalının əksəriyyəti xaricdən gətirilir. Mağazalarda gördüyümüz, bizə yerli istehsal adı altında təqdim olunan məhsulların böyük əksəriyyəti sadəcə burada qablaşdırılır. Ancaq hətta qablaşdırmada istifadə olunan yapışqan maddəyə qədər hər şey xaricdən gətirilir. Bu çay məhsullarına da aiddir, süd məhsullarına da aiddir, şəkər məhsullarına da aiddir. Şəkər Azərbaycan məhsulu adı altında istehsal olunur. Ancaq gömrük bəyannaməsinə baxanda görürük ki şəkər xaricdən gətirilir və burada qablaşdırılır. Bu səbəbdən malın maya dəyir artırsa, onun satış qiyməti də artmalıdır. Çünki, xammalı xaricdən dollarla alınır".

N. Cəfərlinin sözlərinə görə, ikinci bir səbəb ondan ibarətdir ki, fermerin, kəndlinin, sahibkarın da xərcləri artıb və o qazandığı pulu əvvəlkindən baha olan bazarda xərcləməyə çalışacaq: "İqtisadiyyatın hər bir sahəsində bahalaşma gedir. Elektronikadan paltara qədər, ərzaqdan avtomobilə qədər hər şey bahalaşıb. Azərbaycanda corab belə istehsal olunmur, bunu da xaricdən alırıq. Yəni, fermer məhsulunu köhnə qiymətlə satsa əldə etdiyi vəsaitlə bazarda heç nə ala bilməyəcək. Çünki, onun qazandığı pulun dəyəri azalıb. Bu da yerli məhsulların bahalaşmasının əsas səbəblərindən biridir. Bu bahalaşmanın minimuma endirilməsinin yeganə yolu inzibati yollarla nəzarətin, dövlət orqanlarının müdaxilələrinin artması ilə yox, sağlam rəqabətli mühitin yaradılması iləidr. Sağlam rəqabətli mühit yaratmadan ancaq inzibati yollarla nə yerli, nə xarici məhsulların qiymət artımının qarşısını almaq mümkün deyil.

Bunun üçün ölkədə mülkiyyət toxunulmazlığı olmalıdır, ölkədə azad məhkəmələr olmalıdır. İqtisadi islahatın əsas komponenti hüquqi islahatlar olmadan heç bir investor bazarda investisiyasını artırmaq istəmir. Artıq elə bir mərhələdəyik ki, vergi-gömrük güzəştləri ilə iqtisadi problemləri həll etmək mümkün deyil. Artıq institutsional islahatlara ehtiyac var. Ona görə də, yerli məhsulların da, xaricdən gətirilən məhullarin da qiyməti obyektiv olaraq qalxacaq".

**Maraqlı məqamlardan biri də odur ki, birinci devalvasiyadan fərqli olaraq son devalvasiya zamanı qiymətlər dərhal, elə həmin günün axşamı qaldırıldı. Lakin fevral ayındakı devalvasiyada bu müşahidə edilməmişdi və hökumət inzibati yolla bahalaşmaya qarşı kəskin mübarizə aparırdı. Bəs, bu dəfə nə üçün oxşar hal baş vermədi və dekarın 22-də bazarda bütün qiymətlər qaldırıldı?**

**İqtisadçı-ekspert də təsdiqləyir ki, birinci devalvasiyadan sonrakı situasiya tam yerində deyil:** "O zaman qarşıdan Avropa Oyunları gəlirdi, biznesə qeyri-rəsmi mesaj verilmişdi ki, Avropa Oyunlarına qədər qiymətlər qalxmasın, sonra sizə şərait yaradacağıq ki, müəyyən artımlar edəsiniz. İkinci səbəbi isə o zaman devalvasiyanın olacağını hamı gözləyirdi, Bir çox iş adamları ehtiyatlarını öncədən tutmuşdular, ölkəyə çoxlu miqdarda mal daxil olmuşdu. Hətta ticarət dövriyyətmizin balansına baxanda görürük ki, 2014-cü ilin dekabrı və 2015-cı ilin yanvar aylarında ölkəyə külli miqdarda mal daxil olub. Yəni, iş adamlarında bu gözləntilər var idi və mal tədarükü görülmüşdü, köhnə məzənnə ilə anbarları doldurmuşdular. Bunun da qiymətlərə təsiri oldu və əvvəlcədən alınmış mallar hesabına qiymətləri uzun müddət sabit saxlamaq mümkün oldu. Ancaq sonradan qiymətlərin inzibati üsulla tənzimlənməsi mümkün oldu və bu ilin avqust ayından bahalaşma müşahidə edildi. Son devalvasiyadan öncə də qiymət artımı olmuşdu. İndi isə 47 faiz devalvasiya baş verdi. Hökumət anlayır ki, artıq bahalaşmanın qarşısını inzibati yolla almaq mümkün deyil. Yəni, əvvəl 1 dollara alınmış məhsul 1.2 manata satılırdısa, indi 1.55 manatdan baha satılmalıdır ki, qazanc əldə edilsin. Yəni, bahalaşma artıq qaçılmazdır".

❑ Nərgiz LİFTİYEVA

# "Problemli kreditlər bankları məhv edəcək"

## Ekspertlər bildirirlər ki, problemli kreditlərdən dolayı bankların çoxu müflis olacaq və əmanətlər batacaq...

**Problemli kreditlərlə bağlı ölkədə vəziyyət pik həddədir. İlin əvvəlində baş verən devalvasiyadan sonra banklarda qaytarıla bilməyən kreditlərin həcmi kəskin şəkildə artıb. Vəziyyət artan xəttlə davam edir. Son məlumatlara görə, problemli kreditlərin həcmi 1,3 milyard manata çatıb. Əhaliyə verilən hər yüz manatdan yeddisi geri qayıtmır. Ötən il bu rəqəm 976,3 milyon manat idi.**



Ekspertlər bildirirlər ki, hökumət mövcud durumla bağlı konkret tədbirlər görməlidir. Çünki dollarla kredit götürən vətəndaşların durumu ağırdır. Ekspertlərin sözlərinə görə, devalvasiya zamanı Rusiya, Qazaxıstan kimi ölkələrin təcrübəsinə əsaslanıb müəyyən addımlar atıla bilər.

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a bildirib ki, problemli kreditlərin yaranmasında bankların kredit siyasəti günahkardır. Yəni banklar xaricdən aşağı faizlə ucuz kreditlər götürürərək, manata çevirir və əhaliyə çox yüksək faizlə verirdi. Bu da onların qaytarılmasında problem yaradıb. Daha sonra baş verən iqtisadi hadisələr bank sektorundakı neqativ halların fəsadlarını ortaya çıxarıb. Onun sözlərinə görə, artıq proses idarəolunmaz hal alıb və bu, bank sektorunun çökməsi ilə nəticələnə bilər.

**Ekspert Əkrəm Həsənov** isə qeyd edib ki, ikinci devalvasiyanın nəticəsi olaraq problemli kreditlərin həcmi xeyli artacaq, kreditlər ödənməyəcək və nəticədə bankların çoxu müflis olacaq, əmanətlər batacaq. "Dollarla kredit götürənlərin, xüsusilə, ötən il bu krediti alanların borcu iki dəfə artıb. Qorxulu tendensiya yaranıb. Burada söhbət təkcə vətəndaşlardan deyil, biznes sahəsindən də gedir. Sahibkarların da əksəriyyəti kreditlərini qaytarmamaq qərarına gəliblər. Əgər fevral devalvasiyasından sonra çox çətinliklə də olsa ödəmə aparırdılarsa, indiki devalvasiyadan sonra artıq başa düşürlər ki, borclarını ödəyə bilməyəcəklər. Ona görə də əhali dollarla olan kreditlərini kütləvi şəkildə qaytarmaqdan imtina etməli olacaq",- deyə ekspert qeyd edib.

**Onun sözlərinə görə, problemli kreditlər həll edilməsə, bu, ilk növbədə bank sistemini çökdürəcək, iqtisadiyyatı zəiflədəcək:** "Bu, eyni zamanda insanlarımızın həyatı və sağlamlığı üçün də təhlükə olaraq qalacaq. Digər problem əmanətlərin batması olacaq. Kreditlər qayıtmırsa, banklar əmanətləri necə qaytaracaq? Artıq bir neçə bank hazırda əmanətləri qaytarmır, Mərkəzi Bank isə heç nə etmir. Bu da məsələnin digər tərəfidir. Təəssüf ki, problemli kreditlərin kökü Mərkəzi Bankın banklar üzərindəki səmərəsiz nəzarətidir. Proseslərə hökumətin müdaxiləsi olmazsa, bankların böyük əksəriyyəti bağlana bilər". Ekspertin sözlərinə görə, çox sayda bank müflis olduğu halda da Əmanətlərin Sığortalanması Fondu isə müflis olacaq bu qədər bankın əmanətlərini kompensasiya edə bilməyəcək.

**Ekspert Pərviz Heydərov** isə bildirib ki, növbəti devalvasiya problemli kreditlərin həcmini kəskin artıracaq: "Kreditlərin ödənişi müddətləri maksimum səviyyədə uzadıla bilər. Problemli krediti olan banklara dövlət tərəfindən müvafiq maliyyə dəstəyi həyata keçirməkkompensasiya yolu ilə bağışlanması kimi məsələ də təcili olaraq gündəliyə gətirilməlidir".

❑ Röya RƏFİYEVA

# Cahangir Hacıyev Eldar Mahmudovla əlaqələrini təkzib edir

## Bəs, faktlar nə deyir?

**"Azərbaycan Beynəlxalq Bankı" (ABB) ASC İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin Eldar Mahmudovla bağlı mövqeyini ifadə edən müraciət yayıb. "Report"a təqdim olunan müraciətində C.Hacıyev MBA-Moskva Bankını məhz onun iflasa saldığı haqda iddiaların əsassız olduğunu qeyd edir.**

O, qudası, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun bu banklar vasitəsilə biznes əlaqəsi olmasına dair mətbuatda yer alan iddialara da münasibət bildirib: "Qeyd etmək istəyərəm ki, Eldar Mahmudovun nə Beynəlxalq Bankla, nə də MBA Moskva Bankı ilə heç bir əlaqəsi olmayıb, ümumiyyətlə, mənimlə hər hansı bir biznes əlaqəsi olmayıb. Mətbuatda gedən bu informasiyalar cəfəngiyatdır. Bir neçə gün öncə, həmçinin MBA Moskva Bankının rəhbəri Yaşar Səfərovun da adını mənimlə bağlayaraq iddia ediblər ki, guya onu bu vəzifəyə mən təyin etmişəm. Qeyd etmək istəyirəm ki, mən 2015-ci ilin mart ayında vəzifədən azad olunmuşam, Yaşar Səfərov isə indiki vəzifəsinə 2015-ci ilin sentyabr ayında təyin edilib, ABB-nin hazırkı rəhbərliyinin təyinatıdır. MBA Moskva Bankı barəsində həm Rusiyanın, həm də "Deloitte" kimi mötəbər şirkətlərin audit aktları bir daha sübut edir ki, mənim rəhbərliyim dövründə bu bankın likvidliyi yaxşı olub, bütün illəri mənfəətlə başa vurub. Bankın yeni rəhbərliyi isə məhz törəmə şirkətlərlə səriştəsiz işlədiyi üçün 2015-ci ildə törəmə şirkətlər bu vəziyyətlə üzləşib".

**ABB-nin sabiq rəhbəri barəsindəki digər iddialara da münasibət bildirib:** "Həmçinin mətbuatda qeyd olunur ki, Moskvada qeydiyyatda olan bəzi şirkətlər və Zaur İsazadə Cahangir Hacıyevin benefisiarıdır. Bununla bağlı qeyd edim ki, həmin şirkətlərin və Zaur İsazadənin mənimlə əlaqəsi yoxdur, hazırda həmin şirkətlər və qeyd olunan həmin şəxs Beynəlxalq Bankın yeni rəhbərliyi və Maliyyə Nazirliyi ilə sıx şəkildə təmasdadırlar. Həmin şirkətlər ABB və Maliyyə Nazirliyinin nəzarətindədir və Xəqani Bəşirovla əlaqəli şirkətlərdir. Hazırda da ABB və Maliyyə Nazirliyi Xəqani Bəşirovla Avropada sıx təmasda olmaqla bərabər öz aralarında benefisiarın kim olduğunu müəyyənləşdirirlər. Nəticə olaraq benefisiar məhz həmin şəxslər və qurumlardır. Ümumiyyətlə ABB ilə əlaqədar onu qeyd etmək istəyirəm ki, 2008-ci ildə dünyada gedən qlobal böhran məhz ABB-dən də yan keçmədi. ABB-nin maliyyə dəstəyi ilə həyata keçirilən layihələr 2010-2013-cü illər ərzində edilməsi, yoxlanış obyekti olmaları idi. 2013-cü ildə məhz baş prokuror ABB-nin layihələri olan şirkətlər barəsində cinayət işinə xitam verib və nəticədə bütün hüquqi sənədlər şirkətlərin özünə qaytarılıb. Bundan sonra isə şirkətlər yenidən fəaliyyətə başlayaraq dirçəlməyə başladılar. Bir çox şirkətlər məhz ölkə ərazisində normal fəaliyyətlərini davam etdirməkdə idi. Böhrandan sonra bankın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün Mərkəzi Bank və Maliyyə Nazirliyi tərəfindən Beynəlxalq Banka subordinasiya krediti verildi, bu kreditin əksər hissəsi isə xarici borclara və yerli layihələrin tamamlanmasına yönəldilib. Buna qədər ABB fiskal orqanlar tərəfindən hər hansı bir yardım olmayıb. Bütün likvidlik xaricdən cəlb olunan resurs hesabına əldə edilib. 2014-cü ildə ABB Avropa qiymətli kağızlar bazarına daxil olaraq 500 milyon avroluq avro bondlar buraxdı. Çox təəssüf ki, vəzifədən uzaqlaşmağım, bu layihənin tamamlanmasına əngəl oldu. Həmçinin o da qeyd olunmalıdır ki, dünyada gedən iqtisadi tənəzzül çoxsaylı yoxlamalara məruz qaldı, hətta müəyyən faktların aydınlaşdırılması üçün cinayət işi də qaldırıldı. Bu ərəfədə şirkətlərin normal işi pozuldu, onların fəaliyyəti iflic vəziyyətinə düşdü. Bunun əsas səbəbi isə şirkətlərə məxsus möhürlərin, hüquqi sənədlərin, digər fəaliyyət üçün zəruri olan avadanlıqların istintaqa və təhqiqata cəlb Azərbaycandan da yan keçmədi, məhz həmin layihələrin tam fəaliyyətində ləngimələrə səbəb oldu, həmçinin ABB rəhbərliyinin dəyişilməsi, o layihələrin həyata keçirilməsini və yekunlaşdırılmasını ümumiyyətlə mümkünsüz hala gətirdi".

*C.Hacıyev düzmü deyir? Onun fikirləri özünümüdafiədir, yoxsa həqiqət?*


Eldar Mahmudov


Cahangir Hacıyev

Mətbuat Cahangir Hacıyev azadlıqda olarkən onun rəhbərlik etdiyi bankda və bankla əlaqəli baş verən qanunsuzluqlar haqda dəfələrlə yazıb. O dövrdə C.Hacıyevi məhkəməyə çəkənlərin birmənalı şəkildə uduzdurulmasında qudası Eldar Mahmudovun rolunun olması haqda məlumatlar vardı. Lakin bunu açıq şəkildə kimsə demirdi, mətbuatda da buna görə bu haqda yazılmırdı. Məhkəmələrə vətəndaşların xeyrinə çıxardığı qətnamələr isə sadəcə icra olunmurdu. C.Hacıyev özünü Azərbaycan adından çıxarılan məhkəmə qərarlarından üstün tutur, qətnamələrdən irəli gələn tələbləri icra etməkdən yayınmırdı. Onu qudasına görə "gözün üstə qaşın var" deyən də olmurdu. O dövrdə qanunları tanımıyan bir bankirin həbsindən sonra qanunun tələblərinə riayət olunmasını tələb etməsi, ona münasibətdə qanunsuzluğa yol verilməsini söyləməsi də sadəcə, gülməlidir. Məsələn, jam.az saytında "Eldar Mahmudovun "devalvasiya əməliyyatı"" sərlövhəli yazıda C.Hacıyevlə qudasının bu ilin fevralında baş tutan devalvasiya zamanı qazandıqları paradan söhbət açılır.

**Həmin yazıdan sitat:** "Devalvasiya oyunundan ən çox qazananlar sırasında iki adamın adı çəkilir. Onlardan biri sabiq MTN şefi Eldar Mahmudov, digəri isə Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevdir. Eldar Mahmudov bütün dövlət ərkanını dinlətdiyi üçün devalvasiyadan əvvəl xəbər tutub. Bu məlumatı dəyərləndirən sabiq nazir qudası Cahangir Hacıyevin vasitəsi ilə qazanc əməliyyatına başlayıb. Gələn xəbərlərdə vurğulanır ki, Beynəlxalq Bank vasitəsi ilə bir günün içində Eldar Mahmudova məxsus olan 1 milyard manata yaxın vəsait təcili şəkildə dollara çevrilib. Və bu proses bir çox sahibkarların əli ilə həyata keçirilib ki, iz itirilsin. Toplam 1 milyard 270 milyon dollar vəsait gecəykən xarici ölkələrdən birində fəaliyyət göstərən bankdakı hesaba köçürülüb. Elə sirin üstü də buradan açılıb. Cahangir Hacıyev isə Eldar Mahmudovun işlərini gördüyü bir ərəfədə, paralel olaraq özü devalvasiyadan qazanmağa başlayıb. Belə ki, o, özünə simsar bildiyi iş adamlarını başına yığaraq, onlara manatla kredit vermək imkanı olduğunu çatdırıb. Və situasiyanı da izah edib. Nəticədə dövlət sirri yayılıb, möhtəkirlər qazanc əldə etməyə başlayıblar".

**Qeyd edək ki, C.Hacıyev dekabrın 5-də həbs edilib. Onun barəsində Nərimanov Rayon Məhkəməsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. C.Hacıyev Cinayət Məcəlləsinin 179.1 (mənimsəmə və ya israf etmə, yəni təqsirkara etibar edilmiş özgə əmlakını talama) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə ittiham olunur. Sabiq bank rəhbərinin qudası Eldar Mahmudov isə oktyabrın 17-də milli təhlükəsizlik naziri vəzifəsindən azad edilib.**

❑ **E.HÜSEYNOV**

# Heç vaxt "heç vaxt" demə



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Yeni təqvim ili ərəfəsi adətən, köhnənin yekunları vurulur, təzə üçün planlar cızılır - istər şəxsi planda olsun, istərsə də ictimai-siyasi planda.**

Orta azərbaycanlı üçün fərdi yekunlardan danışmağa əlbəttə ki, dəymir. Əgər 2016-cı ilin ərəfəsində hökumət xalqa "üzən məzənnə" adlı "qiymətli" Yeni il "hədiyyəsi" edibsə və üstəlik, bunun ağır fəsadlarını önləmək üçün heç bir ciddi tədbir görmürsə, "başlı başını saxlasın" sloqanını ortaya atıbsa, növbəti illə bağlı nikbin olmaq və planlar qurmaq qəliz məsələdir.

Hələ dəqiq bilinmir ki, manatın özü Yeni ilə hansı qiyafədə, hansı vəziyyətdə və hansı kursla girəcək. Bugünkü məzənnə şükür ediləsi ola, hətta az sonra dəmir pullara ehtiyac qalmaya bilər...

Əslində manatın bir ildə iki dəfə ciddi dəyər itirərək ən zəif valyutaya çevrilməsi həm də dövlətin zəifləməsi deməkdir. Zira, güclü dövlətin güclü iqtisadiyyatı və ona uyğun da güclü valyutası olur. Əgər qonşu Gürcüstanda lari il ərzində 36%, Qazaxıstanda təngə 40% ucuzlaşdığı halda manat 98% dəyərdən düşübsə, deməli, biz bu il dövlət olaraq da, iqtisadi cəhətdən də Gürcüstan və Qazaxıstandan geri qalmışıq, zəifləmişik.

Eyni məntiqlə milli pulu - dolları dünyaya meydan oxuyan ABŞ dünyanın ən qüdrətli dövlətidir, çünki ən güclü iqtisadiyyata, ən güclü valyutaya sahibdir. Bu dərəcədə bəsit bir meyar, bəsit bir həqiqət. Yerdə qalanlar - Azərbaycanın guya regionun lider dövləti olması haqda bəyanatlar pafosdan savayı bir şey deyil və heç kimə - nə sadə xalqa, nə də dünyaya inandırıcı gələ bilməz. Əlahəzrət fakt başqa şeydir...

Güclü dövlətin güclü iqtisadiyyatı və yalnız bu iqtisadiyyatdan asılı sanballı büdcəsi, dayanıqlı pulu olur, daha bizim manat kimi neft-qazın qiymətinə göz dikib ABŞ dolları qarşısında daim tir-tir əsmir. Biz hələ onu yazmırıq ki, güclü iqtisadiyyat güclü ordunun varlığı üçün də əsas şərtdir.

Sadalananlardan sonra "torpaqlarımız niyə bir il də düşmən tapdağı altında qaldı" sualının dərki gərək ki, asan olsun. Hərçənd başa çatmaqda olan ilin ən böyük təsəllisi bəlkə də elə budur - ərazilər geri qaytarılmasa da işğal faktı da rəsmiləşmədi. Buna da şükür. Və bir də şükürlər olsun ki, Azərbaycanı bu il də Putinin Avrasiya layihələrinə qoşmaq mümkün olmadı.

Xarici işlər naziri Elmar Məmmədyarovun ilsonu verdiyi geniş müsahibə ümid eləməyə əsas yaradır ki (heç olmasa bir pozitiv ümidlə təzə ilə gedirik), rəsmi Bakı ümumiyyətlə, üzvlüyə hazırlaşmır. Halbuki, öncələr Moskva qarşısında işğal, "bir neçə rayon" şərtini qoyurdu.

Müsahibədən sitat: "İlk növbədə bütün region üçün təhlükə olan və regional əməkdaşlığa əngəl yaradan Ermənistanın Azərbaycana qarşı işğalı aradan qalxmalıdır. Nəticə etibarilə Ermənistan və Azərbaycan arasında qurulacaq əlaqələrin tərkib hissəsi kimi Avrasiya İqtisadi İttifaqı ölkələri Ermənistana çıxış üçün əlverişli nəqliyyat tranziti imkanları əldə edə bilərlər. Lakin bu, hələ Azərbaycanın bu təşkilata üzvlüyü demək deyil".

Diqqət edildi yəqin ki, XİN başçısı erməni işğalı aradan qaldırılsa belə, Azərbaycanın Avrasiya Birliyinə yüzdə-yüz üzv olacağı vədini vermir. Bu, onun ilin ortalarında verdiyi analoji açıqlamadan fərqlənir. O zaman nazir bildirmişdi ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılarsa, Bakı məsələyə baxa bilər və əlavə eləmişdi ki, "heç vaxt "heç vaxt" demə". Prinsipial fərq ortadadır. Bəs səbəb?

Görünür, Bakı Qarabağ məsələsində Rusiyadan əlini birdəfəlik üzüb. Moskva-Ankara münasibətlərinin soyumasının da mövqeyə təsirsiz ötüşmədiyi şəksizdir. Demək, Türkiyənin Azərbaycan üçün artan dəyəri ciddiyə alınır. Bunu da gəlin, 2015-in barmaqla sayılacaq pozitiv, kövrək siyasi yekunlarından sayaq.

**2016-da bunun davamı gələcəkmi? Manatın durumuna baxanda söyləmək çətindir. Amma heç vaxt "heç vaxt" deməyək. Davam gələ də bilər. Necə? Bu, artıq ayrı yazının mövzusudur.**

# "MTN işi"ndə gözlənilməz gəlişmə: "osminoq" kimdir?

**Eldar Mahmudovun nazir postundan azad edilməsindən sonra MTN-də və Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (bundan sonra qısa olaraq Rabitə Nazirliyi) həbslərin yeni təfərrüatları ilə bağlı redaksiyamıza şok bilgilər daxil olub. Məlumata görə, xüsusən Rabitə Nazirliyindəki həbslər 2005-ci ilin martında Hacı Məmmədovun dəstəsinin azadlıqda qalmış sirli fiqurantlarının üzə çıxması ilə bağlıdır. Məlumdur ki, MTN generalitetinin ağır cinayətləri aşkar olunduqdan sonra qanqster dəstənin başçısı, ömürlük həbs cəzası alsa da, 10 ildir ki, "təhlükəsizliyi səbəbindən" MTN təcridxanasında saxlanılan Hacı Məmmədov "Qara kəmər" əməliyyatı ilə bağlı istintaqın təzələnməsini istəyib. H.Məmmədov iddia edir ki, Eldar Mahmudov çetesi bu işin məhkəməsi zamanı onu yönləndiriblər, DİN-in bəzi yüksək vəzifəli şəxslərinin adının günahkarlar sırasında hallanmasını istəyiblər.**



# "Qara kəmər" əməliyyatı yenidən istintaqda - gizli qalmış məmur tutulub

## Məlum olub ki, Hacı Məmmədovun bandasının hədəfində olan adamların telefonlarının dinlənilməsini, eləcə də onların hərəkət koordinatlarını Rabitə Nazirliyinin yüksək vəzifəli şəxsləri ötürüb; bildirilir ki, "Azərpoçt"un sabiq rəhbəri Qəmbər Bəybalayev məhz dəstə ilə əlaqəyə görə həbs edilib-onu 10 il əvvəl kim qoruyub...

"Yeni Müsavat"a bilgili mənbənin verdiyi xəbərdə isə deyilir ki, MTN çetesinin qandallanması ilə "Qara kəmər" əməliyyatının ələ keçməyən fiqurantlarının həbsi gündəmə gəlib. Xatırladaq ki, H.Məmmədov özü də məhkəmədə etiraf etmişdi ki, o, cinayətkar dəstənin bir üzvüdür, digərləri ələ keçməyib və hələ də iş başındadırlar.

Qaynağımız iddia edir ki, Hacı Məmmədovun "osminoq" dediyi dəstənin üzvləri indi həbs edilirlər, bu səbəbdən də "Qara kəmər" işinin yenidən təzələnməsi gündəmə gəlib. Məlum olub ki, H.Məmmədovun dəstəsinə ciddi "informasiya dəstəyi" - yeni bandanın hədəfində olan adamların telefonlarının dinlənilməsi, onların hərəkət koordinatlarını ötürənlər sırasında Rabitə Nazirliyinin *( o zaman məhz belə adlanırdı)* yüksək vəzifəli şəxsləri də olub.

Bildirilir ki, "Azərpoçt"un sabiq rəhbəri Qəmbər Bəybalayev məhz H.Məmmədovun dəstəsi ilə əlaqəyə görə həbs edilib. Rəsmi məlumatda Q.Bəybalayevin Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən saxlanıldığı deyilsə də, mənbəmiz israr edir ki, "Azərpoçt"un sabiq rəhbəri H.Məmmədov işinə görə tutulub. "Axı necə ola bilər ki, korrupsiyada ittiham olunan Qəmbər Bəybalayevin həbsindən düz 20 gün sonra antikorrupsiya idarəsindən "Azərpoçt"a gəliblər. O zaman da yalnız bəzi maliyyə sənədlərini götürdülər. Bununla da yoxlama bitib. Əslində Qəmbər Bəybalayevin "Azərpoçt"da yeyinti etməyə ehtiyacı yox idi. Düzdür, onun Dubayda qurduğu şirkət Bakıya 80 dollardan kompüterlər gətirdib poçt şöbələrində 1800 manatdan quraşdırır. Amma onun digər işlərə qarışacağı yox idi, əsas işləri müavini Sübhan Kazımov (Əli Əhmədovun bacısı oğlu) görürdü. O, Eldar Mahmudovla çox yaxın, həmişə birgə nərd oynayan adam idi".

Mənbəmizin sözlərinə görə, Hacı Məmmədovun dəstəsi ələ keçəndə Q.Bəybalayev "Aztelekom"da baş direktor işləyirmiş. "Aztelekom" hətta mobil telefonları da dinləmək imkanı olduğu üçün Hacı Məmmədova müəyyən informasiyalar ötürülüb. Qeyd edək ki, məhkəmə zamanı da törədilən qətllərdə bandanın bəzi şəxslərin yerini necə dəqiqliklə müəyyənləşdirməsi sirri kimi qalmışdı.

Bildirilir ki, Qəmbər Bəybalayev Eldar Mahmudovu hələ DİN-də işlədiyi vaxtdan tanıyırmış. Onlar isə sabiq rabitə naziri Nadir Əhmədov vasitəsilə tanış olublar. "Qara kəmər" əməliyyatında "Aztelekom"un iştirakı üzə çıxsa da, məhz Eldar Mahmudovun qoruması sayəsində Q.Bəybalayev məsuliyyətdən yayındırılıb. İddia olunur ki, Q.Bəybalayev və digər rabitə çetesi uzun illər Eldar Mahmudova hətta MTN-dən də keyfiyyətli xidmət göstəriblər.

Hacı Məmmədovun vəkilinin "Yeni Müsavat"a söylədikləri də "Qara kəmər" əməliyyatı zamanı məsuliyyətdən yayınanların yenidən istintaqa cəlb oluna biləcəyi xəbərlərini təsdiqləyir. Vəkil deyib ki, o, Hacı Məmmədovla bağlı qaranlıq məqamlara aydınlıq gətirilməsi üçün Ali Məhkəməyə müraciət hazırlayır. Ali Məhkəmə isə yeni açılmış hallara bağlı işi ləğv edə və məhkəməni hətta birinci instansiya məhkəməsinə qaytara bilər.

❑ **"Yeni Müsavat"**

# Hacı Məmmədovun vəkili Ali Məhkəməyə müraciət hazırlayır

## Afət Qazıyeva: "Yaxın günlərdə müraciətimiz olacaq"

**Ömürlük həbsdə olan Daxili İşlər Nazirliyinin (DİN) sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovun vəkili Afət Qazıyeva Ali Məhkəməyə müraciət hazırlayır. "Yeni Müsavat" əməkdaşının suallarını cavablandıran vəkil deyib ki, hazırda müvəkkilinin Ali Məhkəməyə müraciətini hazırlayır: "Hacı Məmmədova hüquqi yardım göstərirəm, yəqin ki, yaxın günlərdə müraciətimiz olacaq".**

A.Qazıyeva 2005-ci ildə Hacı Məmmədovla birgə həbs olunaraq məhkəmə qarşısına çıxarılmış Faiq Quliyevin vəkili olub. Hacı Məmmədov və digərlərinin Bakı Ağır Cinayətlər Məhkəməsində, sonradan isə Bakı Apelyasiya Məhkəməsində keçirilən məhkəmə iclaslarında F.Quliyevin müdafiəçisi olaraq çıxış edib. Bu baxımdan işə bələd olan vəkillərdəndir.

Bu arada H.Məmmədovun işi üzrə həbs olunaraq ömürlük həbsə məhkum olunmuş DİN generalı, qurumun Cinayət Axtarış İdarəsinin rəisi olmuş Zakir Nəsirovun vəkili Adil İsmayılovun müvəkkilinin əfvi üçün prezidentə müraciət etməsi xəbəri yayılıb. Vəkil "Yeni Müsavat"a bildirib ki, belə bir müraciətləri olmayıb. A.İsmayılov H.Məmmədovun işin yenilənməsi ilə bağlı müraciət edəcəyi haqda mətbuatdan məlumat aldığını bildirib. Qeyd edib ki, hələlik işlə bağlı onlara hər hansı bir rəsmi məlumat verilməyib: "Hacı Məmmədov özü vəkili vasitəsi ilə müraciət edə bilər. Onun belə bir müraciəti əsaslı olardı. Çünki birbaşa özünə aid məsələ haqda deyir, araşdırılmasını istəyir. Onların müraciəti əsasında işə yenidən baxıla bilər. Biz isə tərəf olaraq mətbuatdakı çıxışlara istinad edib Ali Məhkəməyə yaza bilmərik".

A.İsmayılov müvəkkilinin barəsindəki hökmün əsassız olduğunu bir daha diqqətə çatdırıb: "Zakir Nəsirov etmədiyi cinayətə görə həbsdədir. Bunu dəfələrlə demişik".

Ali Məhkəmə Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsindən sorğumuza cavab olaraq bildiriblər ki, Hacı Məmmədovun müraciəti daxil olmayıb.

Yada salaq ki, Hacı Məmmədov ömürlük məhkum olunandan sonra gözlənilənlərin əksinə olaraq Qobustan həbsxanasına köçürülməyib. Onu bir qədər əvvəl ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanasında saxlayıblar. Eldar Mahmudov nazir vəzifəsindən uzaqlaşdırılandan az sonra Hacı Məmmədov işin yenidən araşdırılmasını tələb etməyə başlayıb. Məşhur arestantın bacısı Arifə Məmmədova bir müddət əvvəl "Yeni Müsavat"a açıqlama verərək bildirib ki, qardaşını MTN-də son 10 il faktiki girov vəziyyətində saxlayıblar. A.Məmmədovanın sözlərindən aydın olub ki, Hacı Məmmədov işin yenidən araşdırılmasını tələb edir. Buna görə də ona yeni vəkil tutulub.

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış** "Yeni Müsavat"a bildirib ki, H.Məmmədovun yeni faktlar açıqlamaq istəyi ilə bağlı Ali Məhkəmənin plenumuna təqdimat verilə bilər. Ali Məhkəmə Hacı Məmmədovla bağlı çıxarılan qərarları ləğv edə və təkrar araşdırma üçün işi 2-ci instansiya məhkəməsinə göndərə bilər: "İkinci bir hal isə yeni açılmış hallarla bağlıdır. Cinayət Prosessual Məcəlləsinin yeni açılmış hallarla bağlı Ali Məhkəmə həmin işi ləğv edə və məhkəməni hətta birinci instansiya məhkəməsinə qaytara bilər. Digər hallarda işin ibtidai istintaqa qaytarılması mümkün deyil".

M.Baxış hesab edir ki, əgər araşdırma nəticəsində H.Məmmədov və digərlərinə qarşı irəli sürülən ittihamlar təsdiqini tapmasa, bu barədə prokurora məlumat verməlidir. Əgər ittihamlar təsdiqini tapmasa birinci instansiya məhkəməsi bəraət hökmü çıxara bilər.

Qeyd edək ki, Hacı Məmmədov və digərləri 2005-ci il martın 10-da MTN-in keçirdiyi "Qara kəmər" əməliyyatı zamanı həbs olunublar. 2006-cı ildən 2007-ci ilə qədər davam edən məhkəmə zamanı H.Məmmədov yarımçıq ifadələr verməklə, bir-birinə zidd olan fikirlər səsləndirib. Məhkəmənin keçirildiyi günlərdə mətbuatda onun həqiqəti gizlətməyə çalışdığı haqda çoxsaylı yazılar dərc olunub. Hacı Məmmədovun yarımçıq ifadələri ilə yaddaşlarda qalan məhkəmənin sonunda onun özü də daxil olmaqla, DİN-in keçmiş şöbə müdiri Kamil Sədrəddinov, nazirliyin Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirov və digər 7 nəfər ömürlük həbs cəzasına məhkum ediliblər. Zamində olan 3 nəfərdən biri - İbrahim Bağırovun işi xitam edilib. Digər 2 nəfər - Azər Əliyev və Aqil Hüseynov isə 2 il şərti cəza alıblar. Onlar saxta sənəd hazırlamaqda, dələduzluq və sair bu kimi əməllərdə təqsirli bilinirdilər. Qalan 13 nəfərə isə 8 ildən 15 ilədək həbs cəzası verilmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

# MTN-in ləğvindən sonra telefon danışığımız dinlənilirmi?

## Ekspert: "İnanmıram ki..."




**Milli Təhlükəsizlik Nazirliyi ləğv edildikdən sonra ictimaiyyətdə hələ də telefon danışıqlarının qanunsuz şəkildə dinlənilməsi ilə bağlı müzakirələr davam edir. "MTN işi" aşkara çıxdığı zaman, bir hal da məlum oldu ki, keçmiş sturukturun ifşa olunan əməkdaşları, provayderlərə xüsusi qurğular quraraq müxtəlif sosial təbəqəyə aid insanlar dinləyiblər.**

***Bəs indi necə, dinlənirikmi?***

Məsələ ilə bağlı musavat.com-a ekspert İlham İsmayıl danışıb. O bildirib ki, dinləmələr hər zaman olacaq: "Ancaq söhbət qanuni dinləmədən gedir. Qanuni dinləmələri qadağan etmək olmaz. Bu proses "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunla tənzimlənir. Sadəcə olaraq, söhbət qanunsuz dinləmələrdən gedirsə, hesab edirəm ki, bu dayandırılıb. Yuxarıda adını qeyd etdiyimiz qanunda birmənalı şəkildə göstərilir ki, provayderin mülkiyyət hüququndan asılı olmayaraq əməliyyat zamanı dinləməyə yardım etmək onların borcudur. Qanuni dinləmək hazırkı Dövlət Təhlükəsizlik Xidmətinin əlindədir. MTN-in ifşa edilən əməkdaşları qanunsuz dinləmələrə görə "yandılar". Bu baxımdan da inanmıram ki, yeni rəhbərlik də qanunsuz kimisə dinləsin".

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz isə provayderlərlə bağlı bəzi nüansları açıqlayıb: ""Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanuna görə gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrin əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsinə müvəkkil edilməmiş fiziki və hüquqi şəxslər tərəfindən işlənilməsi, istehsalı, satışı, alınması, ölkəyə gətirilməsi və ölkədən çıxarılması Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada lisenziyalaşdırılmalıdır. Artıq qanunvericilik imkan verir ki, qanuna uyğun olaraq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidməti istənilən vaxt dinləmələr aparıb, informasiya əldə edə bilsinlər. Dünyada da bu proses mövcuddur. Əvvəllər bu primitiv qaydada həyata keçirilirdi. İndi qanunvericilik tələb edir ki, sistem öncədən elə qurulmalıdır ki, müvafiq qurumlar istədikləri zaman müdaxilə edib, axtarış, dinləmə həyata keçirə bilsinlər. Bu o deməkdir ki, mobil operator öz sistemini qurub, lisenziya aldığı zaman artıq onlardan bu məqam tələb olunur ki, elə sistem qurmalıdırlar ki, dinləmə üçün şərait olsun. Bunu artıq yuxarıda qeyd etdiyim qanunun maddələri tələb edir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 289 (6317) 26 dekabr 2015

# Hüquq müdafiəçiləri siyasi məhbusların əfvini gözləyirlər...

## Vəkillər də siyasi motivlərlə həbs olunanların azadlığa buraxılmasının vacibliyini vurğulayırlar...



**Yeni ildə əfv olacağı dəqiqləşib. Artıq İnsan hüquq məsələləri üzrə Birgə İşçi Qrup tərəfindən həbsdə olan şəxslərlə bağlı 22 nəfərlik siyahını yenidən Əfv Komissiyasına təqdim edib. Son olaraq Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının üzvü, deputat Azay Quliyev bildirib ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə yüzdən çox məhbus əfv oluna bilər.**

Əfvlə bağlı bütün səlahiyyətlərin prezidentə məxsus olduğunu bildirən A.Quliyev "Trend"ə açıqlamasında əlavə edib ki, dövlət başçısı belə məqamlarda həmişə çox böyük humanistlik göstərib: "Prezident bizim təqdim etdiyimiz siyahıdan heç vaxt heç bir məhbusun adını çıxartmayıb. Tam əksinə, o, siyahıya əlavələr edib. Ona görə də əminik ki, Prezident növbəti dəfə çox mühüm fərman imzalayacaq. Çoxlu sayda vətəndaşlarımızı yerdə qalan cəzalarından azad edəcək. Onları ailələrinə qovuşduracaq. Bununla da onların ailələrinə ikiqat sevinc bəxş edəcək".

Hüquq müdafiəçiləri də ümidlidir. **Hüquq müdafiəçisi Səadət Bənənyarlı** musavat.com-a açıqlamasında bildirb ki, əfv siyashısına siyasi məhbusların salınacağına ümid edir: "Ümid edirəm, həm də arzulayıram ki, əfv olsun. Biz bir daha dövlət başçısına müraciət etdik ki, 22 siyasi məhbusun da adını əfv olunanların siyahısına salsın. Biz həmin şəxsləri azadlıqda görmək istəyirik. Bu gün cəmiyyətin diqqətində olan həmin şəxslərin yeni ilə qədər azadlığa çıxacağına ümid edirəm".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı** isə qeyd edib ki, təqdim etdikləri siyahıdakı şəxslərin əfvə düşəcəyinə inanırlar: "Gözləyirik ki, həmin şəxslər əfvə düşəcəklər. Hər halda, o səlahiyyət prezidentindir. Elə bilirəm ki, o, hüquq müdafiəçilərinin işçi qrupunun xahişinə biganə qalmayacaq və o insanlar azadlığa buraxılacaq".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** da musavat.com-a bildirib ki, dekabrın 29-dək əfvin verilməsini gözləyirlər: "Ümid edirik ki, o siyahıda siyasi məhbuslar da olacaq. Bu, humanist və böyük bir addım olardı".

**Əfv komissiyasının üzvü, millət vəkili Məlahət İbrahimqızı** isə Azvision-a deyib ki, növbəti əfv fərmanı ilə yüzdən çox məhbus azadlığa çıxacaq. Deputat bildirib ki, əfv üçün komissiyaya yüzlərlə müraciət daxil olub: "Bu dəfə müraciətlər əvvəlki illərlə müqayisədə çoxdur. Artıq komissiya işini yekunlaşdırıb. Komissiyaya daxil olan müraciətlərlə bağlı yekun siyahı Azərbaycan Prezidentinə təqdim olunub".

Vəkillər də əfv fərmanına siyasi məhbusların düşməsinin vacibliyini qeyd edirlər. **Tofiq Yaqublu, Sirac Kərimli və Fərəc Kərimlinin vəkili olan Nemət Kərimli** musavat.com-a bildirib ki, hüquqlarını müdafiə etdiyi hər üç şəxs azadlığa buraxılmalıdır: "Vəziyyəti düzgün qiymətləndirsək, hər dəfə bayramqabağı hökumət nümayəndələri əfv olacağını bildirsələr də, bu, hər dəfə reallaşmır. Onlar bu cür açıqlamalarla cəmiyyətdə yumşalma, yüngüllük yaratmaq istəyirlər. Buna görə məncə, əfv ehtimalı inandırıcı deyil. Müdafiə etdiyim şəxslərə gəlincə isə, onlar qanunsuz olaraq həbs ediliblər, biri üç ildir, ikisi isə bir ildən artıqdır ki, həbsdədirlər. Humanizm prinsipi ilə məsələyə yanaşdıqda, onlar azadlığa buraxılmalıdırlar". İlqar Məmmədov və Tofiq Yaqublunun vəkili Fuad Ağayev isə proqnoz vermək niyyətində olmadığını vurğulayıb.

"Nigar Yaqublu deyirdi ki, "əvvəllər hər bayramda ümidlə gözləyirdik ki, əfv olacaq, atamız gəlib çıxacaq. Neçə bayramları beləcə yola salandan sonra artıq hər şeyi axarına buraxdıq". Biz qarşımızdakı bu təcrübəli insanları görüb lap ilk günlərdən heç nəyə ümid etmədik". Bunu həbsdə olan hüquq müdafiəçisi **İntiqam Əliyevin qızı Nərmin Kamilsoy** azadliq.org-a bildirib. Onun sözlərinə görə, atası belə tezliklə azad olunmaq üçün həbs edilməyib. İntiqam Əliyevin onlara ismarışı da olub,"tezliklə buraxılmağımı gözləməyin" deyib: "Bilirdik ki, tutublarsa, saxta cinayət işi açılacaq, saxta cinayət işi varsa, saxta da məhkəmə olacaq, ətrafda bu qədər saxta adamlar varsa, 7-8 il də iş verəcəklər. Əfv gözləmək bizim üçün çox tezdir, biz indi artıq 3 ilə yaxındır ki, həbsdə olan Rəşadətin, Rəşadın, Ömərin, Məmmədin, İlkinin, Tofiq Yaqublunun, Anar Məmmədlinin və digərlərinin azadlığa çıxmasını gözləyirik. Bizim zamanımızın dolmasına hələ var".

**Nərmin Kamilsoy əlavə edib ki, öncə adını çəkdiyi şəxslər azadlığa buraxılmalıdır. İntiqam Əliyevin adı əfv siyahısına düşməsə belə, nə onunçün, nə də ailəsi üçün psixoloji baxımdan dəyişən bir şey olmayacaq. Qızı belə düşünür:** "Amma fiziki baxımdan onunçün çox şey dəyişəcək. Azadlıqda olanda işlərdən vaxt tapdıqca mütəmadi müalicələr alırdı, həbsxanada isə səhhəti hər gün bir az da geriləyir. Orada müayinə, müalicə tamamilə mümkünsüzdür, nə vaxta qədər həbsxanada xəstəliklərinə dəf gələ biləcəyini bilmirik. Hər halda nə xəstəlikdən, nə də orda həbsxanada olmaqdan şikayətlənmir".

"Rəsul pozitivdir, əfv olmasa da ovqatı pozulmaz". 1 il 4 aydır həbsdə olan digər hüquq müdafiəçisi Rəsul Cəfərovun ailəsi də gözünü əfv yolundan yığıb. "2 dəfə əfv fərmanı oldu, amma Rəsulun adı siyahıya düşmədi". Bunu **qardaşı Sənan Cəfərov** deyir. Onun sözlərinə görə, Rəsulun həbsindən sonra ilk əfvlərdə gözləntiləri olub: "Bu gün Rəsulla görüşdüm, əfv barədə danışdıq, heç nə bilmir, dedi ki, "yaşayarıq, görərik". Sənan Cəfərov deyir ki, Rəsul xaraktercə optimistdir: "Rəsul pozitiv insandır, inanmıram ki,əfvə düşməsə belə, bu, onun ovqatını pozsun".

❑ **Röya RƏFİYEVA**

# Neft böhranının yeganə xeyri



**Xalid KAZIMLI**

**Prinsipcə, neft bu qiymətə ola bilməz. Bu qədər dəyərli, yüz cür məmulatın hazırlanmasında əsas xammal olan məhsul - enerjidaşıyıcısı, sözün birbaşa mənasında sudan ucuz olub. Bu, anormaldır.**

Çünki bulaqlardan özü çağlayan və qablaşdırılması asan bir iş olan mineral sudan fərqli olaraq, neftin yer təkinin kilometrlərlə dərinliyindən, dəniz şelfindən min bir əziyyətlə, üstəlik, müasir bahalı texnologiyalardan istifadə etməklə çıxarılır.

Gəl gör ki, hazırda mineral su, hətta bir çox adi içməli suların bir litri neftin, benzinin bir litrindən bahadır.

Əlbəttə ki, neftin qiymətinin bu sayaq ucuzlaşması təbii amillərlə - təklifin tələbi üstələməsi, hasilatın gözlənilmədən artmasıyla bağlı deyil. Bu, hər kəsə aydındır.

Nefti qəsdən ucuzlaşdırdılar. Məqsəd əsasən son illərdə çox aqressivləşmiş Rusiyanı çökdürmək, daha sonra neft pullarının qudurtduğu ərəb ölkələrini, Venesuelanı, İranı yumşaltmaqdır.

ABŞ-ın, Qərb dairələrinin bu planı maddə-maddə həyata keçirilir. Ara yerdə bizim kimi kiçik, ancaq dünənə qədər pis-yaxşı dolanan ölkələr də sıxıntıya girir.

Biz bu düzəni dəyişmək, buna qarşı çıxmaq gücündə deyilik. Hətta o böyük ölkələr də prosesin məcrasını dəyişmək iqtidarında deyillər. Onlar nefti bahalaşdırmaq istəsələr, tamam batarlar.

Bizim gücümüz yalnız yeni iqtisadi situasiyaya uyğunlaşmağa çatır. Bundan ötrü nefti hələ 2-3 il əvvəldən unutmaq lazım idi. Bunu etməmişik. Ona görə də yeni duruma hazırlıqsız yaxalanmışıq.

Məsələyə bir az da strateji prizmadan baxmaq lazımdır. Neftin ucuzlaşması ilə düşdüyümüz dərin iqtisadi böhrandan birtəhər çıxacağıq. Dövlət müstəqilliyimizə də bir şey olası deyil, acından da ölməyəcəyik, millətin təhlükəsizliyi də pis-yaxşı təmin olunacaq.

Ancaq artan neft pullarının hesabına neoimperiya ambisiyaları günbəgün şiddətlənən və bu üzdən dağılmış SSRİ-ni bu və ya digər adla bərpa etmək istəyən Rusiyanın yumşaldılması üçün qüdrətli dövlətlərin belə bir fənddən istifadə etməsi bizə sərf edir.

İndi Rusiya qırmızı imperiyanın sərhədlərini bərpa etmək ideyasını ya təxirə salmalı olacaq, ya da birdəfəlik arxivə göndərəcək. O, buna məcburdur, çünki öz məkrli, ekspansiv niyyətlərini gerçəkləşdirmək üçün əlində lazımi resursları yoxdur.

Əksinə olsaydı, neft və qazın artan qiyməti hesabına hər gün milyardlar qazanan Rusiyanın qabağında durmaq çətin olacaqdı. O zaman o, ölkəmizə də, onun bütün resurslarına da sahib olacaqdı. Necə ki olurdu da.

Bəlkə çoxları, daha dəqiqini desək, gənc nəsil bilmir, amma həqiqət belədir: sovet dövründə neftdən gələn hər yüz manatın 97-si Moskvaya gedir, 3 manatı bizə qalırdı. Ona görə də SSRİ dövründə neft ölkəsi Azərbaycanla heç bir strateji resursu olmayan Ermənistanın arasında maddi rifah baxımından fərq yox idi.

Olan fərq də ermənilərin xeyrinəydi. Çünki qonşu ölkə mərkəzdən dotasiya alırdı. Bizim sərvətlərdən gələn mənfəətin bir hissəsi Ermənistana yönəldilirdi.

Son illər Ermənistanla Azərbaycanın arasındakı paradoksal fərq bu üzdəndir. Çoxu ölkəmizə qalan neft pullarının hesabına Bakı dəbdəbə, təntənə hayındaykən, İrəvanda həyat çox sönük idi.

Rusiyanın niyyətləri həyata keçsəydi və ya indən belə keçərsə, hər kəs əmin olsun ki, Ermənistanla aramızdakı bütün fərqlər aradan qalxacaq.

Ona görə də Rusiya ilə mədəni dünya (ABŞ və Qərbin qüdrətli ölkələri) arasında gedən bu ölüm-dirim savaşını diqqətlə izləmək gərəkdir. Bizim nicatımız Rusiyanın normal, qeyri-aqressiv siyasət yeritməyə məcbur qalmasından asılıdır.

Yenidən Rusiyaya kölə olub hər şeyi itirməkdənsə, neftin ucuzlaşmasıyla bağlı ölkənin düşdüyü böhrana dözmək yaxşıdır. Amma indilikdə.

Heç kəs bizi məcbur etmir ki, gözümüzü neftə dikib duraq, onun nə vaxtsa bahalaşacağına ümid edə-edə yaşayaq.

Əksinə, təcili şəkildə tədbirlər görmək, necə deyərlər, çabalamaq, antiböhran tədbirləri üzərində işləmək lazımdır. Bundan ötrü ölkədə kifayət qədər elmli kadr potensialı var. Onu hərəkətə gətirmək ölkə rəhbərliyinin əlində texniki işdir.

**Yox, heç bir tədbir görülməyəcəksə, bizi ətalət basacaqsa, insanların güzəranı ağırlaşmaqda davam edəcəksə, demək, biz müstəqil dövlət qurub inkişaf etməyə, yaxşı yaşamağa layiq deyilmişik.**

# Manat müxalifəti bir araya gətirə biləcəkmi...

## Pərən-pərən düşmüş düşərgənin toplaşması üçün şərait yetişib, amma...

**Manatın kəskin ucuzlaşması ölkəni yeni ciddi situasiya ilə üz-üzə qoyub. Müxalifət düşərgəsindən belə bir vəziyyətin sonda kataklizmlərə yol açmaması üçün hakimiyyəti tədbirlər görməyə, görülən tədbirlər sırasında müxalifətlə bir araya gəlməyə çağırıb. Müxalifət partiyalarının özlərinin isə münasibətlərində uzun müddətdir soyuqluq yaşanır, faktiki olaraq müxalifət partiyaları nəinki bir arada deyillər, əksinə, pərən-pərən düşüblər. Bəs, devalvasiya və onun yaratdığı fəsadlar müxalifəti bir araya gətirə biləcəkmi?**

**ADP sədri Sərdar Cəlaloğlu** hesab edir ki, müxalifə düşərgəsində liderlər arasında münasibətlər o qədər pozulub manatın devalvasiyası və bundan doğan problemlərin müxalifəti bir araya gətirə biləcəyi mümkün görünmür: "Birincisi, elə proseslər getdi, liderlər elə davranışlar nümayiş etdirdi ki, həqiqətən də çox pis münasibətlər meydana gəldi və bu vəziyyət hələ davam edir. Azərbaycan müxalifətini adətən mən təşəbbüslər qaldırıb bir araya gətirirdim. AXCP-nin qurultayında olan o məlum hadisədən sonra, mənim Əli Kərimli ilə münasibətlərim tam korlanandan, eləcə də Əli Kərimlinin Müsavatla münasibətləri pozulandan sonra müxalifəti bir araya gətirəcək nə bir adam qaldı, nə də bir araya gətiriləcək adamlar qaldı. Yəni bəzən elə subyektiv amillər var ki, biz nə qədər desək də siyasətdə subyektivlik o qədər vacib deyil, amma etiraf eləməliyik bəzən dünya siyasətində belə, liderlərin bir-biri ilə münasibətindən çox şey asılı olur. Nəzərə alsaq ki, müxalifət partiyalarının liderlərinin münasibətləri faktiki olaraq pozulub, ona görə də Azərbaycan müxalifətini bir araya gətirmək çox çətin olacaq. Müxalifətin bir araya gəlməsi, ölkə və xüsusən də xalq üçün çox məsuliyyətli bir dövrün yaşandığı zamanda müxalifətin bir araya gəlməsi bizim siyasi xəttimizin mühüm cizgisi olmalıdır. Təəssüf ki, elə vəziyyət yaranıb bu məsələdə ümidverici nəsə söyləmək olmur. Şəxsən mənim ümidim yoxdur. Nə elə bir lider var ki, irəli çıxsın qolunu çırmasın hamını bir araya yığsın, hamı ilə bərabər məsafədə olsun, nə də hamının yanında nüfuzu olsun. Son illərdə o qədər ciddi konfliktlər, bir-birinə qarşı ittihamlar olub ki, adamları bir araya gətirmək çox çətindir".




❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 289 (6317) 26 dekabr 2015



# Dopinqlə doqquzuncu

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən belə bir xəbər başlığı gördüm: “Bakıda 400 kvadratmetr sahədə qamışlıq yanır”. Bəh-bəh... Paytaxtında bu qədər qamışlıqlar olan dövlət basılmazdır. Görün bizim inkişafımız hara qədər çatıbdır. Peykimiz kosmosu şumlayır, paytaxtımızda isə qamışlıqlarda qurbağalar quruldayır. Birinci kərə deyil, bundan qabaq da mən icra hakimi Xaləddin müəllimin Binəqədi rayon YAP-ının qərargahı önündə çoxlu qamış əkdiyini görüb sevincək olmuşdum. Hətta qamışların qotazlı çiçəkləri arasından boylanan bir neçə Yalıncıq da gözümə dəymişdi. Ancaq indi yanan qamışlıq deyəsən Sabunçu tərəfdə idi. Harada olur-olsun. Təki könlümüz açılsın. Bəlkə o qamışlıqda qaban, ördək, qaşqaldaq da dolaşır. Böhran dövründə ovlayıb yaşayarıq. Öz kökümüzə - mağara dövrünə qayıdırıq. Tütək çalın, muğam oxuyun, yallı gedin. Manat cəhənnəmə ölsün.**

Təzəlikcə devalvasiya haqda bir yazımı sosial şəbəkədə paylaşmışdım. Hikmət Quliyev adlı bir şəxs yazının altından şərh yazmışdı: “Sizin yazıları oxuyub kefimi korlamaq istəmirəm. Çünki AzTV-yə baxıb təsəlli alıram. Başqa yolum yoxdur, yoxsa infarkt keçirərəm”.

Doğrudan çox müdrik qərardır. Mən özüm iki gün qabaq AzTV-nin devalvasiya haqda süjetinə baxdım. Orda çıxış edən bütün zəhmətkeşlər dedilər ki, manatın ölməsinin bizə qəti təsiri yoxdur, qoy dollarla alver edənlər dərd çəksin. Hətta biri dedi ucuzluq başlayıb. Belə verilişlərə baxıb hardasa üçüncü ölçülü, paralel kainatda xoşbəxt yaşamağın nəyi pisdir? Gülə-gülə ölmək lazımdır. Son nəfəsimizə qədər optimist olmalıyıq. Bu nikbin ruhu isə hazırda bizə yalnız AzTV verir.

Bu mənada ölkənin əsas ərzaq monopolistlərindən biri “Azərsun”un malları bahalaşdırmağa məcbur olmaları haqda açıqlamasını qınayıram. İnkar eləmək olardı. Denən harda bahalıq var? Hər şey köhnə qiymətədir. Arxanda AzTV boyda şahid durur. Ancaq bunlar deyir: “Bizim insanımız düşünür ki, məhsul Azərbaycanda istehsal olunursa, niyə bahalaşıb? Anlamırlar ki, lazımlı xammal idxal olunur”.

Ey gidi dünya... Dünənə qədər mən xeyli adama izah edə bilmirdim ki, əslində bizim kənd təsərrüfatı “havadır”, şardır, içində heç zad yoxdur. “Azərbaycan malı” adıyla satılan bütün gündəlik işlənən əsas ərzaqlar - çay, yağ, un, qənd və sairə xaricdən gəlir, burda onu ancaq qaba doldurub satırlar. Ancaq kimə deyirsən... Adamlar elementar bir faktı başa düşmürdülər ki, iki hektar günəbaxan tarlası, beş metr çay sahəsi qalmayan ölkədə guya bu qədər duru günəbaxan yağları, çay istehsalı absurddur. İndi şar partlayıb. Məlum olur Azərbaycan xaricə ancaq xammal satdığı kimi, xaricdən də ancaq xammal alırmış. Əsl mağara dövrü iqtisadiyyatıdır. O vaxtlar ki, hələ pul kəşf olunmamışdı, insanlar malı mala dəyişirdilər.

Hətta zarafat üçün dükanda satıcıya dedim: “Zelandiya yağı niyə bahalaşıb, axı o bizim yerli istehsaldır!?”. Dedi, vallah, düz deyirsən, firmalar ağ ediblər.

Qəzetdə yazı var idi: “Dünyanın ən bahalı şeyləri”. Orda yaxta, təyyarə-filandan danışılırdı, ancaq məncə dünyanın ən bahalı hakimiyyəti də Ginnesin kitabına salınmalıdır. Bu, Azərbaycan hakimiyyətidir. Xalqımıza bu hakimiyyətin saxlanması son 10 ildə təxminən 100 milyard dollara başa gəlib.

Bu qədər bahalı ölkədə yaşamağın barı bir faydası olsaydı, adam yanmazdı. Amerikada ağırlıqqaldırma üzrə dünya çempionatında dopinq testdə ilişən milli komandamız bu bahalı hakimiyyətin faydaları haqda gözəl örnəkdir. Təsəvvür edin, bizim orda ilişən atletlərimiz 6 və 9-cu yerləri tutublar! Dopinq vurub doqquzuncu yeri tutan adama nə deyəsən? Belə çıxır vurmasalar ştanqın altında qalıb öləndilər. Yapistlərin xalqımızı xilas etməsi də belə baş verib. Damara yüz milyard manatlıq neft vurulub, ancaq hamı bizi ötüb keçib, tozun içində eşələnirik.

**İndi söz əlaqədar qamışlığındır.**

# “Cahangir Hacıyevi himayə edənlər və danışdıranlar var”

**Son günlər Beynəlxalq Bankın sabiq rəhbəri Cahangir Hacıyevin mediada məktubları dərc olunur. Növbəti belə bir məktub dekabrın 25-də yayılıb. C.Hacıyev bu məktubunda bir çox məsələlərə toxunaraq onun həbs olunmasında əsas rol oynayan amillər haqda söz açıb.**



## İqtidar deputatından hakimiyyətdaxili proseslərlə bağlı şok açıqlamalar

### Zahid Oruc Beynəlxalq Bankın sabiq rəhbərinin türmədən məktub yazması barədə ilginc faktlar sadaladı; “Kürdəxanı siyasi oyun mərkəzinə çevrilməkdə davam edir” söyləyən millət vəkili MTN çetesinin oğurladığı milyardların marşrutu haqda danışdı

Onun bu məktubuna iqtidaryönümlü **deputat Zahid Oruc** cavab verib. “Yeni Müsavat” qəzetinə danışan deputat son dərəcə sensasion məlumatlar açıqlayıb, həmçinin maraqlı təkliflərlə çıxış edib.

Z.Orucun açıqlamasında əsas diqqətçəkən məqamlardan biri də hakimiyyətdaxili ziddiyyətlərin etiraf olunmasıdır. İndiyədək iqtidar ideoloqları, hakimiyyəti müdafiə edən deputatlar, ayrı-ayrı siyasətçilər və qəzetçilər deyirdilər ki, iqtidarda monolitlik var, hamı eyni maraqlara, xəttə xidmət edir. Amma artıq iş o yerə gəlib çatıb ki, özləri dövlətin ən yuxarı instansiyalarında ciddi fikir ayrılıqlarının, qarşıdurmanın olmasını etiraf edirlər.

Son devalvasiya üzündən bu hal daha da dərinləşib. Artıq 21 dekabr şoku iqtidara qarşı olan qüvvələri bir qədər də ürəkləndirib. Bəs görəsən narazı təbəqələri ətrafına cəmləşdirmək üçün keçmiş maliyyəçilərin pulları kara gələ bilərmi? Bu suallara millət vəkili Zahid Orucdan cavab istədik. Deputat musavat.com-a bunları söylədi: “Təkcə Cahangir Haciyevin deyil, heç bir bəndənin qandallanmasını istəmirik. İnsanlıq borcu hər kəsdən bunu tələb edir. Lakin ortada böyük cinayət faktları varsa, onu təhqiq etmək də dövlət orqanlarının bir nömrəli vəzifəsidir. Bu yerdə başqa məmurları, yaxud müxtəlif imtiyazlı iqtisadi dövriyyələrdə yer alanları toxunulmaz şəxs kimi ortaya qoyub onlara nəzərən ədalət mühakiməsindən özünü kənarlaşdırmağa çalışmaq da çıxış yolu deyil. Çünki "presedent hüququ" bizim qanunvericilik sistemimizdə yoxdur. Ortada olan faktların bir çoxu hər kəsə bəllidir. Beynəlxalq Bankın sistem yaradıcı qurum olaraq sərəncamında olan vəsaitlərin səmərəsiz xərclənməsi inkarolunmazdır. Əslində çoxdan aparılan belə iqtisadi diversiya fəaliyyəti neft bumunun söndüyü və dövlətin digər mənbələrə müraciət etdiyi zaman üzə çıxdı".

**Z.Oruc bildirib ki, hazırkı devalvasiyanın böyük faizdə həyata keçirilməsi və manatın dollar qarşısında mövqeyini iki dəfə itirməsi təkcə xarici amillərlə deyil, daxili iqtisadi-maliyyə siyasəti ilə birbaşa bağlıdır:** "Beynəlxalq Bank və Milli Təhlükəsizlik Nazirliyi xətti ilə ən azı 10 milyard manatdan artıq pul kütləsinin dövriyyədən və ölkədən çıxarılmasını bütün təhlillərin mərkəzinə qoymadan real mənzərəyə obyektiv qiymət vermək mümkün deyil. Əksər hissəsinin ofşor zonalarda olduğuna heç bir şübhə yeri qalmayan oğurluq pullar bir nəfər şəxsin deyil, ən azı iki hakimiyyət qurumunun dövlətə neçə böyük zərbə vura biləcəyini təsdiq edir. Əgər təkcə "Akula Akif"in seyfindən çıxan onlarla mülkiyyət aktlarını - İspaniyadan Baham adalarına qədər olan villaları pula çevirib dövlətə qaytarmaq mümkün olsa, Azərbaycanda dollar kreditçilərinin yükünü bir xeyli yüngülləşdirmək mümkün olardı".

**Deputat bu məqamda maraqlı təklif də verib:** “Elə buradaca xüsusi qeyd etməyə dəyər ki, Respublika Prokurorluğu və məhkəmə orqanları hazırda istintaqı aparılan böyük maliyyə cinayətlərinin və talan edilmiş dövlət vəsaitlərinin geri qaytarılmasını şəffaf qaydada, hamının gözü qarşısında həyata keçirməlidir. Yoxsa, oğurlanmış külli miqdarda vəsaitlərin bir əldən digərinə keçməsi millətə heç bir fayda gətirməyəcək. Cahangir Hacıyevin müdafiəsi üçün mediaya ardıcıl yeridilən məlumatların təhlili göstərir ki, hazırda devalvasiya şoku altında olan cəmiyyətdə özlərinə böyük dayaqlar tapmaq, hakimiyyətiçi qruplaşmaların qurbanı olduqları barədə saxta rəy formalaşdırmaq və özünü təmizə çıxarmaq üçün məxfi bir əməliyyat planı qurulub. Əgər belə davam etsə, Beynəlxalq Bankın sabiq rəhbəri növbəti "siyasi məhbus siyahısı"nın başında gedəcək. MTN-in yüksək çinli generalları zərərsizləşdirilsə də onların bir zaman əhali üzərinə yeriyən media silahları ortada sabotajçı əməllərində qalmaqda davam edir. Sistemli bir şəkildə Maliyyə Nazirliyini hədəfə götürməklə, yaxud hakimiyyətin siyasi rəhbərliyindən aldıqları qərar hesabına yüz milyonlara dair sərəncam verdiklərini adamların gözünə üfürməklə və idarəçiliyin onlara bəlli olan sirlərini cəmiyyətə açacaqları şantajı ilə məhkəmə ətrafında böyük bir təzyiq mexanizmi qurulub. Hətta ideal sayıla biləcək bir ssenaridir. Yüz milyonları oğurla, sonra onun kiçik bir hissəsini mediadakı və daxili-xarici QHT-lərə xərclə, bununla da istənilən ağır cinayətin altından çıxmağa imkan qazanacaqsan. C.Haciyevin belə ideallaşdırılması və əhaliyə məqsədli şəkildə hazırkı iqtisadi sıxıntıların günahkar ünvanı kimi Maliyyə Nazirliyinin göstərilməsi Fərhad Əliyevin, Əli İnsanovun mələkləşdirilməsi üçün həyata keçirilən təbliğat üsulu ilə eynidir. Sabah yüksək çinli məmurlar haqda kompromat dalğası yenidən tirajlansa *(hərçənd Eldar Mahmudovun küfr yuvası söküləndən sonra proses xeyli səngiyib)* bunu da əvvəlki xəttin davamı hesab edə bilərsiniz. Kürdəxanı siyasi oyun mərkəzinə çevrilməkdə davam edir. Hər gün yeni-yeni bəyanatlar hakimiyyət sisteminə müqavimətin məhz VİP məhbuslar tərəfindən həbsxanadan veriləcəyini deməyə imkan yaradır. Dövlət idarəçiliyinin çətinliyi bax bundadır - dünənə qədər xalqın gözündə maliyyə-kredit sistemini çökdürən, iqtisadiyyata zərbə vuranlar, sonra demokratiyanın yol verdiyi hüquqlardan - çamur atmağa, dezinformasiyalar yaymağa, mediada zərərdidə obrazında təqdim olunmağa, nəticədə ictimai rəyi siyasi iqtidarın üstünə qaldırmağa fürsət verir. Mətbuata xərclənən qara pullar isə xalqdan oğurlanmış və məzlumun haqqından mənimsənilmiş milyardların cüzi bir hissədir".

**Z.Oruc bir tarixi paralel də aparıb:** "Vaxtilə Martin Lüter kilsəni dövlətdən ayırmaq üçün hərəkata başlayanda dini hücrələr müxtəlif haqlar müqabilində, yəni, ödənişlər alıb Allah əvəzinə günahkarları "bağışlayırdılar"! İndi də media şəbəkəsinin üstündə oturmuş katoliklərimiz çekist adına ləkə olanlara, yaxud talançı bankirlərə “günahsızlıq qəbzi” verməyə başlayıblar. Lakin orta əsrlər Romasında deyildiyi kimi, pulla məhbəsi satın ala bilərsən, lakin bütün xalqdan istədiyin azadlıq hökmünü əldə edə bilməzsən".

❑ Aydın ASLAN

# Dəmirdaşın Türkiyə xəyanəti, Rusiyanın cinayəti

**PKK terror təşkilatının siyasi qanadlarından sayılan Xalqların Demokratik Partiyasının *(HDP)* sədri Səlahəddin Dəmirdaşın Moskva səfəri və orada Türkiyə əleyhinə mövqe sərgiləməsi, o sırada "Su 24" məsələsində Kremli dəstəkləməsi Türkiyə ictimai-siyasi çevrələrində haqlı tənqidə tuş gəldi, türk xalqına və Türkiyə dövlətinə qarşı xəyanətkar, xain davranış kimi qiymətləndirildi.**

"Amnesty İnternational" Moskvanı Suriyada dinc əhaliyə qarşı hərbi cinayətlərdə ittiham etdi; HDP sədrinin belə bir ölkəyə səfər edib Kremli haqlı çıxarması öldürülən dinc türk-müsəlmanların ruhuna da təhqirdir...

**Son olaraq baş nazir Əhməd Davudoğlu HDP sədrinin Moskvaya səfərini və səfər zamanı verdiyi bəyanatları rüsvayçılıq adlandırıb, bu hərəkətlərin millətə xəyanət olduğunu söyləyib.** "HDP sədrinin Rusiyada, "Türkiyənin Rusiya təyyarəsini vurması səhvdir" söyləməsi tam bir rüsvayçılıq və xəyanətdir. Rus təyyarələrinin günahsız türkmənləri, ərəbləri, kürdləri Azezdə (Homs), Hələbdə, İdlibdə, Bayırbucaqda bombaladığı vaxtda qaça-qaça Rusiyaya gedib dəstək ifadə etmək, millətə xəyanət etməkdir. Bu - açıq bir rüsvayçılıqdır",- deyə baş nazir bildirib.

Gəl ki, Dəmirdaş özünü hələ də o yerə qoymaq istəmir və sanki heç bir pis iş tutmadığında israr göstərməkdədir. Üstəlik, "Rusiya təyyarəsinin vurulmasının Türkiyəyə faydasını desinlər, üzr istəyəcəyəm", - deyə başqa bir absurdu, daha doğrusu, siyasi həyasızlığı dilə gətirir. Halbuki, konkret halda söhbət hər hansı faydadan yox, PKK yanlı HDP liderinin xəyanətkar mövqeyindən gedir. Çünki insidentin hər iki tərəfə faydası olmadığını Ankara rəsmiləri dəfələrlə bəyan ediblər.

Türkiyə yetkililəri onu da dönə-dönə vurğulayıblar ki, rus hərbi maşınını məcburiyyətdən vurublar. Türkiyə Rusiya tərəfini sonuncu dəfə hava pozuntuları ilə bağlı xəbərdar eləmişdi. Dəmirdaş Kremlin bu xəbərdarlıqlara niyə məhəl qoyilmamasını Moskvadan soruşsaydı - bu, ayrı məsələ...

***

**Bu arada Qərb mətbuatı və beynəlxalq hüquq müdafiə təşkilatları Rusiyanı Suriyada hərbi cinayətlər törətməkdə ittiham etməyə başlayıb.** Moskva bununla bağlı getdikcə daha sərt tənqidlərə tuş gəlməkdədir. İbrətamizdir k, dünən nüfuzlu insan haqları təşkilatı olan "Amnesty İnternational" Rusiya hərbçilərini Suriyada hərbi cinayətlər törətməkdə ittiham edən ifşaedici hesabat yayıb.

Qurumun hesabatında göstərilir ki, Suriya ərazisində Rusiya aviahücumlarının bombardmanlarına bir çox mülki infrastruktur obyektləri, o cümlədən yaşayış evləri, məscidlər, tibb müəssisələri məruz qalıb. Bu hücumlar eyn zamanda çoxsaylı insan itkilərinə səbəb olub.

Sənəd 2015-ci ilin sentyabrından noyabradək olan müddətdə Rusiya aviasiyasının Xoms, İdlib və Hələbə endirdiyi 6 aviazərbənin tədqiq edilməsi əsasında hazırlanıb. Hesabatda çoxlu insan itkilərinin olması ilə yanaşı,




Rusiya hərbçilərinin yaşayış rayonlarının bombalanması zamanı beynəlxalq hüquqla qadağan edilmiş kaset bombalarından və idarə olunmayan mərmilərdən istifadə edildiyi qeyd olunur.

"Görünür, Rusiyanın bəzi aviahücumlarının hədəfi hərbi yox, mülki obyektlər olub. Bu hücumlar nəticəsində dinc insanlar öldürülüb və ya yaralanıb. Belə aktlar hərbi cinayətlərə bərabər tutula bilər", - qeyd edib "Amnesty İnternational"ın rəsmisi Filipp Lüter.

O da vurğulanır ki, sadalanan halların hamısını ekspertlər diqqətlə araşdırıblar. Onlar maddi sübut kimi çoxlu foto- və videomateriallar da toplayıblar. Təhqiqat zamanı ekspertlər öz məlumatlarını həmçinin, Rusiya tərəfinin uçuşlar və bombardmanlar barədə yaydığı rəsmi məlumatları ilə tutuşdurublar.

***

**Rusiya tərəfi ənənəvi olaraq bu ittihamları rədd eləsə də fakt-faktlığında qalır.** Kremlin Suriya ərazisində hərbi cinayətlər törətdiyini barədə Türkiyə tərəfində də çox ciddi faktlar var. Üstəlik, orada yaşayan soydaşlarımızın - türkmənlərin dilindən dəfələrlə bənzər dəlil-sübutlar mətbuatda yer alıb. Dəmirdaşa başqa nə lazımdır ki?

HDP sədri isə məhz belə bir dövlətin - artıq hərbi cinayətlərdə və dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadədə suçlanan Rusiyanın paytaxtına səfər edərək orada danışıqlar aparır, bununla da Suriyada dinc müsəlman-türkləri qanına qəltan edən Moskvanın antibəşəri hərəkətlərinə haqq qazandırır, Putinin qadın və uşaqların qanına bulaşan əllərinə su tökür.

Öz hərəkətinin naqisliyini, Türkiyəyə qarşı satqın və xain davranışı anlamaq üçün görəsən ona başqa hansı tutarlı faktlar lazımdır? Xəyanətin buynuzu-zadı olmur ki. Belə bir addım həm də rus bomba və mərmilərindən dünyasını dəyişən dinc türk-müsəlmanların ruhuna təhqirdir.

**Baş nazir Əhməd Davudoğlu da zatən, bunu deyib...**

**❑ Z.SƏFƏROĞLU**




# Dəmirdaşın Rusiya səfərinin pərdəarxası

**PKK-nın siyasi qanadlarından sayılan HDP-nin lideri Səlahəddin Dəmirdaşın Moskva səfəri bir çox gizli məsələləri ortaya çıxarıb. Onun Moskva səfəri, keçirdiyi görüşlər, verdiyi açıqlamalar ölkəmizdə də ciddi narahatlıq və qəzəb doğurub.**

Daim Türkiyəyə açıq dəstək verən ölkəmizin siyasi qurumlarından biri kimi **KXCP sədri Mirmahmud Mirəlioğlu** Dəmirdaşın mövqeyindən təəccüblənmədiyini dedi: "PKK-nın yaradılmasında Rusiyanın birbaşa iştirakını nəzərə alsaq, bu tam təbii məsələdir. Dəmirdaşın əlinə fürsət düşüb ki, böyüklərini ziyarət etsin, onların əlini sıxsın yaxud öpsün. Bu tarixi siyasətin davam etdirilməsinin göstəricisidir. Rusiyanın əlinə şans düşüb ki, kürdlərin arxasında olduqlarını göstərsin. Tarixən bu belə olub. Rusiya PKK-nın yaradılmasında birbaşa iştirak edib. Hətta Azərbaycan əsilli şəxslər də bu məsələlərdə yardımçı olublar. 40 ilə yaxındır ki, mücadilə gedir. Nə qədər ki, bunların baş cəlladı İmranlıdadır, proseslər davam edəcək. Türkiyənin hazırkı hakimiyyətinin yürütdüyü siyasətin məntiqi nəticəsidir ki, bunlar parlamentə düşə bilirlər. Rusiya daim bu məsələlərin arxasında dayanıb. Bu - indinin problemi deyil. Rusiya Türkiyə daxilindəki satqınlardan istifadə edir. Bu dövlət dünya siyasətində daim ədalətsizliyin yanında olub. Bu Suriya, Ermənistan-Azərbaycan və digər məsələlərdə davam edir. Biz daim Türkiyəni dəstəkləmişik".

**Politoloq Şahin Cəfərli** öncə HDP liderinin Moskva ilk dəfə səfər etmədiyinə diqqət çəkdi: "Dəmirdaş ötən il Rusiya ilə Türkiyə arasında münasibətlərinin yüksək səviyyədə olduğu dövrdə də Moskvaya səfər etmişdi. Rusiyanın xarici işlər nazirinin müavini Mixail Boqdanovla, digər rəsmi şəxslərlə və Rusiyadakı kürd icmasının nümayəndələri ilə görüşlər keçirmişdi. Lakin budəfəki səfər hər halda istər dəyişən geosiyasi durum, istərsə də, Rusiya-Türkiyə münasibətlərində yaranan ciddi problemlər səbəbindən əvvəlkindən daha çox diqqətəlayiqdir. Üstəlik, Dəmirdaş xarici işlər naziri Sergey Lavrov səviyyəsində qəbul olunub. Bu



**Mirmahmud Mirəlioğlu:**
"Onun əlinə fürsət düşüb ki, böyüklərini ziyarət etsin"



**Şahin Cəfərli:**
"Kürd dövlətinin qurulmasını əngəlləmək mümkün deyil"

faktla Moskva Ankaraya nümayiş etdirir ki, Türkiyə daxilində, ümumən bölgədə mövcud olan kürd problemi ilə maraqlanır və bu məsələdən Türkiyəyə qarşı istifadə edə bilər. Paralel olaraq, Rusiya Suriyadakı kürd qruplaşması Demokratik Birlik Partiyası (PYD) ilə yaxın əməkdaşlıq qurub, hətta Moskvanın bu qruplaşmanın silahlı qanadı Xalq Qoruma Birliklərinə (YPG) hərbi yardım göstərdiyi barədə məlumatlar gəlir. Hazırda Suriyanın şimalında, Türkiyə ilə sərhəd xəttinin böyük hissəsinə məhz PYD nəzarət edir. PYD-nin nəzarətindəki Afrin və Kobani kantonları arasında qalan Cerablusdakı 90 kilometrlik zolaq isə İŞİD-in nəzarətindədir. PYD həmin zolağı da ələ keçirərək, Afrin və Kobanini birləşdirmək niyyətindədir və məsələdə Rusiyanın dəstəyinə ümid edir. Əgər həmin 90 km-lik zolaq da kürdlərin əlinə keçərsə, Türkiyənin Suriya ilə əlaqəsi kəsiləcək və Ankaranın orada cərəyan edən hadisələrə təsir imkanları minimuma enəcək. Bu səbəblə Türkiyə PYD-nin Fərat çayının qərbində yerləşən həmin bölgəni ələ keçirmək cəhdini savaş səbəbi ("casus belli") sayacağını rəsmən elan edib. PYD-nin Rusiya aviasiyasının köməyi ilə Cerablusa hücumunun Türkiyə və Rusiya arasındakı gərginliyi daha artıracağı şübhəsizdir".

**Politoloq HDP-nin minimum məqsədinin Türkiyə daxilində muxtariyyat qazanmaq olduğunu söylədi:** "Bu məqsədin reallaşdırılması üçün Türkiyə dövlətinə daxildən terror və siyasi üsullarla təzyiq göstərməklə yanaşı, həm də beynəlxalq dəstək qazanmaq zəruridir. HDP liderlərinin ABŞ-a, Avropa İttifaqının mərkəzi Brüsselə və Rusiyaya intensiv səfərlərinin əsas məqsədi budur. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin siyasi dəstəyini əldə etmək kürd separatizmini öz məqsədlərinə yaxınlaşdıra bilər. Bu səbəblə analoji səfərlərin və təmasların davam edəcəyini söyləyə bilərik".

**Ş.Cəfərli təhlükəni önləmək üçün qardaş ölkənin lazımı addımlar atacağını düşünür:** "Türkiyə həm içəridə, həm də beynəlxalq müstəvidə özünü qorumaq üçün zəruri addımları atır və atacaq. Hazırda ölkənin bəzi şərq və cənub-şərq vilayətlərində son illərin ən böyük hərbi əməliyyatı keçirilir. PKK son aylarda həm muxtariyyət planını reallaşdırmaq, həm də bəzi xarici oyunçuların sifarişi ilə Türkiyənin diqqətini bölgədəki məsələlərdən yayındırmaq məqsədilə İraq-Suriya sərhədindəki bir sıra rayon mərkəzlərini faktiki olaraq nəzarətə götürüb. Türkiyənin cənub-şərqini, belə demək mümkündürsə, "suriyalaşdırmaq" və beynəlxalq birliyin diqqətini bu məsələyə cəlb edərək, Türkiyədəki kürd məsələsini beynəlxalq gündəmə daşımaq niyyəti güdülür. Dövlət bu təhlükəli planları boşa çıxartmaq üçün ağır hərbi texnika və xüsusi təyinatlıları cəlb edərək həmin rayon mərkəzlərində sərt təmizləmə əməliyyatına başlayıb. Siyasi addımlara gəldikdə isə Türkiyənin İraqın şimalındakı kürd idarəçiliyinin başçısı Məsud Bərzani ilə yaxın əlaqələr qurmasını gələcəyə hesablanmış ağıllı addım kimi qiymətləndirmək olar. Onsuz da bölgədə kürd dövlətinin qurulmasını bu mərhələdən sonra əngəlləmək mümkün deyil. Bu baxımdan daha əvvəl bu məsələni özünün "qırmızı cizgisi" elan etmiş Türkiyənin reallığı qəbul edərək gələcəkdə qurulacaq kürd dövlətinin nüvəsini təşkil edəcək Şimali İraqdakı de-fakto dövlətlə sıx münasibətlər yaratması rasional addımdır. Bu yolla Türkiyə həm bölgədəki bütün kürd qruplarının birləşməsini və Türkiyə əleyhinə hərəkət etməsini, həm də gələcəkdə yaranacaq kürd dövlətinin anti-Türkiyə mahiyyəti daşımasını qabaqcadan əngəlləmiş olur".

**❑ Cavanşir ABBASLI**

**Övladını xaricdə oxutdurmaq istəyən valideynlərin sayı ildən-ilə artır. Azərbaycanda bu, daha çox ali məktəb mərhələsində baş verir. Yəni uşaqlar orta məktəbi bitirir, ali təhsilini Avropanın ali məktəblərində alırlar. Amma bu siyahıya orta təhsil üçün "okeanın o tayını" - Amerikanı, Kanadanı məskən seçənlər də qatılıb.**



# Azərbaycanlı məktəblilərin Kanadada təhsil alması üçün yandırılan "yaşıl işıq"

## Ədalət Nail: "Məzun qlobal səviyyəli diplomunu əldə edəndən sonra valideynlər də o çəkdikləri 5-10 illik əziyyəti unudur"

**Kanada Təhsil Konsultasiya şirkətinin rəhbəri Ədalət Nail** müsavat.com saytının qonağı olub, bizə xaricdə təhsil almaq istəyən şagird və tələbələr üçün rəhbəri olduğu şirkətin təqdim etdiyi şərtlərdən danışıb. "Mən uşağımı bu ölkədə oxutmaq istəmirəm" deyib də, onun gələcəyinə kapital qoymaq istəyənlər üçün xeyli maraqlı məsləhətləri də var.

***- Ədalət bəy, əvvəlcə şirkətiniz və fəaliyyət sferanız barədə danışaq. Nə işlə məşğuldur Kanada Təhsil Konsultasiya şirkəti?***

- Şirkətimiz 2015-ci ilin yanvar ayında qurulub. Hazırda şirkətimizin İstanbulda ofisi var. Fərqli ixtisas və bölümlərə görə təhsil konsultasiyası veririk. 8-ci sinifdən sonra istər orta məktəbi tamamlama, lisey oxuma, universitet, magistratura, doktoranturada təhsili davam etdirmə, dil kursları, təhsilin fərqli bölümlərində tələbələri ora aparıb ingilis dili və arzuya uyğun olaraq fransız dili kursları təşkil edirik. Üç böyük şöbəmiz var. Birincisi dil kursları, ikincisi universitet *(magistratura, doktorantura)*, üçüncüsü isə liseylə bağlıdır.

***- Hansı bölüm daha çox rəğbət görür?***

- Ən çox rəğbət görən bölümümüz təbii ki, liseydir. Kanadada əməkdaşlıq etdiyimiz Nil Akademiyası var. Türk iş adamlarının təşəbbüsü ilə qurulub və 2005-ci ildə fəaliyyətə başlayıb. 2008-ci ildən etibarən beynəlxalq tələbə alma statusunu qazanıb. 10 ildən artıqdır ki, tədris xidməti verir. Həm qız, həm oğlan tələbələr üçün şöbəsi var. Hər iki bölməsində təxminən 550-dn artıq tələbəsi var. Bunların təqribən 110-u Türkiyədən, Qazaxıstandan, Türkmənistandan Yaxın Şərq ölkələrindəndir. Geriyə qalan 440 tələbə isə Kanadanın daxilindəndir. Müəllimlər heyətimizin 95 faizi kanadalıdır. 5 faiz isə Türkiyədən gəlib və rəhbərlik tamamilə türk müəllimlərdir.

***- Səhv etmirəmsə, Kanadaya təhsil səyahətləri də tərtib edirsiniz.***

- Bəli, bəzi valideynlər 8-9-cu sinifdə oxuyan uşaqlarını ora göndərmədən əvvəl gedib yerində araşdırma aparmaq istəyirlər. Məktəbi, qalacağı yataqxananı... Çünki tam əmin olmaq istəyirlər uşaqlarının gələcək yaşantısından. Bununla əlaqədar hər il may ayının -ikinci həftəsindən iki həftəlik-on günlük səyahətlər tərtib edirik.

***- Bu turun məsrəfləri nə qədərdir?***

- Məsrəflər ailəyə görə dəyişir. 2500 dollardan başlayır. Bu məsrəfə Kanadaya girişdən-çıxışa qədər hər şey daxildir. Bilet və viza məsrəfləri çıxmaq şərtilə təbii ki. Bunu valideynlər özləri ödəyir. Amma qalmaq, yemək, gəzinti xərcləri bizə aiddir. Onlar üç fərqli şəhərdə olurlar - Toronto - Nil Akademiyasının mərkəzidir, daha sonra Montreal, Ottava, Niaqara şəlaləsini görürlər. İstəyə bağlı olaraq orda dünyanın öndə gedən universitetlərində də olurlar.

***- Siz dediz ki, lisey sizin ən çox rəğbət görən bölümünüzdür. Amma maraqlıdır, övladını yeniyetməlik yaşında dünyanın o biri ucuna göndərmək valideynlər üçün çətin olmurmu?***



**"Kanadada son 4 ilini oxuyan şagirdlər imtahan vermədən universitetə girirlər"**

- Övladı olan bütün valideynlər onların gələcəyi üçün çox narahatçılıq keçirirlər. Xüsusən də onu uzağa göndərirlərsə. Amma müəssisələri yaxından görən valideynlər çox vaxt deyirlər ki, siz bizə olanının daha azını anlatmısınız, biz daha çoxunu gördük. Övladlarının gələcəyi üçün valideynlər həm maddi, həm mənəvi çətinliklərə qarşı səbir göstərirlər. Bizim məzunlarımız var ki, onlar dünyanın ilk 100-lüyündə yer alan universitetlərində təhsil alırlar. Məzun qlobal səviyyəli diplomunu əldə edəndən sonra valideynlər də o çəkdikləri 5-10 illik əziyyəti unudurlar. Bu cür məzunlarımız istər Türkiyədə, istərsə Kanadada yüksək səviyyəli işlərdə çalışırlar. Ona görə də sərf elədikləri vəsaiti artıqlaması ilə geri alırlar.

***- Liseyin bir illik təhsil haqqı nə qədərdir?***

- Liseyin illik təhsil haqqı 12 min Kanada dolları, illik yaşam xərci isə 13.500 Kanada dollarıdır. Yaşam xərcinə yataqxanada qalma, gündə 3 dəfə yemək, hər səhər yataqxanadan məktəbə gedib-gəlmə üçün nəqliyyat xərci, sağlıq sığortası, uniforma məsrəfləri daxildir. Toplam 25.500 Kanada dollarıdır. Bu, milli valyuta ilə 19.500 AZN-dir. 8-ci sinfi bitirən şagirdləri qəbul edirik, 9-10-11-12-ci sinifləri orada oxuyurlar.

***- Azərbaycana özəl endirimlər varmı?***

- Var, 10 faizlik endirim.

***- Bəs məktəbi bitirəndən sonra? Təhsilin digər mərhələlər üçün nə təklifləriniz var?***

- Kanadanın təhsil sisteminə görə, orta məktəblərdə məzuniyyət ərəfəsində College Gaydens deyilən konsultant var. O, son iki ildə tələbələri yaxın müşahidəyə alır. Şagirdin qabiliyyətinə, dərslərdəki nəticəsinə görə universitetdə tam yerləşdirmə, sənədləri göndərib, nəticə almaqla məşğul olan bir adam var. Tələbələr liseyə getməklə iş bitmir. Onların universitetlərə yerləşdirməsi ilə də maraqlanır.

***- Ailəsindən uzaq düşən yeniyetmənin adaptasiya, inteqrasiya problemini həll etmək üçün hansı mexanizmləriniz var? 14-15 yaşlı uşağın bir gündə bütün dünyası dəyişir... Psixoloqlarınız ona necə yardım edir?***

- Bütün məktəblərdə psixoloqlar, məktəb danışmanları və tibb bacıları var. Onların sayəsində biz ortaya çıxan problemləri ilk iki ay ərzində yoluna qoyuruq. Təbii ki, ilk gedən tələbələrdə ilk 2-3 ayda adaptasiya problemi yaşayır. Amma bu işlə məşğul olduğumuz 6-7 il ərzində adaptasiya problemi yaşadığı üçün geri qayıdan tələbəmiz olmayıb. Onların il ərzində üç dəfə tətilləri olur. Birincisi dekabrın 18-dən yanvarın 4-ə qədər yeni il tətilidir. Valideynlərin çoxu bu arada gedib-gələ bilir.

***- Övladının yanına gələn valideynə hansı xidmətlər göstərirsiz, necə yardımçı olursuz?***

- Aeroportdan qarşılama, istədikləri otelə yerləşdirmə, bələdçilik etmə kimi xidmətlərimiz var.

***-Valideynin maddi imkanı olan hər uşaq Kanadadakı liseylərdə oxuya bilirmi? Yoxsa bunun üçün xüsusi imtahan, attestat dərəcəsi vacibdir?***

-Türkiyədə orta məktəbdən məzun olan şagird üçün keçirilən ümumi bir imtahan var. O imtahanın nəticəsinə görə, biz aşağı limit qoyuruq. Bundan başqa, attestatına görə dəyərləndirilir, xüsusi qabiliyyət imtahanı verilmir. Təbii ki, akademik olaraq tədris mövzusunda aşağı olan tələbə orda əziyyət çəkir. 4 il orda oxusa belə, daha sonra universitetdə davam etməkdə çətinlik çəkirlər. Ona görə də savadlı uşaqlar istəyirik. Əks halda bu, bizə də, valideynə də problem olur. Daha bir detalı da deyim ki, biz bir illik hazırlığı həmin 4 illik təhsilin içində veririk. Nəticədə şagirdlərimiz il itirmir. Yəni, təhsilə başladıqları birinci ilin ilk 6 ayında kanadalı müəllimlərdən ingilis dili dərsi alırlar. Daha sonrakı 6 ayda isə riyaziyyat, fizika kimi dərslər verilir. Tələblərimiz məzun olanda iki diplom alır - Nil Akademiyasının və Ontario əyalətinin diplomunu. Kredit sistemi ilə dərs alır. Bizdəki kimi hər il eyni dərsi keçmirlər. 30 krediti alandan sonra məzun olur. İlk ili ingilis dili ağırlıqlı təhsil aldığı halda, növbəti illərdə geridə qalan 30 krediti tamamlamağa çalışırlar. Çətin olmur. Azərbaycan və Türkiyədəkindən daha asan təhsil sistemidir.

***- Dərs qrafiki necədir?***

- Səhər saat 8-də başlayır, günorta 4-ə qədər. Nahar arası var.

***- Şagird liseyi bitirəndən sonra ali təhsil almaq üçün ona hansı üstünlüklər verilir?***

- Kanada təhsil sisteminin Kanadada son 4 ilini oxuyan tələbələr üçün bəzi üstünlükləri var. Bunlardan biri də odur ki, onlar imtahan vermədən universitetə girirlər. Lisey diplomunda son bir-iki ilin qiymət ortalamasına görə, universitetlərə daxil olurlar. Hər hansı dil imtahanı vermirlər. Amma Azərbaycanda orta məktəbi bitirən tələbə orda Toefel imtahanına girməyə məcburdur. Orda oxuyan tələbə il itirmədən ali təhsil alır və təqaüd əldə edir. Bundan başqa, firmamızın yay məktəbləri proqramı da var - iki və altı həftəlik. Universitetdə oxuyub dil kurslarına getmək istəyən tələbələrə Amerika və İngiltərədəki dil kurslarında oxumağa şərait yaradırıq, 30-40 faiz daha ucuz qiymətlərlə.

❑ **SEVİNC, müsavat.com**

# Gömrük və vergi sistemləri ASAN-laşacaqmı?

## Ekspertlər verilən son fərmanların tam olaraq həyata keçirilməsini vacib sayır...

**Dövlət başçısı İlham Əliyev bir neçə gün əvvəl iqtisadiyyatın liberallaşmasına yönələn fərmanlar imzalayıb. Dövlət başçısının biznes fəaliyyətləri üçün tələb olunan lisenziyaların sayının azaldılmasını, rüsumların aşağı salınmasını, habelə lisenziyaların verilməsində tam şəffaflığın təmin edilməsini nəzərdə tutan fərmanlarının ölkənin növbəti devalvasiya şokunu yaşadığı bir vaxtda elan edilməsi bəzi ekspertlər tərəfindən müsbət addım kimi qiymətləndirilir.**

**Ekspert Vüqar Bayramov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, bu addım dəstəklənməlidir: "Manatın dəyərsizləşməsinin nəticələrinin aradan qaldırılması üçün xarici ticarətin liberallaşmasına ehtiyac var. Xarici ticarət liberallaşmalıdır, gömrükdəki və vergidəki problemlər aradan qaldırılmalıdır. Sahibkar yalnız dövlət rusumu ilə reyestr xidməti ilə ölkədən mal aparmalı, ölkəyə mal gətirməlidir. Malların ölkəyə giriş və çıxışı ilə bağlı qadağalar olmamalıdır. Artıq yalnız rəsmi şəkildə daxili bazarın qorunması ilə bağlı müəyyən mallara yüksək vergi və rüsumlar tətbiq edilə bilər. Amma qeyri-rəsmi şəkildə bu cür qadağalar olmamalıdır. O baxımdan ticarətdə liberallaşma Azərbaycan iqtisadiyyatında ixracat üçün olduqca həlledicidir. Xarici ticarətin liberallaşması ölkəmizdə iqtisadi islahatların davam etdirilməsi baxımından bir mühərrik rolunu oynayır. Biz təklif edirik ki, xarici ticarətin liberallşaması, bu yöndə Gömrük Komitəsində olan xidmətlərin əhəmiyyətli hissəsinin ASAN Xidmətə verilməsi vacibdir. Sahibkar ASAN Xidmətdə ödənişini etsin, elektron qaydada məlumat gömrük orqanlarına göndərilsin. Artıq sahibkar öz malı ilə sərhədi keçəndə elektron ödəniş məlumatları gömrükdə olsun və heç bir baryer olmadan sahibkar sərhədi keçsin. Ona görə proseslər elektronlaşmalıdır. ASAN Xidmətin rolu artırılmalıdır, bu yöndə bir çox məsələlər ASAN Xidmətə verilməlidir. Bu proseslər ASAN Xidmət vasitəsi ilə həyata keçirilməlidir. Birmənalı şəkildə neftin dünya bazarında qiyməti aşağı düşür və növbəti dövrdə də qiymət azalmaları müşahidə ediləcək. Neftin dünya bazarında qiymətindəki azalmaları qeyri-neft sektorunun ixrac qabiliyyətini artırmaq hesabına kompensasiya etmək mümkündür. Xarici ticarətin liberallaşması hesabına, süni baryerlər və monopoliyanın aradan qaldırılması hesabına qeyri-neft sektorunun ixrac imkanlarını artırmaqla ölkəyə daxil olan valyutanın həcminin çoxalmasına nail olmaq mümkündür".



Vüqar Bayramov

**Qeyd edək ki, ekspertlərin fikrincə, indiki mürəkkəb dövrə adaptasiya edilməsinin yeganə yolu biznesin, sahibkarlıq fəaliyyətinin qarşısında dayanan müxtəlif maneələrin aradan qaldırılmasından, tamamilə liberal iqtisadi mühitin yaradılmasından keçir. Yeni iqtisadi siyasətin prioritetləri hələ bir neçə ay əvvəl Nazirlər Kabinetinin iclasında elan edilsə də, nəticələr barədə görüntü yoxdur. Prioritetlərə liberal iqtisadi mühitin yaradılması, sahibkarlıq fəaliyyətinə qarşı yönələn müxtəlif bürokratik əngəllərin aradan qaldırılması, bütün diqqətin qeyri-neft sektoruna yönəldilərək iqtisadiyyatın neftdən asılılığının ortamüddətli perspektiv üçün minimuma endirilməsi, eyni zamanda korrupsiya və büdcə vəsaitlərinin israf edilməsinə qarşı sərt mübarizə daxildir. Ekspertlər güman edirlər ki, imzalanmış son fərmanlar bu siyasətin həyata keçirilməsi istiqamətində atılmış növbəti addımlardan biridir.**

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 289 (6317) 26 dekabr 2015

# Azərbaycanı gözləyən təhlükələrdən xilas formulu

## **Ekspertlərdən ilginc təhlil**: "ABŞ Azərbaycanda inqilab baş verməsini istəmir..."; Amerika SSRİ-ni çökdürdüyü kimi Putin Rusiyasını da çökdürmək istəyir, yoxsa...

**İkiqütblü dünyada yenidən baş qaldıran "soyuq müharibə"nin fəsadları günbəgün özünü nümayiş etdirir və bu situasiyadan irili-xırdalı əksər dövlətlər əziyyət çəkməkdədir. Xüsusilə də neftin qiymətində kəskin enmənin iqtisadi deyil, siyasi amillərlə bağlı olması artıq rəsmi səviyyələrdə də təsdiqlənir. Bu vəziyyətin isə Azərbaycan xalqının və dövlətinin də taleyinə birbaşa təsiri var.**

Prezident İlham Əliyev bir neçə gün əvvəl manatın devalvasiyasının qaçılmazlığından danışarkən etiraf etdi ki, neftin üç dəfədən çox ucuzlaşması səbəbindən indiki durum yaranıb. Ancaq ölkə başçısı konkret ad çəkməsə də, Azərbaycanın ABŞ-Rusiya savaşının qurbanı olduğunu dolayısı ilə vurğuladı. "Neftin qiymətinin il ərzində birdən-birə 3 dəfə düşməsi düşünülmüş siyasətdir, bu siyasətin də məqsədi heç kim üçün sirr deyil" - deyib dövlət başçısı.

Bənzər situasiya SSRİ-nin mövcudluğu zamanı da hökm sürüb, ancaq sonuc imperiyanın dağılmasına və xalqların müstəqil dövlətlərini qurmasına aparıb çıxartdı. Bu dəfə proseslərdə oxşarlıq olsa da, neftin kəskin ucuzlaşması siyasəti xalqlara və neft ölkələrinə yaxşı perspektiv vəd etmir. Elə isə bu vəziyyət hara qədər davam edə, ABŞ-Rusiya qarşıdurması nə zaman bitə bilər və bu qarşıdurma Azərbaycana hansı zərbələr vura bilər?

**Azərbaycan Atlantik Əməkdaşlıq Təşkilatının sədri Sülhəddin Əkbər** qeyd etdi ki, ilk baxışdan sadə olan bu sual ətrafında hazırda dünyanın bütün aparıcı kəşfiyyat xidmətləri, analitiklər, mütəxəssislər hesablama aparır, ona görə də tarix söyləmək, xüsusilə də siyasi hadisələrin inkişafı barədə danışmaq çox çətindir: "Amma meyllərdən və təxmini müddətlərdən danışmaq olar. Hələ Krım böhranı zamanı ABŞ dövlət katibi Con Kerri üçtərəfli komissiyaya dəvət olundu və vəziyyət haqqında məlumat verdi. Bu, Rusiyanın Krımı işğalından sonraya, 2014-cü ilin martına təsadüf edirdi. Məncə, elə üçtərəfli komissiyada Putin Rusiyası haqqında qərar verildi. Bu ilin fevralın əvvəlində də ABŞ öz milli təhlükəsizlik strategiyasını dəyişdi və Rusiyanı durdurmağı başlıca məqsəd elan etdi. Bir faktı da yadınıza salım ki, bundan sonra Obamanın Avropaya, ardınca da Səudiyyə Ərəbistanına səfəri oldu. Yəni artıq ABŞ, Avropa Birliyi, NATO, dünyanı idarə edənlər anladılar ki, Putin Rusiyası ilə danışıqlar, onun islah olunması, dünyaya inteqrasiyası qeyri-mümkündür və Putin Rusiyası durdurulmalıdır. Onu durdurmaq üçün də vaxtilə keçmiş sosialist blokunun dağılmasına tətbiq olunmuş model müasirləşdirilərək tətbiq olunur. O zaman da ilk baxışdan sadə görünən model tətbiq olundu, SSRİ Əfqanıstan müharibəsinə cəlb edildi, eyni zamanda dünya bazarında neftin qiyməti kəskin endirildi, digər tərəfdən isə müharibəyə, silahlanmaya görə xərclər kəskin artırıldı. Bu disbalans sonucda SSRİ-nin daxildən çöküşünə, Əfqanıstandan çəkilməsinə, daha sonra isə bütövlükdə SSRİ-nin və Varşava paktının dağılmasına gətirib çıxartdı".

**S.Əkbərin fikrincə, bu gün eyni model tətbiq olunur:** "Neftin qiymətinin dünya bazarında kəskin şəkildə aşağı salınması və Rusiyanın müharibəyə yox, müharibələrə cəlb olunması prosesi gedir. Rusiya da çox "həvəslə" buna gedir. Putin anlayır ki, ona qarşı hansı strategiya tətbiq olunur, sadəcə, onun başqa yolu yoxdur. O, ya əllərini qaldırıb təslim olmalıdır, bunu da etmək onunçün çox çətindir, çünki Putin tək deyil, o, Rusiya dərin dövlətini təmsil edir. Bununçün də dərin dövlətin qərar verməsi lazımdır. Ya da gücü çatana qədər bu xətti davam etdirməlidir. Diqqət edirsinizsə, hələlik ikinci yolu tutub. Görünür, düşünür ki, dünyanı müharibələrlə hədələməklə, beynəlxalq düzəni təhdid etməklə, nəhayət, ABŞ və Qərb geri çəkiləcək və danışıqlar masası arxasına gələcək. Lakin Putin yanılır. Putin Rusiyasını durdurmaq üçün iki illik proqramı tətbiq olunur və bu proqram da gələn il başa çatır. Ona görə də 2016-cı il bu baxımdan həlledici, yəni Rusiyanın sınma nöqtəsinin başlanğıc ili ola bilər".

**S.Əkbər qeyd etdi ki, bu mənada Rusiya üçün, eyni zamanda postsovet məkanı, o cümlədən Azərbaycan üçün gələn ilin həlledici il olması istisna deyil:** "Çünki eyni siyasi-iqtisadi model Azərbaycandadır və Azərbaycan miqyasca Rusiyadan çox kiçikdir. Ona görə də Azərbaycan daha tez böhrana düşdü və daha ağır böhrana düşəcək və Rusiya ilə müqayisədə böhranı daha ağır keçirəcək. Bu ilin 21 fevralından üzə çıxan maliyyə-iqtisadi böhran artıq Azərbaycanda ağır iqtisadi böhrana keçib. Bunun artıq sosial-iqtisadi nəticələri göz qabağındadır. Qarşıdakı dövrdə biz onun sosial-siyasi nəticələrini görəcəyik və Azərbaycan hakimiyyəti də artıq indidən bu böhranı idarə etməyə çətinlik çəkir. Hakimiyyət strukturlarında yaşanan böhran da bunu açıq şəkildə göstərir".



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** qeyd etdi ki, ABŞ Rusiyanı iqtisadi baxımdan zəiflətmək üçün neftin qiymətlərinin endirilməsinə çalışır və il ərzində istədiyi nəticəni əldə edib: "ABŞ vaxtilə SSRİ-ni də belə çökdürmüşdü. Vaşinqton Səudiyyə Ərəbistanı ilə anlaşaraq neftin qiymətini 10 dollara qədər aşağı salmışdı. Nəticədə neftin satışından asılı olan SSRİ iqtisadiyyatı bu təzyiqə dözmədi və bir neçə il sonra böyük imperiya çökdü. Vaşinqton yenə eyni ssenarini həyata keçirir. Yenə Səudiyyə Ərəbistanı ilə anlaşıblar. Bir tərəfdən Ər-Riyad OPEK-ə imkan vermir ki, istehsal azalsın. Çünki neftin istehsalı azalsa, qiymət qalxacaq. Digər tərəfdən, ABŞ-ın özü 40 ildən sonra qapatdığı neft quyularını istismara açıb. Neftin qiymətini endirəcək üçüncü amil isə sanksiyalardan qurtulan İranın bazara daha çox neft çıxaracağıdır. Bu baxımdan Vaşinqton Putin hakimiyyətini zəiflətməyənə qədər neftin qiymətlərinin qalxmasına imkan verməyəcək. Rusiyada iqtisadi və sosial vəziyyət getdikcə ağırlaşır, inflyasiya artır".

**E.Çahinoğlu hesab edir ki, Putin Rusiyanı Krımın ilhaqı avantürasına qurban verib**: "Vaşinqton Putini buna görə cəzalandırır. Cinayət cəzasız qalmamalıdır". Ekspert də təsdiqləyir ki, Vaşinqtonun Rusiyanı cəzalandırmasından Azərbaycan da əziyyət çəkir: "Çünki Rusiya kimi Azərbaycanın iqtisadiyyatı və sosial durumu da neft satışından asılıdır. Aydındır ki, Vaşinqton Azərbaycana və ya digər hansısa tərəfdaş dövlətə görə neftin qiymətlərinin qaldırılmasına şərait yaratmayacaq. Başqa sözlə, bizim kimi dövlətlər ABŞ-la Rusiya arasında neft müharibəsinin istiqamətini müəyyənləşdirmək imkanına malik deyil. Yeganə alternativimiz ölkə iqtisadiyyatını neft asılığından qurtarmaqdır. Bəlkə də ABŞ-la Rusiya arasında neft müharibəsi bizim xeyrimizədir. Çünki son hadisələr Azərbaycanda ciddi islahatlar və islahata meylli olan hökumətin formalaşdırılmasını aktuallaşdırıb. Başqa alternativimiz yoxdur. Anlamalıyıq ki, neft erası bitir, başqa qazanc yolları axtarmalıyıq".

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** isə fərqli fikirdədir: "Mən burada iki gücün savaşını görmürəm. Burada bir gücün başqaları ilə savaşı var. Amerika ilə Rusiya arasında heç bir savaş yoxdur. Amerika Rusiyaya qarşı deyil, əksinə, Amerikanın Rusiyaya ciddi dəstəyi var. Məsələn, imkan yaratdılar ki, Rusiya Suriyaya girsin, daxili stabilliyi saxlamaq üçün. Çünki nüvə silahı problemi var. Amma eyni zamanda Rusiyanı islahatlara çağırırlar. 2019-2020-ci ilə qədər postsovet ölkələrini demokratik ölkələrə çevirmək istəyirlər, ona görə də Amerika tələsir. Türkiyə də bu böyük oyunun içindədir. Xatırladım ki, Dünya Bankı Davos sammitində öz proqnozunu açıqlamışdı, orada neftdən asılı olan və zəif iqtisadiyyata malik 8 ölkənin adı çəkilirdi, o cümlədən Rusiya, İran, Azərbaycan, Qazaxıstanın. Amerikanın strategiyası ona hesablanıb ki, bu ölkələri islahatlara məcbur etsin. Biz bəzən imitasion islahatlara gedirik, Beynəlxalq Valyuta Fondu ilə müqavilə bağlayırıq, amma öhdəliklərə əməl etmirik. Mən bu günlərdə bir araşdırma yazısı hazırladım, orada Azərbaycanı Ermənistan və Gürcüstan iqtisadiyyatı ilə müqayisə etdim. Məlum olur ki, digər iki ölkədə iqtisadiyyat daha stabildir. Neft olanda, iqtisadiyyat zəifləyəndə, azad iqtisadiyyat olmayanda avtoritar meyllər daha da güclənir. Ona görə də sistemli kirizis bu ölkələri islahatlara vadar edir və bunə gedəcəklər".

**M.Əliyev dedi ki, Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edən neftin qiymətinin belə tez qalxması gözlənilmir**: "Adıçəkilən ölkələr real islahatlar yoluna düşməyənə qədər neftin qiyməti qalxmayacaq. Venesuela və İranda artıq proses başlayıb. Rusiyaya gəldikdə, Putinin iş adamları ilə görüşləri onu göstərdi ki, Rusiya 2016-cı ildə daha dərin islahatlara girəcək. Bu durum ölkələri islahatlara məcbur edir. Yəni daxili resurslardan istifadə edib daxili istehlakı artırsınlar. Ona görə də bu, yalnız Rusiya ilə deyil, ümumən Rusiya tipli ölkələrlə savaşdır. Bəli, 2016-cı il çətin il olacaq. Amma dəyişikliklər baş verəcək. Azərbaycanda da islahat paketi hazırlanır, təkliflər toplanılır. Yayda Ümumdünya Bankı ilə çərçivə sazişi imzalanıb və bu, Azərbaycan üçün yaxın 5 ildə stabillik gətirən layihədir. Orada müəyyən şərtlər irəli sürülüb, şərtlərə əməl olunarsa, iqtisadiyyatın vəziyyəti müsbət axarda davam edəcək. Taktiki məsələləri isə hökumət özü hazırlamalıdır ki, proseslər normal istiqamətdə getsin. Azərbaycan öhdəliklərə əməl etsə, kreditlər alacaq, başqa investisiyalar Azərbaycana yönələcək. Əslində bu, birbaşa Azərbaycana aiddir, nəinki Rusiyaya".

**M.Əliyev ABŞ-dan Azərbaycana qarşı sanksiya hədələrinin gəlməsini də təsadüfi saymadı**: "Azərbaycan çox ciddi komponentdir, ona diqqət və tələb çox böyükdür, adi bir ölkə deyil, bu mənada münasibət sərtdir. Azərbaycanın böyük potensialı, insan resursu, ənənəsi, tarixi var. Bu xalqa imkan versən, çox şey yaradar. Regionda bu xalqın rolu çox vacibdir. Coğrafi vəziyyəti, nəqliyyat dəhlizləri önəmlidir. Bir də ki, Cənubi Qafqazda artıq Gürcüstanda islahatlar gedir, Ermənistan parlament respublikasına keçid etdi, qalır Azərbaycan. Biz artıq hamıdan geri qalırıq, Özbəkistan tipli ölkələrə bənzəyirik".

**M.Əliyev onu da qeyd etdi ki, manatın dəyərdən düşməsi inqilabi vəziyyətə gətirib çıxara, hətta məmurlar da kasıblara qoşulub ayağa qalxa bilər**: "Azərbaycanda inqilabın olması heç kimə, hətta Amerikaya da lazım deyil. Azərbaycan Şərqdə həmişə birinci olub. ABŞ və Avropa isə bizi dəfələrlə xəbərdar ediblər. Ona görə də vəziyyəti dəyişmək istəyirlər. Qiymətlərin düşməsi bir yana, hətta neftin istehsalı da aşağı düşür. Əgər hakimiyyət bu siyasətini davam etdirsə, daxili stabilliyin pozulması qaçılmazdır".

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov** isə hesab edir ki, ABŞ-Rusiya qarşıdurması iqtisadi yox, siyasi məsələdir: "Burada təkcə bir ölkədən söhbət getmir. Bu gün İŞİD neftin barelini 10 dollara satır, bu qiymət heç neftin maya dəyərini də ödəmir. Amma İŞİD neftlə zəngin əraziləri zəbt edib və bundan istifadə edir. Xatırlayırsınızsa, Sovetlər İttifaqının dövründə neft 8 dollara düşdü və SSRİ çökdü. Yəni o vaxt da iqtisadi yox, sırf siyasi amillərlə bağlı olaraq neftin qiymətini aşağı saldılar. Təbii ki, Rusiya, İran, Azərbaycan, Qazaxıstan kimi neft ixrac edən ölkələrin hamısının büdcəsinə kifayət qədər ziyan dəyir. Neftin qiyməti 3 dəfədən artıq aşağı düşüb. Vaxtilə bareli 120 dollar idisə, indi 36 dollardır". S.Novruzov Azərbaycanın durumunun elə də narahatlıq doğurmadığı qənaətindədir: "Vaxtilə biz neft vəsaitlərindən səmərəli istifadə etdik. Bir çoxları deyirdi ki, nefti gələcək nəsillərə saxlamalıyıq. Ancaq bizim ən böyük neft istehsalımız qiymətin pik vaxtında oldu - 50 milyon barel. Bundan da infrastruktur, qeyri-neft sektorunun inkişafı üçün istifadə etdik, evlər, məktəblər, xəstəxanalar tikildi, iş yerləri, istehsal müəssisələri açıldı. Bəzi ölkələr isə neftin pulunu Neft Fonduna yığdı. Liviya 230 milyard yığmışdı, götürüb apardılar. Amma Azərbaycan neft pullarından düzgün istifadə etdi. Azərbaycanın qeyri-neft sektorunu, kiçik sahibkarlığı inkişaf etdirməklə, yeni emal müəssisələrinin yaradılması ilə bağlı proqramlar işlənilir". YAP təmsilçisi ABŞ-Rusiya gərginliyinin uzun çəkəcəyi qənaətindədir: "Heç kim proqnoz verə bilməz ki, bu, neçə il davam edəcək. Amerika neftlə bağlı ehtiyatlarını da açıb. Hansı ki, bu qiymət o ehtiyatların xərci-borcunu ödəmir. Bununla belə ABŞ öz neftini satışa çıxarır. Təbii ki, bu, qiymətə təsir göstərəcək".

❑ **Elşad PAŞASOY**

# Rasim Əliyevin qanı batırılırmı?

## Cavid Hüseynovun azadlığa gedən yolu açılıb; "Qəbələ"nin kapitanının işinin yüngülləşdirilməsinə ciddi etirazlar var

**Avqustun 8-də döyülən və bir gün sonra həyatını itirən jurnalist Rasim Əliyevin ölümü ilə bağlı istintaq artıq yekunlaşıb. Nəticələr dekabrın 22-də məhkəməyə göndərilib. Zərərçəkmiş tərəf istintaqın nəticələrinə etiraz edir.**

**Teyfurə Əliyeva:** "Prezident cinayət işini birbaşa nəzarətinə götürübsə..."
**Əsabəli Mustafayev:** "Təəssüfedici haldır"
**Natiq Muxtarlı:** "Cavid Hüseynov azadlığa çıxacaq..."



Buna səbəb R.Əliyevin ölümündə suçlanaraq həbs edilən "Qəbələ" futbol klubunun sabiq kapitanı Cavid Hüseynov işinin ayrıca icraata götürülməsidir. Belə ki, jurnalistin ölümü ilə bağlı hazırda həbsdə olan digər 5 nəfərin- Kənan Mədətov, Camal Məmmədov, Samir Mustafayev, Elşən İsmayılov və Arif Əliyevə qarşı irəli sürülmüş 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə C.Hüseynov təqsirləndirilmir. Sabiq kapitanın işi yüngülləşdirilib. O, Cinayət Məcəlləsinin 307.1 (cinayətin hazırlanmasını və törədilməsini bilərək, bu barədə məlumat verməmə) və 307.2 (qabaqcadan vəd etmədən cinayəti gizlətmə) maddələri ilə ittiham olunur. İstintaqın nəticələrinin elan olunduğu ilk gündən cəmiyyətin və zərərçəkmiş tərəfin sərt təpkisi müşahidə olunur. Onlar iddia edirlər ki, futbolçu jurnalistin ölümündə birbaşa günahkardır. Onun tapşırığı ilə cinayətin törədildiyi iddia olunur. Bununla bağlı cəmiyyət və mətbuatın idman sektoru ilə açıq şəkildə qarşıdurmasının şahidi oluruq. Belə ki, idmanyönlü mətbuat orqanları, "Qəbələ"nin futbolçuları və idman sferasına yaxın şəxslərin əksəriyyəti C.Hüseynovun azadlığa çıxması, yaxud işinin yüngülləşdirilməsi üçün əllərindən gələni edirlər. Bu isə, ciddi etirazla qarşılanır. Baş verənlərlə bağlı mərhum jurnalistin valideynləri ölkə başçısına müraciət ediblər.

R.Əliyevin anası Teyfurə Əliyeva istintaqın gedişinin hər şeyi çılpaqlığı ilə üzə çıxardığını söylədi: "Gedişat onu göstərir ki, Cavidin cəzası yüngül olacaq. Hazırda ancaq prezidentimizə inanıram. Ümid edirəm ki, ədalətin bərpa olunmasında bizə kömək edəcək. Artıq ölkə başçısına müraciət etmişəm. Nəticənin olacağına ümid edirəm. Yəqin ki, iş yenidən araşdırılar. İstintaqın nəticələri elan olunanda öz etirazımızı bildirdik. Vəkil çoxlu vəsatətlər verdi. Deyilənə görə, ilkin istintaq necə aparılırsa, məhkəmə də ona uyğun gedir. Rasimlə Cavidin danışıqlarının şahidiyəm. Bilirəm ki, oğlumu evdən çıxaran Cavid oldu. O, Cavidin sözünə inanıb evdən çıxdı. Dəfələrlə Cavid və onun bibisioğlu Rasimə zəng vurdular. Məqsədləri aldadıb çıxarmaq idi. Sonda ona da nail oldular. Bütün bunların şahidi olduğuma görə, istintaqın gedişindən, Cavidin cəzasının yüngül olacağından razı deyiləm. Prezident cinayət işini birbaşa nəzarətinə götürübsə, yəqin ki, nəticəsi yaxşı olacaq".

Zərərçəkmiş tərəfin vəkili Əsabəli Mustafayev əsas məsələnin işin ədalətli aparılması olduğunu söylədi: "Burada hansısa tərəfin qalib gəlməsindən söhbət gedə bilməz. Ədalət zəfər çalmalıdır. Düşünürəm ki, istintaqın gedişinin bu yerə qədər gəlməsində ictimai rəyin də zəif olması mühüm rol oynadı. Jurnalistlər həmkarlarının hüquqlarının qorunmasına bəlkə də, bir o qədər səy göstərə bilmədilər. İstəməzdim ki, idman tərəfin mətbuatdan bu işdə daha güclü olduğunu düşünüm. Amma nəticəyə baxanda belə çıxır. Bu sadəcə təəssüfedici haldır. Hələ hər şey qabaqdadır. Məhkəmə prosesi gedəcək. Əgər bundan sonra jurnalistlər cəmiyyətdə düzgün rəy formalaşdıra bilərlərsə, nəticə dəyişə bilər".

Komanda.az saytının redaktoru, idman jurnalisti Natiq Muxtarlı bildirdi ki, burada əsas mənəviyyat məsələsi rol oynayır: "Biz bu məsələdə idman orqanı olmasına baxmayaraq, birmənalı şəkildə öldürülən həmkarımızın yanındayıq. İlk günlərdən cinayətkarların cəzalandırılmasını tələb etmişik. "Qəbələ" rəhbərliyini bu məsələdə Cavidi müdafiə etdiklərinə görə qınamışıq. Amma çox təəssüf ki, mənəviyyat çoxları üçün arxa planda olan məsələdir. "Qəbələ" futbol klubu cəmiyyətin bu məsələdə formalaşan rəyini nəzərə almırlar. Hələ də Cavid Hüseynovu müdafiə etməkdə davam edirlər. Onun azadlığa çıxması üçün bütün vasitələrdən istifadə edirlər. Onlar futbolçunun həbsini imiclərinə vurulan zərbə kimi qəbul edirlər. Çünki bir müddət əvvəl "Neftçi"nin futbolçusu Araz Abdullayev avtomobili ilə yoldan keçən şəxsləri vurmuşdu. Bir nəfər ölmüşdü, biri isə yaralanmışdı. Amma Araz Abdullayev bir dəqiqə belə həbsdə olmadı. Təbii ki, bu işdə klub rəhbərliyinin rolu oldu. Hazırda iki klub rəhbərliyi arasında nüfuz mübarizəsi gedir. Bir jurnalistin taleyi üzərində dəhşətli oyunlar gedir. İctimaiyyət bu məsələni daim diqqətdə saxlamalıdır. Həmkarımızın ölümündə günahı olanların layiqli cəza almalarına nail olmalıyıq. Bir addım geri çəkilsək, Cavid Hüseynov azadlığa çıxacaq, digər cinayətkarlar da azad olunacaqlar".

Xatırladaq ki, R.Əliyev facebookda C.Hüseynovla bağlı yazdığı statusa görə avqustun 8-də futbolçuya yaxın şəxslər tərəfindən döyülüb. Jurnalistin döyülmə anı həmin ərazidəki nəzarət kameralarına düşüb. Dekabrın 22-də yayılan videoda R.Əliyevin döyülməsi anbaan kameranın yaddaşına düşüb. Aldığı xəsarətlərdən R.Əliyev avqustun 9-da gecə saatlarında 1 saylı Şəhər Kliniki Xəstəxanasında dünyasını dəyişib.

❑ Cavanşir ABBASLI

# Acliği dayandıran eks-müstəntiq yeni müraciət yaydı

## "Bir səhər oyandım və... "

**Müdafiə Nazirliyi mətbuat xidmətinin keçmiş rəhbəri, eks-millət vəkili Eldar Sabiroğlunun prokurorluq orqanlarından istefa verən oğlu Rüfət Səfərov yeni müraciət hazırlayıb. İkigünlük aclıq aksiyasından sonra fikirlərini geniş bir müraciətdə ifadə edən R.Səfərovun müsavat.com-a yolladığı yazı "Nə üçün belə etdim?" adlanır.**



Rüfət Səfərov

R.Səfərov müraciətində həyatını ayrı-ayrı hissələrə bölərək, onları təsvir edir və bunun fonunda son günlər yaşadıqlarının səbəblərini izah edir. "7 yaşımdan - doğma torpağımdan deportasiya olunduqdan bəri narahat düşüncələr körpə hislərimə hakim kəsildi" deyən R.Səfərov daha sonra orta məktəb, ali məktəb illərini də yada salıb. Ardınca isə "Hökumət evi və mən" yarımbaşlığı ilə prokurorluq orqanına gəliş hekayəsini yazıb: "23 yaşında Kənd Təsərrüfatı Nazirliyində əmək fəaliyyətinə başlayaraq, aqrar hüquq sahəsində məsləhətlər verdim. Bu məsləhətin ömrü 6 il çəkdi, daha doğrusu, Eldar Sabiroğlunun bir zəngi ilə nazirliklə vidalaşmalı oldum: - "Salam oğlum, necəsən? İndicə "Azərbaycan" qəzetində prokurorluq orqanlarına müsabiqə elan edildiyini oxudum. Xahiş edirəm, hazırlaş, sənədlərini təqdim et. İnanıram ki, uğur qazanacaqsan. Səndən istintaqçı olaraq xalq və dövlətə yaxşı xidmətçi çıxar..." - "Salam, ata. Minnətdaram, normal olmağa çalışıram. Ata, mənim xasiyyətimə bələd olduğun halda, gör, məndən nə xahiş edirsən? Axı, prokurorluq mənlik deyil. Orada mövcud olan bəzi məsələlərlə mənim xarakterim üst-üstə düşmür. Ancaq yaxşı, sözünü eşidirəm..."

Həyatını mərhələlər üzrə anladan R.Səfərovun müraciətinin bundan sonrakı hissəsi isə "Müstəntiq Rüfət Səfərov" adlandırıb və aşağıdakıları yazıb: "...Artıq prokurorluq orqanlarındayam. Zərdabda müstəntiq olaraq. Zərdab və zərdablılara tezliklə isinişsəm də özümü bu qurumda görə bilmir, sanki işgəncə altında fəaliyyət göstərirəm. Bütün iş, material və sənədləri axırıncı gündə icra edə bilirəm. Can dərdi olaraq. Əminliklə söyləyə bilərəm ki, yer üzündə ən ciddi işgəncə kimliyini görə bilmədiyin yerdə fəaliyyət göstərməkdir. O yerdə ki, münasibətləri hüquq normaları deyil, "özəl" normalar tənzim edir. O yerdə ki, bilik və qabiliyyət arxa planda, təqdimat, himayədarlıq, xidməti traybalizm ön plandadır... Və mən növbəti dəfə öz-özümə sual edirəm: "Sən, idrak edə bilirsənmi, haradasan? Nə işlə məşğulsan? Məcburən nələrə vəsiləsən?" Dəhşət saçan, içimi didən, bütün mövcudiyyətimi sarsıdan bu suallar ətrafında düşünürəm: "Ya həmin suallar məni didib-parçalayacaq, ya da özümdə təpər tapıb, qalib gələcəyəm!"

**R.Səfərov həmçinin yazıb ki, onu tanıyanlar haqsızlığa dözümü olmadığını bilir:** "Hər zaman ölkədə baş verən ədalətsizliklər, hüquq və azadlıqların addımbaaddım tapdanması, qanunsuzluğun öz apogeyinə qalxması, görüşlərinə görə insanların zındana salınmaları, siyasi, iqtisadi, mədəni, sosial və s. hüquqların az qala rəsmi surətdə ləğv edilməsindən dolayı narahatçılıqlarımı ifadə etmişəm. Lakin bu da dar çərçivədə olmuşdur. Təbii ki, bu, heç nəyi həll etmir, məsələnin həlledici yanı o, ola bilərdi ki, fikirləri bütöv xalqa çatdırıb, nəyin nə yerdə olduğunu izhar edəsən... Misalçün, yeraltı və yerüstü sərvətlərə rəğmən, insanların anormal yaşam sürmələrindən tutmuş Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadəni "vətən xaini" çıxaran birisinin Milli Məclisə düşə bilməsinin motivlərini 2-3 dostun yanında izah etmək boş şeydir... Bu və buna bənzər hallar barədə sosiuma elan vermək əsas şərtdir! Cavid Əfəndi demiş, bu qədər səbrə nə hacət?"

**R.Səfərov sonda bu qərarı verdiyi gün yaşadıqlarını bütün çılpaqlığı ilə təsvir edir:** "VAXTDIR!!! Zaman-19 dekabr 2015-ci il. Məkan-Zərdab şəhəri, kirayənişini oduğum mənzil. Yuxudan oyanıb, həyat yoldaşıma səslənirəm: "Nuray, bu gün ölkədə tüğyan edən haqsızlıqlar sənin də gözlərin önündə cərəyan edir. Mən daha tab gətirə bilmirəm. Qəti qərar vermişəm. Prokurorluq orqanlarından istefa verib, haqqın tərəfinə keçirəm. Söylə, o halda, yanımda olacaqsanmı? Zatən, yanımda olmayacağın da aldığım qərara zərrə qədər sirayət etməyəcəkdir. Sadəcə, bir ər olaraq səndən soruşuram..." Cavab özünü çox gözlətmir: " Sən həyatda olsan həyatda, qəbirdə olsan qəbirdəyəm! Yanındayam!" Bundan sonra ictimaiyyətə elan: "Mən, Səfərov Rüfət Eldar oğlu ölkədə tüğyan edən şərəfsizlik və ləyaqətsizliyə etiraz rəmzi olaraq prokurorluq orqanlarından istefa verirəm!" Bir bilsəniz, bir anın içində içim necə rahatlandı, bir bilsəniz bir anın içində dünyanın ən bəxtəvər inasanına çevrildim. Çünki AZAD oldum!!!"

**Müraciətində atası ilə münasibətlərinə toxunan R.Səfərov aşağıdakıları yazıb:** "Cənab Sabiroğlu mənim atamdır. O ata ki, min zillətlə məni böyütmüşdür. Adım qədər əminəm ki, bizim evə onun əmək haqqı, əmək haqqı çatmadıqda isə dostlarının köməyindən savayı, kənar gəlir daxil olmamışdır. Amma təəssüf ki, atamın siyasi fikirlərini, yalnız siyasi fikirlərini daxilimdə heç zaman qəbul etməmiş, tamam-kamal ayrı cür düşünmüşəm ki, bu da vətəndaş cəmiyyətinin çiçəkləndiyi ölkələrdə normal, qorxu hissinin sosiuma hakim kəsildiyi ölkələrdə anormaldır... Lakin atama üz vurmur, içimdən keçənləri ifadə etmirdim. Atama uzun ömür, can sağlığı, möhkəm iradə arzu etməklə bərabər, əmin edirəm ki, həyatı boyu onun başını aşağı sala biləcək tərzə yol verməyəcəyəm".

**R.Səfərov müraciətində "siyasi düşük və icarəyə götürülmüş politoloq: bir medalın iki üzü" yarımbaşlığı ilə adını çəkmədiyi iki nəfərin onun barəsində dediklərini də tənqid edib.** "Onların hər ikisinə tövsiyəm budur ki, şərəf və ləyaqət hislərinə gec də olsa, sahib çıxsınlar" deyən eks-müstəntiq sonda ona dəstək verən hər kəsə təşəkkürünü çatdırıb.

❑ Hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 289 (6317) 26 dekabr 2015

**Azərbaycanda jurnalistlərin sorğularına cavab verməkdən imtina etməyə, cavabsız buraxmağa və jurnalistə informasiyanın verilməsinə məhdudiyyət qoymağa görə yeni cəzalar tətbiq olunur. Bu, yeni hazırlanmış İnzibati Xətalar Məcəlləsinin 382-ci maddəsində təsbit olunub.**

# "Jurnalistlərin məmurları cərimələtməsi mümkün olmayacaq"

**Mehman Əliyev:** "Məsələn, Hacıbala Abutalıbov 5000 manat da ödəməyə hazırdır ki, o informasiyaları verməsin..."

**Maddənin birinci hissəsində göstərilir ki, qanunla müəyyən edilmiş müddətdə jurnalist sorğusuna cavab verməməyə görə 200 manatdan 300 manata qədər cərimə tətbiq ediləcək.** Maddənin ikinci hissəsində isə deyilir ki, qanunla qorunan informasiyalar istisna olmaqla, jurnalistə informasiyanın verilməsinə məhdudiyyətlər qoymağa və ya informasiya verilməsindən imtina etməyə görə isə 300 manatdan 500 manata qədər cərimə nəzərdə tutulur. Hazırda qüvvədə olan məcəlləyə görə isə bu cərimələr müvafiq olaraq 40 manatdan 70 manata qədər və 60 manatdan 90 manata qədərdir.

Azərbaycan prezidenti tərəfindən təqdim edilmiş yeni İnzibati Xətalar Məcəlləsi Milli Məclisin plenar iclasına tövsiyə olunub və dekabrın 29-da müzakirəyə çıxarılacaq. Məcəllə qəbul



Mehman Əliyev

olunduğu təqdirdə 2016-cı il mayın 1-dən qüvvəyə minəcək.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** hesab edir ki, bu qanun işlək olmayacaq. O, öz təcrübəsindən çıxış edərək bu günədək araşdırma yazıları üçün bir neçə dəfə dövlət orqanına müraciət etdiyini bildirdi: "Bu yaxınlarda qanunsuz tikililərlə bağlı bir araşdırma hazırlayırdım. Hacıbala Abutalıbov başda olmaqla, bir neçə qurumun rəhbərinə sorğu göndərmişəm. Amma cavablamadılar. Bu sorğuların cavablandırılmaması ilə bağlı ombudsman Elmira Süleymanovaya da müraciət etmişəm. Ona da deyilib ki, biz artıq cavablandırmışıq. Halbuki ortada heç bir cavab mətni yoxdur. Bu, çox ciddi məsələdir və məcəlləyə dəyişikliklərlə həll olunmur. Hökumət nümayəndələri yeri gəldi-gəlmədi, jurnalistləri qeyri-obyektiv fəaliyyətdə günahlandırırlar. Mən bir sorğuya 2 aya cavab ala bilmirəmsə, necə bütün tərəflərin mövqeyini işıqlandıra bilərəm? Halbuki istəsələr, bu suala 2 dəqiqəyə cavab verə bilərlər".

**Müsahibimiz hesab edir ki, hökumət məmurları üçün pul cəriməsi olduqca kiçik cəzadır.** "Onlarçün bu məbləğ qəpik-quruşdur" deyən M.Əliyevin fikrincə, məsələn, Hacıbala Abutalıbovçün pul cəriməsi daha kiçik cəzadır, nəinki həmin məlumatların mediaya açıqlanması: "Hacıbala Abutalıbov hətta 5000 manat da verər ki, o qoyduğumuz suallara cavab verməsin. Digər tərəfdən media məhkəməyə müraciət etməlidir. Məhkəmə buna baxacaq, əlavə sorğu yollayacaq və indiki məhkəmələrin necə "müstəqil" olması da məlumdur. Bu halda heç bir perspektiv görmürəm. Heç bir KİV bununla məşğul deyil. Ona informasiya verməyən məmurdan məhkəməyə şikayət etmir, tələb etmir. Məhkəmə sistemi də azad deyil. Siyasi qərar olmalıdır. Ciddi mexanizm olmalıdır bunun arxasında".

❑ **Sevinc TELMANQIZI**

# Deputat unun qiymətini 9 manat bahalaşdırdı

Korrupsiyaya Qarşı Mübarizə İdarəsi İmişlidə iş adamını saxladı

**Deputat Əsabil Qasımovun ailəsinə məxsus olan "Karat" holdinqin istehsal etdiyi un məhsulları kəskin bahalaşıb. 20 dekabrda baş verən kəskin devalvasiyaya qədər "Karat" istehsalı olan "Karmen" markalı 1 kisə un 18 manat olsa da, hazırda 27 manata satılır.**

Deputatın ailə holdinqi Azərbaycan un məhsulları bazarında kifayət qədər böyük çəkiyə malikdir. Bu baxımdan deputatın ailə şirkətinin qiymətləri qaldırması manatın qiymətdən düşməsi fonunda ölkədə çörəyin qiymətinə, çəkisinə də birbaşa təsir edir.

Avropa.info yazır ki, holdinqin əsas istehsal sahəsinin yerləşdiyi İmişli şəhərində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları əməliyyat keçiriblər. Nəticədə İmişlidə "Karat"da istehsal olunan unun topdansatışı ilə məşğul olan iki böyük anbardan birinin sahibi tutulub. Həmin anbarlardan biri Milli Məclisin deputatı Əsabil Qasımovun xalası oğlu Naib Xəlilovun, digəri isə iş adamı Nizami Umudovundur.

N.Xəlilov unun 1 kisəsini 27 manata, digər iş adamı isə 27 manat 50 qəpiyə satırmış.

Keçirilən əməliyyat zamanı saxlanılan da Nizami Umudov olub. O, unun 1 kisəsini istehsalçı şirkət kəskin bahalaşdırandan sonra 50 qəpik baha satırmış. N.Umudov 3 gün imiş unun qiymətini 18 manatdan 27 manata 50 qəpiyə qaldırıbmış. Dekabrın 24-dən isə N.Umudov İmişli rayonunda un satışını



Əsabil Qasımov

ümumiyyətlə dayandırıbmış. Rayon sakinləri sayt əməkdaşına bildiriblər ki, N.Umudov unu Əsabil Qasımovun xalası oğlu Naib Xəlilovdan alıb və satır. Belə bir halda qiyməti qaldıran istehsalçı şirkət rəsmiləri əvəzinə unun alqı-satqısı ilə məşğul olan iş adamının həbsi anlaşılmır.

Nizami Umudovu Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları saxlayaraq, Bakıya gətiriblər.

İmişli rayon Polis İdarəsindən Nizami Umudovun həbsinin hansı səbəbdən baş verdiyini bilmədiklərini deyiblər.

"Yeni Müsavat" əməkdaşı "Karat" holdinqin Bakının Murtuza Muxtarov küçəsi 201 ünvanındakı ofisi ilə əlaqə saxlayıb. Ofisdən Ə.Qasımovun ofisdə olduğunu bildirsələr də, deputat qiymət artımı və İmişlidə "Karat"ın istehal etdiyi un məhsulunu baha satan iş adamının Nizami Umudovun saxlanılması ilə bağlı danışmaq istəməyib. Deputat mobil telefonuna etdiyimiz israrlı zəngləri də cavabsız qoyub.

**Görəsən, deputat Əsabil Qasımov ölkə rəhbərliyinin süni bahalaşmaya qarşı mübarizə haqda çağırışlarını eşitməyib?**

❑ **E.MƏMMƏDƏLİYEV**

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Bahalaşmanın qarşısını alacaq təkliflər...

Ekspertlər bunları mümkün sayır, ancaq...

**Ölkədə baş verən ikinci kəskin devalvasiyadan sonra qiymət artımları ciddi müzakirə olunmaqdadır. Devalvasiyanın təsirlərini azaltmaq və qiymət artımının qarşısını almaq üçün hansı addımların atıla biləcəyi də müzakirə mövzusudur. Ekspertlər bildirirlər ki, ölkənin üzən məzənnəyə keçidi qiymətlərin artmasına gətirib çıxaracaq. Bununla da əhalinin alıcılıq qabiliyyəti faktiki olaraq devalvasiya proporsiyasında azalacaq.**

Ekspertlər vəziyyətdən çıxmaq üçün təkliflər də verirlər. **Ekspert Natiq Cəfərli** bunun üçün hökumətin atmalı olduğu üç addımı açıqlayıb. O, məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, birinci addım rəqabətli mühitin yaradılmasıdır: "Bu, birinci və çoxdan atılmalı olan addımdır. Rəqabətli mühit olmalıdır ki, ölkəyə mal gətirən, mal aparan, ölkə üçün çalışan, uğurlu biznesdə çalışan insanlara sərbəstlik olmalıdır. İnhisarçılıq ləğv edilməlidir".

**İkinci addım isə korrupsiya ilə mübarizənin ciddiləşdirilməsidir:** "Korrupsiya ilə mübarizə sözdə yox, işdə, əməldə olmalıdır. Buna əsas rəvac verən orqanların səlahiyyətlərinin minimum endirilməsi, bir çox səlahiyyətlərinin əllərindən alınması vacibdir. Ölkədə 14-ə yaxın dövlət və hökumət təşkilatı var ki, bu yoxlamaları həyata keçirə bilər. Yoxlamalar azaldılmalıdır".

Üçüncü və ən əsas addım isə istehsalı stimullaşdırmaqdır: "Özü də ixracat yönümlü istehsalı stimullaşdırmaq lazımdır. Xaricdən gələn mallarla rəqabətə girəcək, onları vəz edə biləcək məhsulların istehsalıdır, bunu stimullaşdırmaqdır. Bunun üçün faizsiz kreditlərdən tutmuş uzunmüddətli vergilərdən azad olunmasına qədər iş adamlarına və şirkətlərə paketlər təqdim olunmalıdır. Stimullaşdırıcı addımlar olmalıdır. Bunların hamısının edilməsi üçün isə ilk növbədə ölkədə azad məhkəmə sistemi qurulmalıdır, mülkiyyət toxunulmazlığı təmin olunsun. Bu, çox vacib, önəmli məsələdir. Bu, olmasa heç kim biznes qurmaq istəməyəcək ki, nə vaxtsa bu biznesi onun əlindən ala bilərlər. Məhz əsas lazım olan məhkəmə sisteminin normal qaydaya düşməsi, fəaliyyəti, mülkiyyətin toxunulmazlığı hüququnun bərpa olunmasıdır. Bunsuz digər islahatlar həyata keçməyəcək. Bu, bütün ölkələrin əlifbasıdır. Bütün ölkələrdə ilk növbədə məhkəmə sistemi və ədalət sistemi bərpa olunur. Ondan sonra biznes mühiti üçün açılımlar olur və addımlar atılır".

❑ **RÖYA**





# Mərkəzi Bank manatın vəziyyətini müzakirə etdi, amma...

Banklar toplaşdı, Mərkəzi Bank dollarla krediti olan müştərilərə yardım göstərməyi tövsiyə etdi; Naxçıvanda isə müştərilər dollar kreditlərini əvvəlki məzənnə ilə ödəyəcək

**Manatın ucuzlaşmasından sonra ölkə banklarının reytinqi də aşağı düşüb. "Fitch Ratings" Beynəlxalq Reytinq Agentliyinin son məlumatında ölkənin bir neçə bankının reytinqi aşağı salınıb. Azərbaycan Mərkəzi Bankı isə 2015-ci ilin sonunadək kapitalın adekvatlıq əmsalı həcminin 12 faizdən 10-dək azaldılmasını planlaşdırır. Bu barədə məlumatı da sözügedən reytinq agentliyi açıqlayıb. Məlumatda bildirilir ki, manatın məzənnəsinin kəskin aşağı düşməsi risk səviyyəsi üzrə ölçülmüş xarici valyutada inflyasiya vasitəsilə kapitalın kifayətliliyinə zərbə vurub və bəzi hallarda bu, pulköçürmələr üzrə əhəmiyyətli itkilərə gətirib çıxaracaq.**

Mərkəzi Bank isə dekabrın 25-də təcili toplantı çağıraraq ikinci dvealvasiyanı müzakirə edib. APA toplantını Mərkəzi Bankda bank sektoruna və əhaliyə dəstək paketinin müzakirə olunması kimi təqdim edib. Görüşdə üzən məzənnə rejiminə keçiddən sonra yaranmış vəziyyət, onun bank sisteminə və bankların müştərilərinə təsiri müzakirə olunub. Bununla yanaşı, Mərkəzi Bank tərəfindən bank sisteminə və əhaliyə dəstək paketi də müzakirə mövzularından biri olub. Günün sonunda yayılan məlumata görə, Mərkəzi Bank banklara dollarla krediti olan müştərilərə yardım göstərməyi tövsiyə edib. Bildirilir ki, görüşdə manatın devalvasiyaya uğramasından sonra bankların problemli aktivlərinin kəskin artması və bank sektorunda konsolidasiya prosesi müzakirə olunub. Bildirilib ki, banklar dollarla krediti olan müştərilərə müvafiq yardımlar göstərməlidir. Eyni zamanda qeyd olunub ki, MB banklara vəziyyətdən çıxmaqda yardım edəcək. R.Orucov banklara dollarla krediti olan müştərilərin kreditlərinin restrukturizasiyasını aparmağı tövsiyə edib. O qeyd edib ki, bank sektorunda konsolidasiya prosesi sürətlənməlidir. Bununla yanaşı, banklar manatla olan məhsullarını bazara daha intensiv çıxarmalıdır. Banklara o da tövsiyə olunub ki, fərdi inkişaf proqramlarını hazırlasın.

Naxçıvanda isə kredit borcu olanlar üçün dolların köhnə məzənnə ilə hesablanacağı ilə bağlı məlumatlar yayılıb. Musavat.com xəbər verir ki, bu məlumatın hələlik rəsmi təsdiqi yoxdur. Strateq.az saytının məlumatına görə, dekabrın 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yanında manatın devalvasiyasının yaratdığı iqtisadi və sosial nəticələrin mümkün qədər kompensasiya edilməsi məsələləri müzakirə olunub. Kompleks tədbirlər toplusunun mühüm bir istiqaməti kimi ABŞ dolları ilə kredit borcları olan vətəndaşlara güzəşt məsələsinə baxılıb. Bu məsələ ilə bağlı Ali Məclis sədri tövsiyyə edib ki, "Naxçıvanbank" ASC ABŞ dolları ilə kredit borcu olan sakinlər borclarını ödəyib qurtaranadək (yalnız kredit borcu olanlar borcunu ödəyən zaman) 1 dolları 1.05 manat ekvivalentində konvertasiya etsin.

Ölkədə fəaliyyət göstərən bəzi kommersiya bankları isə devalvasiyadan sonra həm manat, həm də dollar kreditləşməsini müvəqqəti dayandırıb. "Bloomberg" isə manatı dünyanın ən pis valyutası hesaab edir: "48 faiz dəyər itirmiş Azərbaycan manatı dünyanın ən pis valyutasıdır. Ondan bir pillə yuxarıda isə Qazax təngəsi gəlir".

Məqalədə deyilir ki, Azərbaycanın milli valyuta barədə qəbul etdiyi son qərar Qazaxıstandan sonra keçmiş sovet məkanında yaşanan ikinci böyük devalvasiya olub. Jack Farchy yazır ki, "Bakı ixracının 95 faizi, hökumət gəlirlərinin dörddə üçü və ÜDM-in 40 faizi neft və qazın payına düşür". Devalvasiya böyük bir ehtimalla sadə azərbaycanlıların manatla olan maaşlarını, pensiyalarını və əmanətlərini vuracaq.

**"Hələ fevral ayında Azərbaycan Mərkəzi Bankının rəhbəri Elman Rüstəmov "Financial Times" qəzetinə bildirmişdi ki, Azərbaycan dollar sancağından çıxmağı planlaşdırır, lakin manat son anadək dolların kursunu yaxından təqib edib",- deyə məqalədə bildirilir.**

Strateq.az saytı Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Səbuhi Məmmədova sorğu ünvanlayıb. Strateq.az-ın sorğusuna cavab olaraq, İdarənin sədri Səbuhi Məmmədov bildirib ki, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası bankın səhmdarları ilə razılaşdırılmış 25 dekabr 2015-ci il tarixli qərarına əsasən, "Naxçıvanbank" ASC-yə 21 dekabr 2015-ci il tarixə ABŞ dolları ilə borcu olan hüquqi və fiziki şəxslərin əsas və faiz borclarının alınması 1,05 AZN məzənnəsinə uyğun olaraq aparılacaq: "Bankın xarici valyutada kredit portfeli 1 milyon ABŞ dollarına qədərdir və 370 nəfəri əhatə edir. Yaranmış zərər "Naxçıvanbank" ASC tərəfindən qarşılanacaqdır".

❑ **RÖYA**




# Əlil məhkumun ev dustaqlığı üçün prezidentə müraciət olundu

**ABŞ vətəndaşı, "Human Rights Watch" hüquq müdafiə təşkilatının üzvü Mehmet Günişık ölkə rəhbərliyinə müraciət edib. M.Günişık müraciətində yazır ki, qaynı Rauf Sultanov hazırda Penitensiar Xidmətin Müalicə Müəssisində saxlanır: "Hörmətli prezident! Rauf Sultanov uşaqlıqdan 1-ci qrup əlildir, ağır eplepsiya xəstəsidir. Nəsimi rayon Məhkəməsinin 4 dekabr 2012-ci il tarixli hökmünə əsasən 3 il 6 müddətinə azadlqıdan məhrum edilib. Hökm üzrə cəza müddəti 2 dekabr 2015-ci ildə başa çatıb. Lakin Rauf Sultanova qarşı irəli sürülmüş yeni ittiham üzrə 12 sentyabr 2015-ci il tarixdə Xəzər Rayon Məhkəməsinin hakimi Tərlan Əkbərov tərəfindən daha 5 il müddətinə azadlıqadan məhrum edildi. Rauf Sultanovun hökmdən verdiyi apelyasiya şikayəti üzrə 23 noyabr 2015-ci il tarixdə hakim Vüqar Məmmədovun sədrliyi ilə keçirilən prosesdə həmin qanunsuz hökm ləğv olunub. Cinayət işi məhkəmə hazırlıq iclası mərhələsinə geri qaytarıldı.**

Hörmətli prezident!

Rauf Sultanov barəsində seçilmiş həbs qətiman tədbiri qanunsuz və əsassızdır. Onun barəsindəki qətimkan tədbiri alternativ qətimkan tədbiri ilə əvəz olunmasını və azadlığa buraxılmasını xahiş edirik".

Qeyd edək ki, bir müddət əvvəl R.Sultanovun bacısı da prezidentə müraciət edərək Nəsimi polisinin müstəntiqi Vüqar Məcidovun cinayət işinin materiallarında qardaşına məxsus imzanı saxtalaşdırdığını yazıb. O, prezidentə müraciətində qardaşının həyatının təhlükədə olduğunu da diqqətə çatdırmaqla günahsız olan əlil vətəndaşın həbsdən azad olunmasını xahiş etmişdi.

❑ E.MƏMMƏDƏLİYEV

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# Gənc müğənni intihar etdi

## **Elza Seyidcahan:** "Çox sakit, tərbiyəli uşaq idi"

**Gənc müğənni Elvin Ordubadlı intihar edib. Bəstəkar-müğənni Elza Seyidcahan tələbəsinin "Yeni Müsavat"a danışarkən bildirib ki, onun hansı səbəbdən intihar etdiyinin məlum olmadığını deyib: "Anası hazırda çox əsəbi və gərgin vəziyyətindədir. Buna görə də əlaqə saxlasaq Elvinin intihar səbəblərini öyrənə bilmədik. Bu xəbər çox pis olmuşam. Kaş ki, bu addımı atmazdı. Özü də ailəli idi, iki qız atasıydı. Allah rəhmət eləsin".**

Xatırladaq ki, bu gün müğənni Elvin Ordubadlı özünü binanın 5-ci mərtəbəsindən atıb. "Azərbaycanın səsi" musiqi yarışmasında iştirak edib. Bundan başqa, müğənni Azərbaycanı 2014-cü ildə "Türkviziya" musiqi yarışmasında Elza Seyidcahanın bəstələdiyi "Divlərin yalnızlığı" mahnısı ilə təmsil edib.

❑ Xalidə GƏRAY

# Tiryəklə tapançanı dəyişdirmək istəyənlər tutuldu

**Respublikanın daxili işlər orqanları cinayətkarlıqla mübarizə sahəsində növbəti əməliyyat tədbirləri həyata keçirib. Nəticədə külli miqdarda narkotik vasitənin qanunsuz dövriyyəsi və odlu silah-sursatın alqı-satqısı ilə məşğul olan şəxslər ifşa edilib.**

Musavat.com-un məlumatına görə, Zəngilan Rayon Polis Şöbəsi (RPŞ) əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Lənkəran rayon sakini əvvəllər məhkum edilmiş Ceyhun Əsgərov Abşeron rayonu Masazır qəsəbəsində məcburi köçkünlər üçün salınmış şəhərcikdə 605 qram çəkidə narkotik vasitə olan tiryəki 3600 manata satmaq istəyən zaman saxlanılıb.

Əməliyyat tədbirinin davamı olaraq C.Əsgərova 100 qram tiryək qarşılığında 1 ədəd tapançanı satmaq istəyən Hacıqabul rayon sakini, əvvəllər Cinayət Məcəlləsinin ağır maddələri ilə dəfələrlə məhkum olunmuş Elnur Məmmədov da saxlanılaraq Zəngilan RPŞ-yə gətirilib. Orada baxış keçirilən zaman E.Məmmədovun üstündən 1 ədəd tapança aşkar edilərək maddi sübüt kimi götürülüb.

**Hər iki faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.**

❑ MƏMMƏD

# Tovuzda yük maşını 17 yaşlı qızı vurub

**Tovuzda piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, Bakı-Qazax yolunun Tovuz rayonu Qovlar şəhəri ərazisindən keçən hissəsində Gədəbəy rayon sakini, 1998-ci il təvəllüdlü Aybəniz Musayeva yolu keçmək istəyərkən "ZİL 130" markalı avtomobil tərəfindən vurulub. Yaralı dərhal Tovuz Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onun vəziyyətinin ağır olduğu bildirilir.**

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsində araşdırma aparılır.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## TƏBRİK

*Allahverdi balanı 3 yaşının tamam olması münasibətilə əmiləri Fərman, Füzuli, Rasim, Azər, Ağakişi ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırlar.*



# Bir neçə nəfərə qarşı dələduzluq edən şəxsə 10 il həbs cəzası

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Vüqar Nəsibovun cinayət işi üzrə məhkəmə başa çatıb. "Report"un məlumatına görə, hakim Faiq Qəniyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmü ilə V.Nəsibov 10 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, V.Nəsibov Bakıda bir neçə vətəndaşın pulunu dələduzluq yolu ilə əldə edərək qaytarmayıb. O, Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə ittiham olunub.

# Müştərisinin evində yatan taksi sürücüsü soyuldu

**Bakıda gecə saatlarında müştərisini evinə aparan taksi sürücüsü onun evində qalmağa qərar verib. Lakin həmin evdə kirayədə yaşayan şəxs sürücünün yatmasından istifadə edib.**

Milli.Az-ın məlumatına görə, Lənkəran rayon sakini, 1992-ci il təvəllüdlü Cavid Rzalı polisə müraciət edərək bildirib ki, səhərə yaxın saat 05 radələrində taksi kimi fəaliyyət göstərdiyi "Chevrolet Aveo" markalı avtomobillə müştəri kimi gətirdiyi şəxslə birlikdə onun kirayədə yaşadığı Mətbuat prospektində yerləşən evinə girib. Gecəni həmin evdə yatmağa qərar verən sürücü səhər oyandığında soyulduğunu bilib. Müştəri sürücünün cibindən 20 manat pul və avtomobilin açarlarını götürüb.

Həmin şəxs avtomobili də qaçırıb. Həmin avtomobil yol polisi əməkdaşları tərəfindən saxlanılıb və İnzibati Xətalar Məcəlləsinin 152-ci maddəsi ilə 10 saylı cərimə dayanacağına yerləşdirilib. YPX əməkdaşları müştərinin soyğunçuluq etdiyini bilmədikləri üçün onu sərbəst buraxıblar.

**Aparılan araşdırmalarla həmin şəxsin Qusar rayon sakini, 1985-ci il təvəllüdlü Eduard Mirzəcanov olması müəyyən edilib. E.Mirzəcanovun saxlanılması üçün tədbirlər keçirilir.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi: (050) 264 49 99**

YENİ MÜSAVAT
N 289 (6317) 26 dekabr 2015

# Sürüşmə zonası üçün ayrılan 25 milyon hara "sürüşüb?"

## Zığ qəsəbəsindəki sürüşmə zonasında yaşayan ailələrin problemi həll edilmir; sakinlər Abid Şərifovu tapa bilmir...

**Suraxanı rayonu, Zığ qəsəbəsindəki sürüşmə zonasında yaşayan ailələrin problemi həll edilmir. Müvafiq qurumların sürüşmə zonasında yerləşən evlərin qəzalı vəziyyətdə olması haqda rəy olsa da, dövlət büdcəsindən vəsait ayrılsa da, hələ ki heç bir tədbir görülmür.**

Sürüşmə zonasında yerləşən 100-dən çox evin qəzalı vəziyyətdə olması, həmin evlərin bəzilərinin yaşayış üçün təhlükəli olması barədə bir neçə dəfə məlumat vermişik. Lakin heç bir tədbir görülmədiyindən Zığ sakinləri hələ də təhlükəli evlərdə yaşayırlar.

Musavat.com xəbər verir ki, qəzalı evlərdə yaşayan sakinlərin həyatı təhlükədədir. Bir neçə gün əvvəl **Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin geoloji planlama ekspedisiyasının dəstə rəisi Rafiq Həsənov** da açıqlamasında qeyd edilən ərazidə sürüşmə prosesinin aktivləşdiyini bildirib.

Hələ 2012-ci ildən sürüşmə prosesinin aktivləşdiyi əraziyə Fövqəladə Hallar Nazirliyinin, Suraxanı Rayon İcra Hakimiyyətinin, Bakı Şəhər İcra Hakimiyyətinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən baxış keçirilib. Ərazidə yerləşən 106 fərdi yaşayış evindən 31-nin tam qəzalı vəziyyətdə olması və bir hissəsinin uçması, 21 evdə isə qəza vəziyyətin yaranması haqda rəy hazırlanıb.

Qəzalı vəziyyətdə olan evlərin köçürülməsi, təmir-bərpa işlərinin mümkün olduğu evlərdə təmir işlərinin aparılması və həmin ərazidəki insanların təhlükəsizliyinin təmin edilməsi üçün 2015-ci ilin dövlət büdcəsindən 25 milyon manat ayrılıb. Lakin nə görülən iş var, nə də ayrılan vəsaitin taleyindən xəbər var.

Xatırladaq ki, qəzalı evlərin sakinləri dəfələrlə aksiya keçiriblər. Bakı Şəhər İcra Hakimiyyətinin, Prezident Administrasiyasının, Nazirlər Kabinetinin qarşısına toplaşan sakinlərə dəfələrlə vədlər verilib ki, problemləri həll olunacaq. Qəsəbə sakinləri bir müddət əvvəl çadırlar quraraq evlərində yaşamaqdan imtina etmişdilər. Lakin rayon icra hakimiyyəti və polis buna icazə verməmişdi.

Qeyd edək ki, rayon icra hakimiyyəti qəzalı evlərdə yaşayan sakinlərə evlərini tərk etmələri barədə bildiriş göndərib. İcra hakimiyyəti evlərini boşaldıb kirayəyə çıxan sakinlərə aylıq 250 manat verəcəyini bildirib. Bir neçə sakin bununla razılaşıb. Lakin icranın bu şərti ilə razılaşmayan sakinlər də var.

**Onlardan biri də qəsəbənin H.Allahverdiyev küçəsində yaşayan Rafiq Bəylər oğlu Abbasovdur.** Onun sözlərinə görə, bəzi sakinlər icranın bu təklifi ilə razılaşıb və evlərini tərk edib. Amma onlara sonradan heç bir köməklik göstərilməyib: "İcra hakimiyyəti deyir ki, çıxın. Ancaq demir ki, neçə aylıq kiraya haqqı verəcək. Soruşanda da deyirlər ki, bizə nə qədər vəsait ayrılsa, o qədər də verəcəyik. Çıxan qonşuların evləri xaraba vəziyyətindədir. Heç demirlər kompensasiya verəcəklər, ya yox. Biz iki ailəyik. 250 manata iki otaqlı ev tutub necə yaşayaq? Bəs, bizim evdəki əşyalarımız? Çıxanda deyirlər ki, evi boşaldın. Necə boşaldaq?".

Onu da qeyd edək ki, qəzalı evlərdə yaşayan bəzi sakinlər icra hakimiyyətinin verdiyi razılıq sənədinə qol çəkib. Belə ki, notariusdan təsdiq edilmiş razılıq sənədinə qol çəkən sakinlər baş verə biləcək qəzada qarşılaşacaqları faciə zamanı bütün məsuliyyəti öz üzərlərinə götürüblər. Bəzi qəzalı evlərin qazı və işığı kəsilib.







Qəsəbə sakini R.Abbasov deyir ki, məsələ ilə bağlı dəfələrlə müvafiq qurumlara müraciət ediblər. İcra hakimiyyətində, Nazirlər Kabinetində qəbulda olublar. Lakin heç bir nəticə olmayıb: "Hara müraciət edirsən deyirlər ki, işə baxılır. Axı bu qədər müddətdə necə olur ki, bir qərar verilmir. Nazirlər Kabinetində Abid Şərifovun qəbuluna gedirik. Lakin bizi həmişə Şahin Salahov qəbul edir. Bir qəsəbə sakini belə Abid Şərifovun qəbulunda olmayıb. Onun qəbul günlərində belə bizi başqaları qəbul edir. Problemin həlli Abid Şərifova həvalə olunsa da, bu işlə maraqlanmır. Prezident Administrasiyasından deyirlər ki, gedin Nazirlər Kabinetinə sizi Abid Şərifov qəbul edəcək. Amma yenə də onun üzünü görə bilmirik. Bu problemlə bağlı bu ilin iyun ayında Abid Şərifov Fövqəladə Hallar Nazirliyinə teleqrama vurub. Bakı şəhər İcra Hakimiyyətinə və rayon icra hakimiyyətinə tapşırığın icrası ilə bağlı FHN-ə lazımi köməkliyin göstərilməsini tapşırıb. Lakin il başa çatır. Ancaq ortada heç bir iş yoxdur".

Zığ qəsəbəsindəki sürüşmə zonasında bir neçə dəfə olarkən qəzalı evlərin vəziyyətini müşahidə etmişik. Hazırkı vəziyyət isə daha da təhlükəlidir. Yay aylarından bu günədək evlərdə və həyətyanı sahələrdə olan çatlar artıb, çökmə əraziləri genişlənib.

Qəzalı evlərin sakinləri ilə söhbətimiz zamanı məlum oldu ki, Nazirlər Kabinetində sonuncu dəfə qəbulda olarkən onlar üçün Masazır qəsəbəsində torpaq sahəsinin ayrılacağı deyilib. Lakin evlərə kompensasiyanın verilməsi haqda heç bir söz deyilmir. Dekabrın 25-də Nazirlər Kabinetində 20-yə yaxın qəsəbə sakini gedib. Qəbulda olan sakinlər deyir ki, onlara yenə də "iş görülür, həll olunacaq" vədi verilib.

❑ **İlkin MURADOV**
**Fotolar müəllifindir**

# Hansı çat daha etibarlıdır-mütəxəssis danışır

## Osman Gündüz: "Çat funksiyası olan istənilən resursda problemlər ola bilər"

**"Facebook parolum sındırılıb, profilim ələ keçirilib", "Şəxsi yazışmalarım gündəmə çıxarılıb" və sairə kimi cümlələrlə tez-tez rastlaşırıq. Daha çox siyasətçilər və tanınmışlardan eşitdiyimiz bu tip cümlələr hansı sosial şəbəkələrin etibarlı və təhlükəsizliyi mövzusunu gündəmə gətirdi. Çoxları "Facebook"un çat bölümü olan messengerin ən etibarsız çat olduğunu deyib orada yazışmağa ehtiyat edir. "Facebook" sosial şəbəkəsinin ən təhlükəli resurs hesab edib, burada yazışmağa ehtiyyat edənlər kifayət qədərdir. Bu fikrin formalaşmasına səbəb isə "Facebook" profillərinin tez-tez qırılması, şəxsi hesablarımızı göndərilən viruslardır. Bir çox insanlar isə yazışmaq üçün ən etibarlı çatın "Watsapp" olduğunu düşünür. Günümüzün çox hissəsinin bu sosial şəbəkələrdə keçdiyini və son dövrlərdə canlı ünsiyyətdən daha çox çat da yazışmağa üstünlük verdiyimizi nəzərə alsaq, sosial şəbəkələrin təhlükəsizliyi məsələsi çoxlarını narahat edir.**



Maraqlıdır, doğrudanmı, bizim yazışmalarımızı oxumaq, hesabımızı, şəxsi məlumatlarımızı ələ keçirmək mümkündür? Belə olan təqdirdə hansı çatı etibarlı hesab etmək olar?

**Multimedia Mərkəzinin rəhbəri Osman Gündüz** zəif çat olmadığını və problemin istifadəçilərlə bağlı olduğunu dedi: "Facebook" kimi nəhəng bir şirkətin informasiya təhlükəsizliyi elə bir reytinqə malik ola bilməz. Sadəcə olaraq burada diqqət yetirilməsi məqam odur ki, insanların gərək özləri öz informasiya təhlükəsizliklərinin qayğısına qalsınlar. Düzdür, məsələnin bir tərəfi ondan ibarətdir ki, gərək sosial media vasitələri özlərinə məxsus informasiya resurslarının elə düzəltməlidirlər ki, burada asanlıqla informasiya əldə olunması, kənara informasiya sızması mümkün olmasın. Zaman-zaman bu məsələ ilə bağlı açıqlamalar, bəyanatlar yayırlar ki, filan məsələ, problem var və həll olundu. Mən son dövrlər eşitməmişəm ki, dünya mətbuatında, internetdə hansısa bir sosial şəbəkənin çatla bağlı hissəsində problem olsun. Ona görə ən zəif çatın bu çat olduğunu demək düzgün olmazdı. Təbii ki, zaman-zaman yalnız "Facebook" sosial şəbəkəsində deyil, hamısında problemlər ola bilir. Amma əsas problem istifadəçilərin özü ilə bağlı olur ki, gərək elementar təhlükəsizlik qaydalarına əməl olunsun. Buna əməl olunmayanda problemlər yaranır".

**O.Gündüz çat funksiyası olan resurslarda yaranan problemlərin çoxunun istifadəçilərin təhlükəsizlik qaydalarına əməl etmədiyi üçün yarandığını dedi:** "Çat funksiyası olan istənilən resursda problemlər ola bilir. Bir var ki, resursun özü tərəfindən problemlər, bir də var ki, istifadəçi tərəfindən problemlər. Son dövrlərdə "Facebook"un təhlükəsizliyi ilə bağlı ciddi qüsur olmasını eşitməmişik. Amma istifadəçi günlərlə bağlı problemlər olur. Gərək istifadəçilər informasiya təhlükəsizliyi qaydalarına riayət etsinlər. Ola bilər ki, bəzən 3-cü tərəf olur müxtəlif informasiya sistemləri quru və izləmə, qeyri-qanuni müdaxilə ilə bağlı bu informasiyaları ələ keçirə bilər. "Facebook", "Google" və müxtəlif nəhəng qlobal resurslar var ki, hökumətlərdən, məhkəmələrdən bunlara müraciətlər olur ki, filankəsin şəxsi məlumatlarını bizə verin. Bu qurumlar zaman-zaman bu cür hesabatları dərc edirlər. Məsələn, dərc edir ki, Rusiya hökumətindən bizə il ərzində 10 min müraciət gəlib ki, biz hansısa istifadəçinin şəxsi məlumatlarını verək. Sosial media resursları belə hesabatlar dərc edirlər ki, hökumətlər bunlara hansı sorğuları göndəriblər. Qeyd edim ki, onlar bu sorğulara hansısa müsbət bir reaksiya vermirlər. Onlar xoşluqla istifadəçilərin barədə məlumatları hökumətlərə təqdim etmirlər. Bunun qəliz bir prosedurası var. Məhkəmənin qərarı olanda daha qorxulu cinayətlərdə ola bilsin ki, versinlər. Amma belə asanlıqla vermirlər".

Ümumiyyətlə, "Facebook" profillərinin qırılması hakerlər tərəfindən həyata keçirilir. Profilin ələ keçirilməsi üçün məşhur üsullardan biri Fishing adlanan üsuldur. Fishing üsulu ilə şəxsi konfendensial materialların ələ keçirilməsi bu gün dünyada məşhurdur. Lakin bir haker üçün bu qeyri-professional addım və ən aşağı metod hesab oluna bilər. Xatırladaq ki, bir çox ölkələrdə bu üsulla kiminsə şəxsi hesabını oğurlamağın, parolunu qırmağın cəzası var. Belə ki, ABŞ-da fishing fəaliyyəti ilə məşğul olan şəxslər 250 min dollara qədər kompensasiya ödəməli olur. İngiltərədə isə fishing fəaliyyətinə görə cinayət törədən şəxs 10 ilə qədər məhkumluq həyatı yaşaya bilər.

Rusiyada kibercinayətkarlıqla mübarizəyə əsasən fishing fəaliyyəti ilə məşğul olan şəxs 6 il azadlıqdan məhrum edilə bilər. Facebook profilinizi təhlükəsizliyinə əmin olmaq üçün aşağıdakıları etmək və bir az diqqətli olmaq kifayətdir.

Çalışın feyk profillərdən uzaq olun;

Sizə göndərilən fishing xarakterli linkərə daxil olub, kiminsə qırmağına keçməyin;

**Təhlükəsizlik tədbirləri üçün facebook sazlamalarında giriş haqda bildirişləri aktivləşdirmək, ancaq öz kompyuter və smartfondan istifadə, SMS bildiriş ilə girişi aktivləşdirmək olar. Nəticədə sizin kodunuzu biləcək şəxs daxil olmaq istəsə belə ondan smslə telefona gələn təhlükəsizlik kodunu soruşacaq. Bunu isə yalnız siz bilmiş olacaqsız.**

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
Son səhifə
N 289 (6317) 26 dekabr 2015

# Arxeoloqların bilmədiyini facebook bildi

Arxeoloqlar bir qəbiristanlıqda tapdıqları yəhudilərə aid antik bir əşyanın nə olduğunu tapa bilməsələr də facebookda onun nə olduğu ortaya çıxıb. Oxlova bənzəyən əşya 6 ay əvvəl bir qəbiristanlıq mühafizəçisi tərəfindən qəbirin kənarında tapılıb. Arxeoloqlara təqdim edilən əşyanın nə olduğu haqda heç bir məlumat əldə oluna bilməyib. Daha əvvəl həmin ərazidə Roma və yəhudi dövrünə aid əşyalar tapılsa da, oxlova bənzər bir şeyə rast gəlinməmişdi. Sonunda arxeoloqlardan biri əşyanın fotosunu facebookda paylaşıb və onun nə olduğu dəqiqləşib. Sən demə, sözü gedən əşya nadir tapıntı deyil, Almaniyadan istehsal edilən, pozitiv enerji verdiyinə inanılan, Adını Misir tanrısı İsisdən almış, "İsis Beamer" adlı cihaz imiş. İndi isə əşyanı qəbirə basdıran şəxs axtarılır. Arxeoloqlar ondan bunu niyə etdiyini öyrənmək istəyirlər.



## Yumurtanın faydaları



Yumurta sarısı D vitamini mənbəyidir. Bu vitamin xüsusilə açıq havada Günəş altında az vaxt keçirənlər üçün (Günəş şüalarının təsirindən dəri vasitəsilə orqanizmdə D vitamini sintez olunur) vacibdir.

Vitamin D orqanizmdə kalsium mübadiləsini tənzimləyir, sümük toxumasını bərkidir. Yumurta sarısı dəmir-minerallar ilə zəngindir. Bu minerallar orqanizmin yorulmasının qarşısını alır, eləcə də onkoloji və ürək-damar xəstəliklərinin inkişafını önləyir. Yumurta sarısının tərkibində "Lesitin" maddəsi var ki, bu maddə qaraciyər və öd yollarının funksiyasının yaxşılaşmasına kömək edir. Lesitin skleroz əleyhinə təsir edir, beyni qidalandırmaqla hafizəni yaxşılaşdırır.

Xolin - yumurta sarısındakı bu maddə süd vəzi xərçəngi riskimi azaldır. Yumurtanın ağı B qrup vitaminlə zəngin olduğu üçün insan orqanizmi üçün çox qiymətlidir. Orqanizmin gündəlik 25% aminturşulara olan tələbatını yumurta ödəyir. Bütün bunlara baxmayaraq yumurtanı çox miqdarda qəbul etmək düz deyil. Orqanizm tərəfindən mənimsənilən artıq zülal böyrəklərin işinə mənfi təsir edir, qan dövranını pisləşdirərək sağlamlığa zərər vurur.

# 18 dil bilən qadından qəribə iddia

18 dil bilən norveçli qadın bu dilləri keçmiş həyatlarına görə bildiyini iddia etməklə hamını şoka salıb. Maria Johnsen adlı qadın keçmiş həyatlarında rus krallıq ailəsinin üzvü, qızıl dərili və Çində Qin Xanədanının bir üzvü olduğuna inanır. Johnsen keçmişdə 18 fərqli həyat yaşadığını və buna görə 18 dil bildiyini deyir. Üstəlik, bu iddiasının psixoloqların da dəstəkləməsini istəyir. Norveçdə bir şirkətdə çalışan qadın ingilis, norveç, fransız, rus, çin, isveç, dan və alman dillərində danışa bilir. Üstəlik, bolqar, fars, dari, ərəb, hind, türk, italyan, yapon və bir neçə başqa dili başa düşür.

"Danışdığım dillərin hər birini hiss edirəm, keçmişimdə onlara aid bir şeylər var. Başqa ölkələrə getdiyim zaman daha əvvəl orada yaşadığımı hiss edirəm. Oradakı insanlar mənə tanış gəlir. Hər şey əla görünür. Ölsəm yenidən doğulacağıma və daha yeni bir dil öyrənəcəyimə inanıram" - deyə müsahibə verən Johnsen İkinci Dünya Müharibəsi haqda kitab yazdığını deyir və müharibədə iştirak etdiyinə inanır.



## 80 avtomobil toqquşdu



Meksikada dəhşətli yol nəqliyyat hadisəsi baş verib. Ölkənin eyniadlı ştatında 80 avtomobilin iştirakı ilə baş verən qəzada ən azı 9 nəfər ölüb, 22 nəfər yaralanıb. Hadisə günorta saat 4 radələrində Meksikanın magistral yollarından birində qeydə alınıb. Kütləvi qəzaya güclü duman səbəb olub. Toqquşan avtomobillər arasında 2 sərnişin avtobusu da olub. Hadisə yerinə 100 xilasedici cəlb olunub. Bu səbəbdən magistral yolda nəqliyyatın hərəkəti iflic olub.

Bundan əvvəl isə ABŞ-ın Etatlar Miçiqan ştatında qar bağlamış şossedə çoxsaylı avtomobil qəzası baş vermişdi. Çətin hava şəraiti ucbatından 193 avtomobil qəza törətmiş, qəza bir nəfərin ölümü, 22 nəfərin xəsarət alması ilə nəticələnmişdi. Qəzanın səs-küylü olmasına səbəb bəzi yük maşınlarında fişənglərin partlaması olub.

## Qoroskop




QOÇ - Səhhətinizi qorumağı bacarsanız, ulduzlar sizi əməlli-başlı sevindirəcək. Saat 13-15 arası maraqlı bir təklif alacağınız gözlənilir. Çalışın ki, imtina etməyəsiniz. Səfər planlarınızı bir daha götür-qoy edin.

BUĞA - Sağlamlığınıza fikir verin. Ulduzların düzümü fiziki xəsarətlər alacağınızı da istisna etmir. Tanış olmayan ünvanlara getməyin. Axşama yaxın sevindirici hadisələrin şahidi olacaqsınız.

ƏKİZLƏR - Mübahisəli bir təqvim yaşayacaqsınız. Təmkininizi qoruya bilməsəniz, ciddi münaqişələrə də cəlb oluna bilərsiniz. Odur ki, iş yerində və ailədə emosional çıxışlara son qoyun.

XƏRÇƏNG - Səhər saatlarında müəyyən gərginliklə üzləşmə ehtimalınız olsa da, sonrakı müddəti uğurlu keçirəcəksiniz. Yeni təkliflər alacağınız da mümkündür. Bir sözlə, sürprizlərə hazır olun.

ŞİR - Ümumi gərginliyiniz kifayət qədər səngiyəcək. Ünsiyyətdə olduğunuz insanlarla, ələlxüsus da həmkarlarınızla davranışlarda mülayim olun. Perspektivli təkliflər ala bilərsiniz.

QIZ - Yeni xəbərlər yolunuzu gözləyir. Bütün astroloji göstəricilər nahardan sonra ağlınıza gətirmədiyiniz adamların sizə sürpriz vəd edəcəyini xəbər verir. Görüşləri təxirə salmayın.

TƏRƏZİ - Nəzərə alın ki, ortalığa pulla bağlı problemləriniz çıxa bilər. Bu səbəbdən də adı çəkilən mövzuya kifayət qədər həssas yanaşmalısınız. Ciddi sövdələşmələrdə iştirakdan yayının.

ƏQRƏB - Hər mənada uğurlu gündür, bir şərtlə ki, əsəblərinizi cilovlaya biləsiniz. Yalnız xeyirli şeylər arzulayın ki, sizə də xeyir gəlsin. Fəaliyyətdə uğurlarınız arta bilər.

OXATAN - Göy qübbəsi varlanma ehtimalınızın yüksək olduğunu bəyan edir. Bu səbəbdən də ümid bağladığınız bütün istiqamətlərə baş vurun ki, kisəniz boş qalmasın. Yeni görüşlərdən yayınmayın.

OĞLAQ - Yaxşı olar ki, ağır fiziki işlərə, ümumiyyətlə, fəaliyyətə ara verəsiniz. Əsas diqqətinizi istirahətə və gəzintilərə həsr edin. Xəstə qohumlarınıza mütləq baş çəkin. Axşama doğru nəqliyyatda diqqətli olun.

SUTÖKƏN - Ailə üzvlərinizlə, xüsusən də sevdiyiniz adamla münasibətləri qaydasına salmaq istəyirsinizsə, güzəştə gedin. Unutmayın ki, həmişə kəsə yolla getmək olmur. Axşamsa qonaq gedin.

BALIQLAR - Hər ehtimala qarşı emosiyalarınızı cilovlamalısınız. Əsas enerjini biznesə həsr edin. Çünki büdcənizi artırmaq və sövdələşmələr aparmaq üçün olduqca düşərli gündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Güzgü qarşısında yemək ye, arıqla



Amerikanın Florida Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, güzgüyə baxaraq yemək yeyən adamlar daha asan arıqlaya bilərlər. Araşdırmaya görə, keyfiyyətsiz yemək yeyən insanlar özlərini güzgüdə gördükləri zaman narahat olurlar və yedikləri yeməyin ləzzətsiz olduğunu düşünürlər. Beləliklə, güzgü qarşısında olarkən daha az yemək yeyirlər və sürətlə arıqlayırlar.

186 nəfərin iştirak etdiyi araşdırmada onlara şokoladlı şirniyyat və meyvə salatı təklif edilib. Daha sonra onlardan yeməklərin dadını dəyərləndirmələri istənilib. Güzgü qarşısında yemək yeyənlər şirniyyatın dadsız olduğunu, masada oturub yeyənlər isə dadlı olduğunu deyiblər.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Elşad MƏMMƏDLİ
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 5.300